Xalqın qəzeti!

# Xalq qəzeti

№ 107 (30223) 23 may 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Bu gün Litva və Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Beləliklə, biz Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq və bu, mümkündür.**

# Xəzərdən Baltikə dostluq və əməkdaşlıq körpüsü

## Vilnüs Beynəlxalq Aeroportunda qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Litva Respublikasına rəsmi səfərə gəlib.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Vilnüs Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Litvanın ətraf mühit naziri Simonas Gentvilas və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

## Rəsmi qarşılanma mərasimi



**Mayın 22-də Vilnüsdəki Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausediene qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Litvanın Dövlət himnləri səsləndirildi.

Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Gitanas Nauseda fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Litva nümayəndə heyəti Azərbaycan Prezidentinə və birinci xanım Mehriban Əliyevaya, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Litva Prezidentinə və xanımı Diana Nausedieneyə təqdim olundu.

Sonra birgə foto çəkdirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xatirə kitabını imzaladılar.

**AZƏRTAC**



## Litva Azərbaycanın köhnə müttəfiqi, yeni tərəfdaşıdır

Səhifə ⇨ 9

## Həkəri postu sözümüzün təsdiqidir




Səhifə ⇨ 11

## Şimal-Cənub dəhlizi: Azərbaycan udan, Ermənistan uduzan tərəfdir

Səhifə ⇨ 10

## Qarabağ, Qərbi Azərbaycana qayıdış və Qərb–Rusiya qarşıdurması

Səhifə ⇨ 8

## Nikolun "niyə də yox" məntiqi



Səhifə ⇨ 11

## Türkiyədə seçkilər: ikinci tura 5 gün qalır



Səhifə ⇨ 10

## Sənədsiz evlər də sığortalanacaq



Səhifə ⇨ 9

## Əziz Şuşa, biz səni dirçəldirik



Səhifə ⇨ 12-13

## İrəvan çalxalanır – Ter-Petrosyandan ölkə ilə bağlı qorxunc anons



Səhifə ⇨ 8

## ABŞ-da haqq sözə hücum...

Səhifə ⇨ 11

## Hələ ovlamadıqları tülkünün dərisindən kürk tikmək istəyənlər



Səhifə ⇨ 8

# Azərbaycan və Litva prezidentlərinin məhdud tərkibdə görüşü



**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə məhdud tərkibdə görüşü keçirilib.**

**AZƏRTAC**

# Azərbaycan və Litva prezidentlərinin geniş tərkibdə görüşü olub



**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub.**

Görüşdə Litva Prezidenti Azərbaycanın xüsusilə son onildə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdi.

Söhbət zamanı dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyəti vurğulandı. Bu xüsusda Litva Prezidentinin Azərbaycana səfəri və həmin səfər çərçivəsində keçirilmiş görüşlərin önəmi qeyd edildi.

Görüşdə ikitərəfli məsələlər müzakirə olundu, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinin, ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyi vurğulandı. Bu xüsusda informasiya texnologiyaları, kibertəhlükəsizlik, bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Litvada keçiriləcək biznes forumun əhəmiyyəti və biznes dairələri arasında birbaşa təmasların qurulmasının vacibliyi qeyd olundu.

Söhbət zamanı nəqliyyat məsələləri, o cümlədən Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr barəsində müzakirələr aparıldı. Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına Litvanın dəstəyi yüksək qiymətləndirildi. Avropa İttifaqı ilə Azərbaycan arasında Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində həyata keçirilən Tvininq layihələrində Litvanın fəal rol oynadığı xüsusi qeyd edildi. Həmçinin bu gün imzalanmış üç sənədin əhəmiyyəti vurğulandı.

Söhbət zamanı ekoloji təhlükələr haqqında ilkin xəbərdarlıq sisteminin qurulması və tullantıların idarəolunması sahəsində Litva təcrübəsinin Azərbaycanla bölüşdürülməsinin önəmi diqqətə çatdırıldı.

Həmçinin bu gün ölkələrimiz arasında imzalanmış gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Sazişin əhəmiyyəti qeyd olundu, 200-dən çox azərbaycanlı tələbənin Litvada təhsil alması və ölkələrimizin təhsil müəssisələri arasında birgə əməkdaşlığın mövcud olması müsbət amil kimi qiymətləndirildi, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olundu.

Görüşdə, eyni zamanda, prokurorluq sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı, hər iki ölkənin aidiyyəti prokurorluq orqanları arasında sənədlərin imzalanmasının vacibliyi vurğulandı.

Eyni zamanda, Litvadakı Azərbaycan icmasının ölkənin inkişafına töhfə verdiyi, onların bu ölkənin sadiq vətəndaşları olduqları diqqətə çatdırıldı.

Görüşdə ikitərəfli əlaqələr, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması məsələləri barədə də fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev litvalı həmkarına Ermənistan ilə Azərbaycan arasında danışıqların aparılması və Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasına dair ölkəmizin baxışları haqqında məlumat verdi.

**AZƏRTAC**

# Azərbaycan–Litva sənədləri imzalanıb



**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub.**



“Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş”i Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Litva Respublikasının ətraf mühit naziri Simonas Gentvilas imzaladılar.

“Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Litva Respublikasının sosial təhlükəsizlik və əmək naziri xanım Monika Navitskiene imzaladılar.

“Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı”nı Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskiene imzaladılar.



**AZƏRTAC**

# Vilnüsdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi lanç verilib

**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausediene tərəfindən rəsmi lanç verilib.**

**AZƏRTAC**

# Azərbaycan və Litva prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Litva Prezidenti bəyanatla çıxış etdi.**



## Prezident Gitanas Nausedanın bəyanatı

- Zati-aliləri cənab Prezident.

Əziz qonaqlar.

Mən bu gün - Litvanın paytaxtı Vilnüsdə Sizi salamlayıram. Bir il bundan əvvəl Azərbaycana səfərim çərçivəsində biz əhəmiyyətli müzakirələrə start verdik, ikitərəfli əməkdaşlıq baxımından, həmçinin iqtisadiyyat və təhsil sahələrində də əlaqələrimizi gücləndirmək qərarına gəldik. Əminəm ki, bu səfər Azərbaycan ilə Litva arasında əməkdaşlıq münasibətlərinə yeni müsbət dinamika əlavə edəcək.

Bu gün cənab Prezident Əliyev ilə mən ikinci Litva-Azərbaycan biznes forumunun açılışını edəcəyik. Əminəm ki, bu platformada iqtisadi sahədə yeni imkanlar yaranacaqdır. Eyni zamanda, bu gün ətraf mühit, gənclər və hüquq-mühafizə sahələrində də Litva ilə Azərbaycan arasında əməkdaşlıq haqqında sazişlər imzalandı. Bu, bizim ikitərəfli münasibətlərimizin inkişafına mühüm təkan verəcəkdir.

Litva 2006-cı ildən etibarən beynəlxalq inkişafa dair layihələrdə Azərbaycan ilə bir yerdə iştirak edir. Azərbaycan Litvanın Avropa İttifaqının Tvininq proqramı çərçivəsində tərəfdaşıdır. Həmçinin Azərbaycan Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də həyata keçirilən layihələrin sayına görə Litvanın əsas tərəfdaşıdır.

Litva Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq əlaqələrinin inkişafının tərəfdarıdır. Biz Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də strateji tərəfdaşlığımızın inkişafı üçün yeni imkanlar axtarmalıyıq. Biz Avropa İttifaqının Azərbaycan ilə enerji sahəsində əməkdaşlığını müsbət qiymətləndiririk. Bu əməkdaşlıq Avropa İttifaqının enerji bazarına müsbət təsir göstərmiş, həmçinin Avropa İttifaqının qış ayları üçün təchizatını təmin etmişdir.

(ardı 3-cü səhifədə)

# Azərbaycan və Litva prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

Rusiyanın hazırda Ukraynada apardığı qəddar müharibə əməkdaşlığımıza yeni məzmun qatıb. Biz Rusiyanın sanksiyalardan yayınmaması üçün bir yerdə çalışmalı və Ukraynanı qələbəsinə qədər dəstəkləməliyik.

Litva Azərbaycan ilə Ermənistan arasında münaqişənin diplomatik yolla dinc, dayanıqlı və əhatəli həllinin tərəfdarıdır. Litva Avropa İttifaqı və Transatlantik müttəfiqlərimizin bu istiqamətdə səylərini güclü şəkildə dəstəkləyir.

Zati-aliləri, əminəm ki, ölkələrimiz və xalqlarımız arasında dostluq bağları bizi gələcək illər üçün də birləşdirəcəkdir. Təşəkkür edirəm.



***

Sonra dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Cənab Prezident, ilk növbədə dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Bu gün biz geniş fikir mübadiləsi əsnasında bir çox önəmli məsələləri müzakirə etdik, bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqlədik. Keçən il Prezident Nauseda Azərbaycanda rəsmi səfərdə idi, bu il isə mən Litvada rəsmi səfərdəyəm. Biz bu ilin əvvəlində Davosda da görüşmüşdük. Yəni, bu, özlüyündə onu göstərir ki, aramızda çox fəal siyasi dialoq aparılır və bu dialoq konkret nəticələrlə də tamamlanır. Siyasi müstəvidə əldə edilmiş razılaşmalar təbii ki, bütün digər sahələrə də öz müsbət təsirini göstərir. Biz çox ümid edirik ki, gələcək illərdə iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək. Əminəm ki, bu gün keçiriləcək biznes forum bu istiqamətdə atılan önəmli addım olacaqdır.

Biznes qurumlarının birgə fəaliyyəti əminəm ki, ticarət dövriyyəsinin artırılmasına da gətirib çıxaracaq. Onu da bildirməliyəm ki, hər iki tərəfdən çox böyük maraq var və keçən ilin may ayında Prezident Nausedanın Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda da Litva–Azərbaycan biznes forumu keçirilmişdir.

Bu gün biz regional məsələlərlə də bağlı geniş fikir mübadiləsi apardıq. Litva Prezidentini Azərbaycan–Ermənistan sülh danışıqları haqqında məlumatlandırdım. Biz ümid edirik ki, sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək. Baxmayaraq ki, Azərbaycan torpaqları uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında idi. Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdür, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. İşğal edilmiş ərazilərdə demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb. Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir.

Bizim Litva ilə ikitərəfli əməkdaşlıq çərçivəsində, eyni zamanda, Avropa İttifaqı–Azərbaycan əlaqələri də önəmli rol oynayır və Litvaya bu əlaqələrin inkişafı üçün göstərdiyi səylərə görə təşəkkürümüzü bildiririk. Prezident Nauseda Azərbaycana səfər edəndən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum uğurla icra edilir. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni, ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq.

Biz bu gün, eyni zamanda, Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq. Biz gördük ki, bu istiqamətdə də demək olar, paralel şəkildə gedirik. Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq.

Təbii ki, ölkələrimizi birləşdirən və ümumiyyətlə, qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşür. Biz razılaşdıq ki, müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir.

Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmi ildən-ilə artır və artacaq. Müasir infrastrukturumuz buna imkan yaradır. Xəzər dənizini, Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da bəllidir. Sadəcə olaraq, biz birgə səylərlə həmin birləşmə layihələrini həyata keçirərək bu sahədə də uğurlu əməkdaşlığa nail olacağıq.

Bütövlükdə deyə bilərəm ki, bu gün müzakirə olunan məsələlərin önəmi bir daha onu göstərir ki, Litva və Azərbaycan strateji tərəfdaşlar kimi uğurla bir-biri ilə əməkdaşlıq edir. Əminəm ki, bu səfərdən sonra bu əməkdaşlığa növbəti güclü təkan veriləcəkdir.

Dəvətə və qonaqpərvərliyə görə, bir daha təşəkkürümü bildirirəm.

**AZƏRTAC**

# Vilnüsdə Azərbaycan–Litva biznes forumu keçirilib





**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva biznes forumu keçirilib. Dövlət başçıları biznes forumda çıxış ediblər.**

### Prezident Gitanas Nausedanın çıxışı

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti.

Hörmətli nazirlər, biznes ictimaiyyətinin nümayəndələri, möhtərəm qonaqlar, xanımlar və cənablar.

Mən litvalı həmkarların da iştirakı ilə Azərbaycandan olan çox sayda iş adamını Vilnüsdə salamlamaqdan məmnunam. Ümidvaram ki, bugünkü müzakirələr ölkələrimizə mövcud əlaqələri dərinləşdirməyə və yeni tərəfdaşlıqları inkişaf etdirməyə kömək edəcək.

Bu il Litva və Vilnüs 700 illiyini qeyd edir. Paytaxtımızın mövcudluğunun ilk günləri Litva hökmdarı Gediminas xarici liderlərə, tacirlərə, müxtəlif sosial təbəqələrdən və dindən olan sənətkarlara dəvət məktubları göndərməsi ilə yadda qaldı. O vaxtdan bu yana Litva başqaları ilə birgə fəaliyyət göstərmək, yeni ideyalar əldə etmək və inkişaf etmək üçün ambisiyalı yolla gedir.

Azərbaycan xalqının ulu əcdadları da bu hekayənin bir parçası olaraq hələ XV əsrdə Litva elçilərini qəbul ediblər. Bu gün biz ikitərəfli əlaqələrimizin sağlam vəziyyətinə arxalana bilərik. Azərbaycan Litvanın mühüm tərəfdaşıdır və biz qarşılıqlı faydalı imkanların axtarılmasında maraqlıyıq. Biz Azərbaycanı nəhəng enerji potensialına malik və şaxələndirməyə can atan inkişaf edən iqtisadi güc kimi görürük. Azərbaycan iqtisadiyyatının informasiya texnologiyaları, logistika, istehsal, qabaqcıl ərzaq sənayesi, bərpaolunan enerji kimi müxtəlif sahələri litvalı iş adamlarını cəlb edir. Biz bu qədər məsələləri müzakirə edə bilərik. Keçmişdə Litva özünü yeni şəraitə asanlıqla adaptasiya olmaq və ondan öz xeyrinə istifadə etmək bacarığını sübuta yetirib. Biz güclü sənaye ənənəsinə və intellektual işçi qüvvəsinə arxalanırıq. Bizim rəqəmsal infrastrukturumuz sürətli və əlçatandır, bütün Avropa İttifaqında ən yaxşılarından biridir.

2020-ci ildə qlobal tənəzzül zamanı Litva ümumi daxili məhsulun mənfi dəyişməsinə imkan vermədi. Bu uğurlu antitsiklik iqtisadi siyasət təcrübəsi yeni qlobal təlatümlərin öhdəsindən gəlmə prosesində istifadə edəcəyimiz mühüm təcrübə olmuşdur. Hazırda biz yaşıl texnologiyaların sənaye istehsalatını dəstəkləmək üçün Avropa İttifaqının planlarını nəzərdən keçiririk. Yeni imkanlar inqilabi və sıfır tullantılı istehsalatla təmin olunacaq. Bu, Litva iqtisadiyyatına fayda verəcək. Xalis sıfır tullantılı iqtisadiyyatların inkişafı, həmçinin Litva və Azərbaycan iqtisadiyyatlarını bir-birinə daha da yaxınlaşdıra bilər. Bizim bugünkü özgüvənimiz son on il ərzində möhtəşəm enerji keçidi prosesi ilə dəstəklənmişdir. Bu, Litvaya Rusiyadan enerjinin, o cümlədən neft, elektrik enerjisi və təbii qazın təchizatını tamamilə dayandıran ilk Avropa ölkəsi olmağa imkan verdi. Hazırda iqtisadi model yanaşmasında fiksə edilmiş aşağı qiymətli enerji həm qurudakı, həm də dənizdəki bərpaolunan enerji mənbələrindən generasiya olunur. Bu, bizim istehsal və xidmət sektorlarımızın rəqabət qabiliyyətini əhəmiyyətli şəkildə gücləndirəcək. Azərbaycan sahibkarları bundan faydalanmaq üçün bu prosesə qoşula bilərlər.

Məmnuniyyətlə qeyd edirəm ki, birinci iqtisadi toplantı ötən il Bakıda keçirildi. Orada mənə Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti ilə biznes forumunun açılışını etmək şərəfi nəsib oldu. Bu gün mən həqiqətən də inanıram ki, ölkələrimiz təkcə iqtisadi cəhətdən yox, eyni zamanda, elm, təhsil və mədəniyyət sahələrində də bir-biri ilə əlaqələr qurmalıdırlar. Yol genişdir və bizim qarşımızdadır. Qoy, bu biznes forumu düzgün istiqamətdə atılmış əlavə addım olsun.

Mən bu biznes forumunu təşkil etdiklərinə görə Litvanın Litfood agentliyinə, İnnovasiya Agentliyinə, Sənayeçilər Konfederasiyasına və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu - AZPROMO-ya və iştirak edən bütün digər təşkilatlara xüsusi təşəkkürümü ifadə etmək istəyirəm. Hamınıza maraqlı və faydalı müzakirələr arzulayıram. Təşəkkür edirəm.

***

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Prezident Nauseda.

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən bir daha cənab Prezidentə göstərilmiş qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Gözəl ölkənizə yenidən gəlməyimə, ikitərəfli və regional məsələlərə, o cümlədən iqtisadi gündəliyə dair cənab Prezidentlə geniş fikir mübadiləsi aparmaqdan çox şadam. Bir il ərzində ölkə rəhbərlərinin ikinci dəfə biznes forumda çıxış etməsi faktı ölkələrimizin biznes subyektləri və sahibkarları arasında təmaslara böyük əhəmiyyət verdiyimizin təzahürüdür.

Hesab edirəm ki, Prezident Nauseda ilə əməkdaşlığımız üçün çox güclü bünövrə qoymuşuq, çox fəal siyasi dialoq qurmuşuq. Artıq söylədiyim kimi, biz ötən ilin mayında Bakıda görüşdük. Sonra bu ilin yanvarında Davosda görüş keçirdik. İndi isə Vilnüsdə görüşürük. Bu, həqiqətən əməkdaşlığımızın dinamik xarakterini göstərir. İndi isə biznes icmaları üçün qarşılıqlı surətdə faydalı və məhsuldar əməkdaşlığı ehtiva edən uzun perspektivli plan üçün vaxt yetişib.

İki həftə öncə burada, Vilnüsdə Litva–Azərbaycan hökumətlərarası komissiyası iqtisadi gündəliyimizdə duran mühüm məsələləri müzakirə etmək məqsədilə öz iclasını keçirdi. Hesab edirəm ki, birgə iqtisadi komissiyanın oynadığı rol biznes dairələrinin səylərini əlaqələndirməkdən, potensial əməkdaşlıq üçün mühüm imkanları dəyərləndirməkdən və tərəfdaşlıq üçün çərçivənin yaradılmasından ibarətdir.

Bu baxımdan planlarımız barədə məlumat mübadiləsi çox əhəmiyyətlidir. Əminəm ki, bu gün keçirilən biznes forumda ölkələrimizdə icrası planlaşdırılan layihələrin növləri, o cümlədən işgüzar dairələrin onlarda iştirakı yolları barədə bir çox müzakirələr olacaq. Bu gün biz cənab Prezidentlə əməkdaşlıq üçün potensial sahələri geniş şəkildə müzakirə etdik. Prezident onları artıq qeyd etdi. Fikrimcə, potensial həqiqətən var. Biz bərpaolunan enerji sahəsinə yatırımlar baxımından eyni istiqamətdə gedirik. Hər iki ölkədə – Baltik və Xəzər dənizlərində çox böyük külək enerjisi potensialı var. Hər iki ölkə bu məsələni gündəliyimizə daxil edib. Bizə gəldikdə, bizdə enerji təhlükəsizliyi mövcuddur. Lakin, bununla belə, biz ixrac məqsədləri üçün daha çox təbii qaza qənaət etmək və elektrik enerjisinin istehsalı üçün təbiətimizin günəş və külək enerjilərindən istifadə etmək istərdik.

Xüsusən də, nəzərə alsaq ki, ötən ilin iyulunda Avropa Komissiyası və Azərbaycan Enerji sahəsində Strateji Tərəfdaşlıqla bağlı Anlaşma Memorandumunu imzaladılar. Biz onun əsasında 2027-ci ilə qədər Avropaya təbii qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə Avropaya təbii qaz təchizatımız 8 milyard kubmetr olmuşdur, bu il isə 12 milyard kubmetr olacaq və 2027-ci ilə qədər 20 milyard kubmetrə çatdırılacaq. Fikrimcə, bu, minimal həddi təşkil edir, çünki potensial çoxdur. Biz mövcud yataqlardan daha çox qaz hasil edirik. Bu yaxınlarda Xəzərdə ən iri yataqlardan birində hasilatın başlanmasını elan edəcəyik. Həmçinin bərpaolunan enerji mənbələrinə qoyulan sərmayələr təbii qaza ixrac məqsədləri üçün qənaət etmək imkanını yaradacaq.

Buna görə Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün nefti, təbii qazı və elektrik enerjisini ixrac edir. Biz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac etməyi planlaşdırırıq. Bütün bunlar bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın strateji çərçivəsinin bir hissəsidir. Biz Azərbaycanın və Avropa Komissiyasının daha yaxın olmaq səylərinə verdikləri daimi dəstəyə görə litvalı dostlarımıza və tərəfdaşlarımıza minnətdarıq.

Düşünürəm ki, işgüzar dairələrin nəzərə alacağı digər mühüm sahə logistika, şəbəkələr və daşımalarda olan böyük potensiala aiddir. Biz daşımalar sektorunu yalnız tranzit gəlirləri baxımından yox, o cümlədən kiçik və orta müəssisələr üçün marşrut boyunca istehsal qurmaq, biznes təmasları yaratmaq, xidmət göstərmək fürsəti kimi görürük.

Bu gün Litva və Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Beləliklə, biz Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq və bu, mümkündür. Çünki biz Avropanın enerji xəritəsinə nəzər salsaq, o, əsasən, Azərbaycanın təşəbbüsləri sayəsində kəskin şəkildə dəyişib. Neft və qaz boru kəmərləri tamamilə yeni vəziyyət yaradır. Eyni sözləri daşımalara da aid etmək olar. Biz qonşularımız və tərəfdaşlarımızla yeni bağlantılar yaratmışıq. Biz Bakının dəniz limanı infrastrukturuna böyük yatırımlar edirik. Xəzərdə daha çox yük daşıya biləcək əlavə gəmilərin tikintisinə investisiyalar qoyuruq. Buna görə, hesab edirəm ki, biznes dairələrə bu fürsəti dəyərləndirmək üçün münasib vaxtdır. Yubanmaq lazım deyil, çünki birmənalı olaraq, çox böyük daşımalar imkanları, xüsusən də hazırkı geosiyasi vəziyyətdə əlavə dəyər gətirəcək.

Həmçinin litvalı dostlarımıza məlumat vermək istərdim ki, Azərbaycan iqtisadiyyatı sabitdir, münbit investisiya şəraiti var və o, təbii sərvətlərə əsaslanır. Lakin hazırda, eyni zamanda, əsas hədəf şaxələndirmədir. Düşünürəm ki, biz iqtisadiyyatımızı xeyli şaxələndirə biləcəyik və enerji sektorundan asılılığı azaldacağıq. Baxmayaraq, enerji sektoru enerji təhlükəsizliyimizdə və Avropanın enerji təhlükəsizliyində öz mühüm rolunu oynamağı davam etdirəcək.

İqtisadi göstəricilərimiz müəyyən statistik məlumatlarda əks olunub. Litva şirkətlərini Azərbaycana daha çox cəlb etmək üçün demək istəyirəm ki, bizim xarici borcumuz çox aşağıdır, ümumi daxili məhsulun 10 faizindən də azdır. Milli valyutamız sabitdir. Əminəm ki, sabit qalacaq, çünki xarici ticarət balansında artıqlıq yaranıb. Bu, kifayət qədər böyük həcmdir. Dövlət Neft Fondumuzda topladığımız valyuta ehtiyatlarımız və Mərkəzi Bankın ehtiyatları xarici borcu on dəfədən çox üstələyir. Beləliklə, iqtisadiyyatımızın sabitliyi regional iqtisadi əməkdaşlıq və sərmayə mühiti üçün mühüm amildir, çünki münbit investisiya mühiti təkcə yaxşı qanunvericiliyin yazılması ilə şərtlənmir. Bu, kifayət deyil. Yaxşı biznes imkanlarının, çox dinamik yerli bazarın və qonşu bazarlara çıxışın olması vacibdir. Buna görə, Azərbaycan bazarı genişlənir, əhali artır. Mərkəzi Asiya bazarlarına çıxış təmin edilir. Həmçinin ölkənizin yerləşdiyi regionla güclü bağlantıların qurulması birmənalı olaraq əlavə imkanlar yaradacaq.

Bir sözlə, əminəm ki, bu görüş yaxşı nəticələr verəcək. Artıq qeyd edildiyi kimi, bu gün bir sıra sənədlər imzalandı. Ümid edirik ki, onların hamısı yaxşı nəticələr verəcək və bu cür toplantıların səmərəliliyini nümayiş etdirəcək. Həmçinin bu fürsətdən istifadə edərək, mən Litvanın biznes icmasından olan dostlarımızı Azərbaycana səfərə və dialoqu davam etdirməyə dəvət edirəm.

Çox sağ olun.

***

Litvanın iqtisadiyyat və innovasiyalar naziri xanım Auşrine Armonaite biznes forumda çıxış edərək Azərbaycanın Cənubi Qafqaz regionunda Litvanın önəmli tərəfdaşı olduğunu qeyd etdi. Nazir Litvanın iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. İki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin çoxşaxəli olduğunu qeyd edən Auşrine Armonaite Litvanın birbaşa qarşılıqlı xarici investisiyaların stimullaşdırılmasında maraqlı olduğunu vurğuladı. Ölkələrimiz arasında əməkdaşlıq layihələrinin genişləndirilməsində çoxlu imkanların mövcud olduğunu qeyd edən litvalı nazir Azərbaycanla ən yaxşı təcrübə, ekspert biliyi və uğur hekayələri ilə bölüşməkdə maraqlı olduqlarını dedi.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov iki ölkə arasında investisiyaların qorunması və ikili vergiqoymaya yol verilməməsi mexanizminin mövcud olduğunu bildirdi, bunun investorların fəaliyyətinə töhfə verdiyini qeyd etdi. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi hədəfindən danışan Mikayıl Cabbarov ötən dörd ildə ölkəmizin qeyri-neft-qaz ixracının iki dəfə artdığını dedi. Alternativ enerji mənbələrindən danışan nazir bu enerji mənbələrinə keçidin Azərbaycanın iqtisadiyyatına əhəmiyyətli və müsbət təsir etdiyini vurğuladı.

***

Biznes forumda hər iki ölkədən iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən, ümumilikdə, 80-dək şirkət təmsil olunub.

**AZƏRTAC**

# Litvanın Baş naziri ilə görüş



**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Baş naziri xanım İnqrida Şimonite ilə görüşü olub. Əvvəlcə birgə foto çəkdirildi.**

Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Baş nazir Litvanın Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramı çərçivəsində həyata keçirilən Tvininq layihələrində fəal rol oynadığını xüsusi qeyd etdi, ölkəsinin bundan sonra da bu sahədə əməkdaşlığa hazır olduğunu bildirdi.

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsinin aparıldığı görüşdə bu sahədə böyük potensialın olduğu vurğulandı. Xüsusilə investisiyalar, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh danışıqları prosesi haqqında məlumat verdi. Qeyd etdi ki, Azərbaycan tərəfindən sülh müqaviləsinin imzalanması üzrə beş prinsip təqdim olunub. Həmçinin Azərbaycan bir-birinin ərazi bütövlüyünün və suverenliyinin tanınması prinsipləri əsasında sülh müqaviləsinin imzalanmasına hazır olduğunu dəfələrlə ifadə edib.

Söhbət əsnasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə həyata keçirilən Brüssel sülh prosesinin əhəmiyyəti vurğulandı. Litvanın Baş naziri ölkəsinin Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunmasını dəstəklədiyini qeyd etdi. O, nəqliyyat dəhlizlərinin açılması məsələsində Litvanın ərazisindən keçən və Rusiya ilə Kalininqradı birləşdirən tranzit dəhlizi layihəsi üzrə öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Litvanın müstəqilliyi uğrunda mübarizədə həlak olanların xatirəsinə ucaldılan abidəni ziyarət



**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüsdə Litva Respublikasının müstəqilliyi uğrunda mübarizədə həlak olanların xatirəsinə ucaldılan abidəni ziyarət ediblər.**

Dövlətimizin başçısının şərəfinə burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüs Qədim şəhərini gəziblər





**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüs Qədim şəhərini gəziblər. Dövlətimizin başçısına və birinci xanıma Vilnüs Qədim şəhərinin tarixi haqqında məlumat verildi.**

Bildirildi ki, Vilnüs Qədim şəhərin arxitekturasında keçmişin və gələcəyin vəhdəti hiss olunur. Şimali Avropanın Orta əsrə aid ən böyük şəhərlərindən sayılan Vilnüsün Qədim şəhər hissəsinin sahəsi təqribən 3,6 kvadratkilometrdir. Burada Avropanın ən qədim qotik, intibah, barokko və neoklassik memarlıq üslublarında inşa olunmuş binalar bir-birini tamamlayır. Ən mükəmməl memarlıq komplekslərindən biri Qədim şəhərin böyük bir hissəsini tutan və 13 həyəti olan Vilnüs Universiteti Memarlıq Ansamblıdır.

Qeyd olundu ki, Vilnüs Qədim şəhərinin universal dəyəri və orijinallığı nəzərə alınaraq 1994-cü ildə UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilib. Litvanın paytaxtına gələn qonaqlar mütləq Qədim şəhərlə tanış olurlar. Çünki Vilnüsün digər yerləri ilə müqayisədə Qədim şəhərdə diqqət cəlb edən memarlıq abidələri daha çoxdur.

**AZƏRTAC**

# Azərbaycanın və Litvanın birinci xanımlarının görüşü



**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Litva Respublikasının birinci xanımı Diana Nausediene ilə görüşü olub.**

**AZƏRTAC**

# Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Martyunas Mazvyudas adına Litva Milli Kitabxanası ilə tanış olub



**Mayın 22-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Litva Respublikasının birinci xanımı Diana Nausediene Martyunas Mazvyudas adına Litva Milli Kitabxanası ilə tanış olublar.**

Birinci xanım Mehriban Əliyevaya kitabxananın fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, əsası 1919-cu ildə Mərkəzi Dövlət Kitabxanası kimi Kaunasda qoyulan bu elm mərkəzi Litvanın əsas elmi-kütləvi mədəniyyət müəssisəsidir. Sonradan adı bir neçə dəfə dəyişdirilən və 1963-cü ildə paytaxt Vilnüsə köçürülən kitabxana 1988-ci ildən Martyunas Mazvyudasın adını daşıyır. 1989-cu ildə ona Milli Kitabxana statusu verilib. Kitabxana 1993-cü ildən ölkənin mədəni irs reyestrinə daxil edilib. Bu, həmçinin Baltikyanı ölkələrdə inşa olunan ilk kitabxana binasıdır.

Kitabxananın əsas fəaliyyət istiqamətləri Litva xalqının yazılı mədəni irsinin toplanması, gələcək nəsillər üçün qorunub saxlanılması və ictimaiyyətə təqdim edilməsinə kömək göstərilməsidir. Kitabxananın fondunda 7 milyona yaxın (1,8 milyon adda) çap məhsulları və digər sənədlər saxlanılır.

Qeyd olundu ki, ixtisaslaşdırılmış yeddi oxu zalının, həmçinin üç tədqiqat mərkəzinin fəaliyyət göstərdiyi kitabxanada milli arxiv sənədləri, nadir kitablar və əlyazmalar, musiqi və vizual incəsənət kolleksiyaları, həmçinin şəxsi kolleksiyalar və sair mövcuddur.

Kitabxana müxtəlif milli və beynəlxalq kitabxana müəssisələri və təşkilatları ilə əməkdaşlıq edir.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra kitabxana tərəfindən göstərilən xidmətlər, həyata keçirilən layihələr və bu mədəniyyət müəssisəsinin xarici əlaqələri barədə videoçarx nümayiş olundu.

Sonda birinci xanım Mehriban Əliyevanın adından kitabxanaya Azərbaycanın mədəniyyəti, incəsənəti, tarixi, həmçinin Qarabağ və Şuşa haqqında kitablar hədiyyə edildi.

**AZƏRTAC**

# Rəsmi səfər başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasına rəsmi səfəri mayın 22-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Vilnüs Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

**Mehriban xanım Əliyeva Litvadan paylaşım edib:**

## Səmimi qəbula və qonaqpərvərliyə görə çox sağ olun!



**Birinci xanım Mehriban Əliyeva mayın 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri ilə bağlı instaqram hesabında paylaşım edib.**
**Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Litva. Səmimi qəbula və qonaqpərvərliyə görə çox sağ olun!".**

## Mehriban xanım Əliyeva Avropa çempionatının qalibi olan gimnastlarımızı təbrik edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva mayın 21-də qrup hərəkətləri komandamızın Bakıda keçirilən bədii gimnastika üzrə 39-cu Avropa çempionatının qalibi olması münasibətilə instaqram hesabında paylaşım edib.**



Mehriban xanım Əliyeva paylaşımında parlaq qələbə münasibətilə gimnastlarımıza təbriklərini çatdıraraq qeyd edib: "Ura! Sizi təbrik edir, sizinlə fəxr edirəm! Çox möhtəşəmsiniz! Əməyinizə, qələbə əzminizə, gözəlliyinizə və zərifliyinizə görə çox sağ olun!"

Xatırladaq ki, Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız üç lent və iki topla hərəkətlərdə uğurla çıxış ediblər. Gimnastlarımızın möhtəşəm çıxışı hakimlər tərəfindən 32,250 xalla qiymətləndirilib.



## Litva Respublikasının keçmiş Prezidenti Zati-aliləri cənab Valdas Adamkusa

**Zati-aliləri,**

Həyat yoldaşınız, ömür-gün dostunuz Alma Adamkiyenenin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirik.

***İlham ƏLİYEV və Mehriban ƏLİYEVA***

**Bakı şəhəri, 21 may 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Əlamətdar tarix – dahi atanız, görkəmli siyasət və dövlət xadimi, qardaş Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün Müstəqil Dövlətlər Birliyinin əksər ölkələrində və Rusiyanın regionlarında böyük sovet ölkəsinin sosial-iqtisadi inkişafına Heydər Əlirza oğlunun çox qiymətli töhfələrini yüksək ehtiramla xatırlayırlar.

Onu haqlı olaraq müasir müstəqil Azərbaycanın qurucusu adlandırırlar. O, Vətənə sədaqətli xidməti ilə həqiqətən bütün azərbaycanlıların əsl xalq sevgisini qazanıb.

Hörmətli İlham Heydər oğlu, Siz ata vəsiyyətini yorulmadan yerinə yetirməklə və ailə ənənələrini möhkəmləndirməklə ölkənin dinamik və hərtərəfli inkişafını təmin etmisiniz, bütün sahələrdə onun əsl suverenliyinə nail olmusunuz, ərazi bütövlüyünü bərpa etmisiniz, dövlətin beynəlxalq arenada təhlükəsizliyini və nüfuzunu möhkəmləndirmisiniz.

Ümummilli lider Heydər Əliyevin parlaq xatirəsi qarşısında dərin ehtiramımı ifadə edərək, Sizə və yaxınlarınıza möhkəm cansağlığı və firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh, daha böyük inkişaf və rifah diləyirəm.

**Dərin hörmətlə,**

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

***

**Hörmətli İlham Heydər oğlu!**

"VTB Bank"ın İdarə Heyətinin və kollektivinin adından Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Keçmiş SSRİ-nin və Azərbaycan Respublikasının görkəmli dövlət xadimi Heydər Əliyev tarixdə böyük iz qoyub. Onun qəbul etdiyi qərarlar, rəhbərliyi ilə həyata keçirilən strateji proqramlar böyük Avrasiya məkanında iqtisadi və siyasi inkişafın fundamental əsaslarını öncədən qoyub.

Heydər Əliyev şəxsiyyətinin gücü və miqyası, onun vətənpərvərliyi, siyasi müdrikliyi və uzaqgörənliyi xüsusən sınaq dövründə - sabit şəkildə tərəqqi edən, səmərəli beynəlxalq əməkdaşlığa yönəlmiş, regionda və dünyada güclü təsirə və nüfuza malik olan ölkənin - müasir Azərbaycanın dövlət quruculuğunun formalaşması proseslərinə rəhbərlik etdiyi illərdə özünü daha parlaq şəkildə göstərdi.

Azərbaycan xalqı və onun dostları üçün bu əlamətdar gündə səmimi təbriklərimi qəbul edin. Respublikaya və onun vətəndaşlarına uğurlar və tərəqqi, Sizə isə, hörmətli İlham Heydər oğlu, Heydər Əliyevin Vətən naminə gördüyü işlərin davam etdirilməsi kimi məsul fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

**Dərin hörmətlə,**

***Andrey KOSTİN,***
***"VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti İdarə Heyətinin sədri***

***

**Əziz qardaşım, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!**

Bu il ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə biz onun Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasında böyük xidmətlərini bir daha xatırlayırıq. Bu əlamətdar yubiley, həmçinin Heydər Əliyevin tolerantlıq və inklüzivlik baxımından nümunə olan firavan Azərbaycanın inkişafında nailiyyətlərini təqdir etmək üçün gözəl fürsətdir. Zati-aliləri Heydər Əliyev bizim hamımıza müasir dövlətin inkişaf yolunu göstərdi, eyni zamanda, bütün azərbaycanlıları öz ətrafında toplaya bildi.

Biz, həmçinin məmnunuq ki, cənab Əliyev, Siz liderliyinizlə bu ənənəni və bu yolu davam etdirirsiniz. Şübhəsiz ki, bu xidmətlərinin sayəsində Sizin dünya liderləri arasında müasir tarixdə xüsusi yeriniz var. Xorvatiyalı müsəlmanlar və mən Sizə və bütün Azərbaycan xalqına qarşıdakı illərdə böyük uğurlar arzulayırıq. Uca Allahdan ulu öndər Heydər Əliyevə rəhmət diləyir, Sizə və bütün dünya müsəlmanlarına cansağlığı arzulayıram.

Allah Sizin xeyirxah işlərinizi daim mükafatlandırsın!

Allah Sizi qorusun!

**Dərin ehtiramla,**

***Müfti Əziz HƏSƏNOVİÇ,***
***Xorvatiya İslam Cəmiyyəti Ali Şurasının sədri***

***

**Zati-aliləri, əziz Qardaşım!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Əlcəzair xalqının, hökumətinin adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə daha çox inkişaf, firavanlıq və tərəqqi diləməkdən məmnunluq duyuram.

Ölkənizin tarixində bu əlamətdar hadisənin qeyd edilməsi, Qoşulmama Hərəkatının hazırkı sədri olaraq 2022-ci ilin noyabr ayında Əlcəzairin ev sahibliyi etdiyi Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında fəxri qonaq qismində dəyərli iştirakınız mənə dostluq və əməkdaşlıq münasibətlərimizin dinamizmindən dərin məmnunluğumu ifadə etmək imkanı verir.

Ölkələrimizin ümumi maraqları və qardaş xalqlarımızın istəklərinə xidmət edən əlaqələrimizi möhkəmləndirmək və inkişaf etdirmək məqsədilə Sizinlə əməkdaşlığımızı, həmçinin ümumi maraq kəsb edən məsələlər və dünyada sülhü və təhlükəsizliyi möhkəmləndirə biləcək beynəlxalq forumlarda məsləhətləşmələrimizi davam etdirməyə hazır olduğumu bir daha qeyd etmək istərdim.

Zati-aliləri cənab Prezident, əziz Qardaşım, bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Abdelmacid TEBBUN,**
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən xoş təbriklərimi çatdırır, Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

**Hörmətlə,**

**XVI Karl QUSTAV, İsveçin Kralı**

***

**Cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Bu fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində fəaliyyətimizi davam etdirmək istəyimi Sizə bir daha ifadə edirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Migel Dias-Kanel BERMUDES,**
**Kuba Respublikasının Prezidenti**

***

**Hörmətli İlham Heydər oğlu!**

Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyası, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurası, Rusiya Vəkillər Gildiyası, Rusiya Vəkillik və Notariat Akademiyası, "Moskva Hüquq Mərkəzi" Vəkillər Kollegiyası adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə irimiqyaslı siyasi, iqtisadi islahatlar və böyük dəyişikliklər, əhalinin sosial rifahının artırılması yolu ilə inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir. Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan və Rusiya arasında iqtisadi, siyasi, mədəni əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. 2022-ci ilin fevralında imzalanan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə şübhəsiz ki, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətli şəkildə artmasına kömək edəcək və bu da bizim dost xalqlarımızın maraqlarına tam cavab verir. Mən həmvətənli olaraq, tarixi Vətənimlə fəxr edir, qürur duyuram.

Xüsusi vurğulamaq istəyirəm ki, Siz Azərbaycan Respublikasında Heydər Əlirza oğlu Əliyevin islahatçılıq yolunun layiqli davamçısısınız. Sizin vətənpərvər və vətəndaş kimi fəal həyat mövqeyiniz, dövləti vəzifələri mükəmməl surətdə icra etməyiniz Vətənə layiqli xidmətin nümunəsidir.

Qoy, enerji, gümrahlıq və ruh yüksəkliyi daim Sizin nəsibiniz olsun! Sizə cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının sədri, Rusiya Vəkillər Gildiyasının prezidenti, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

***

**Möhtərəm cənab Prezident!**

Sizi Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edir, işlərinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

Bu il müstəqil Azərbaycan Respublikasının tarixində xüsusi il – "Heydər Əliyev İli"dir. Ümummilli Lider 1993-cü ildə müstəqilliyimizin böyük təhlükə ilə üzləşdiyi zamanda hakimiyyətə qayıtdı və müstəqilliyimizi qoruyub saxladı. Azərbaycanda sabitlik yarandı, enerji sahəsində dünyanın aparıcı şirkətləri ilə böyük layihələr həyata keçirildi, ölkəmiz bölgədə aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəyə sülh və inkişaf gətirdi.

Siz Heydər Əliyev dəyərlərinə yeni nəfəs gətirdiniz, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımız Sizin siyasətinizin nəticəsində azad edildi.

Möhtərəm cənab Prezident, artıq bir neçə ildir ki, Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir. Sizin rəhbərliyinizlə ölkəmizin ərazi bütövlüyü bərpa olundu və doğma yurdlarını tərk etmiş vətəndaşlarımız bu gün çiçəklənən Qarabağa, Şərqi Zəngəzura - ana yurdlarına qayıdırlar. Bu proseslər Sizin uzun illərə hesablanmış və düşünülmüş siyasətinizin nəticəsində mümkün oldu.

Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsi xalqımızın Qələbəsi ilə başa çatdı və bu gün ölkəmizdə böyük bərpa işləri həyata keçirilir, Qarabağa onun əvəzsiz gözəlliyi və mənəvi həyatı qaytarılır.

Sizə işlərinizdə böyük uğurlar, möhkəm cansağlığı arzulayıram.

**Dərin hörmətlə,**

**Asəf HACIYEV,**
**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi**

## Əməkdaşlığa dair memorandum imzalanıb

**Mayın 22-də Vilnüsdə keçirilən Litva-Azərbaycan biznes forumu çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Litva İnnovasiyalar Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb.**



KOBİA-dan AZƏRTAC-a bildiriblər ki, sənədi Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Litva İnnovasiyalar Agentliyinin nümayəndəsi İndre Balciunaite imzalayıblar.

Memorandumda hər iki ölkənin kiçik və orta biznes subyektləri arasında müxtəlif tədbirlərə dair qarşılıqlı məlumat və KOB-lara xidmət sahəsində təcrübə mübadiləsi, KOB-lar arasında əməkdaşlığın gücləndirilməsi üçün birgə tədbirlərin təşkili və digər məsələlər nəzərdə tutulur.

Biznes forumda təqdimatla çıxış edən Orxan Məmmədov KOBİA-nın fəaliyyəti, ölkəmizdə KOB subyektlərinə göstərilən dəstək və xidmətlər, eləcə də Azərbaycan və Litva KOB-ları arasında əməkdaşlıq imkanları barədə məlumat verib.

# Əli Əsədov Monteneqro parlamentinin sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 22-də ölkəmizdə səfərdə olan Monteneqro parlamentinin sədri xanım Daniyela Curoviçlə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycanla Monteneqro arasında müxtəlif sahələrdə münasibətlərin səviyyəsindən məmnunluq ifadə olunub.

İki ölkə arasında əlaqələrin hərtərəfli inkişafında parlamentlərin rolu yüksək qiymətləndirilib.

Görüşdə, həmçinin Azərbaycan-Monteneqro qarşılıqlı faydalı əməkdaşlığının müxtəlif istiqamətlərdə genişləndirilməsi perspektivləri müzakirə olunub.

# XİN-in nümayəndə heyəti ABŞ-da

**Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-a işgüzar səfər edib.**



Azərbaycanlı diplomatlar ABŞ Senatının üzvləri senator Tom Koton, senator Ben Kardin, Konqresin Nümayəndələr Palatasının üzvləri Cək Berqmən, Çak Flayşmən, Mayk Ezel və Robert Aderholt ilə görüşüblər.

Aparılan söhbətlərdə ABŞ-Azərbaycan ikitərəfli əlaqələri, həmçinin regionda gedən proseslər, eyni zamanda, Ermənistanla davam edən sülh danışıqları barədə qarşı tərəf məlumatlandırılıb. "Laçın" sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi ilə əlaqədar ABŞ-da fəaliyyət göstərən radikal erməni təşkilatlarının Konqres üzvlərinə təqdim etdikləri həqiqətə uyğun olmayan və əsassız məlumatların, bu çərçivədə ABŞ Konqresinin üzvləri tərəfindən birtərəfli və ABŞ-ın milli maraqlarına xidmət etməyən qətnamələrin irəli sürülməsinin iki ölkə arasında əlaqələrlə yanaşı, hazırda davam edən sülh danışıqlarına da zərər verdiyi vurğulanıb.

Nümayəndə heyəti ABŞ-Azərbaycan Ticarət Palatasını ziyarət edib, Kolumbiya əyaləti və ətraf ştatlarda yaşayan Azərbaycan icmasının fəalları ilə görüşüb, Nyu-York şəhərində Azərbaycan bayrağının ucaldılması tədbirində iştirak edib.

**Qəzənfər QASIMOV,**
**"Xalq qəzeti"**

# Media savadlılığı və dezinformasiya ilə mübarizə

**Dünən Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma proqramlarının birgə təşkilatçılığı ilə təhsil işçiləri və media nümayəndələri üçün "Media savadlılığı və dezinformasiya ilə mübarizə" mövzusunda təlim proqramına başlanılıb.**



Təlimlərin keçirilməsində əsas məqsəd jurnalistlərin və təhsil işçilərinin media savadlılığı ilə bağlı məlumatlılıq səviyyəsinin yüksəldilməsi və bu istiqamətdə inkişaf imkanlarının genişləndirilməsidir.

İki gün davam edəcək təlim proqramı çərçivəsində "The European Alliance" xəbər agentliyinin baş katibi Alexandru Giboi və İsveçrənin "Università Svizzera İtaliana" (USI) Universitetinin media menecmenti, media iqtisadiyyatı və media sənayesi üzrə professoru Matthew Hibberd təhsil və media, kütləvi informasiyanın məzmunu, onun ötürülməsi və istehlakı, tənqidi dəyərləndirmə, təhlilaparma qabiliyyəti, yeni media mühitindəki tendensiyalar və digər mövzularla bağlı öz təcrübələrini bölüşəcəklər.

**"Xalq qəzeti"**

# Azərbaycanda Türkiyə Prezidenti seçkilərinin ikinci turunun səsverməsi başa çatıb

**Türkiyədəki Prezident seçkilərinin ikinci turu üçün Azərbaycanda keçirilən səsvermə başa çatıb.**

Anadolu agentliyi xəbər verir ki, Türkiyənin Bakıdakı səfirliyi ilə Naxçıvan və Gəncədəki baş konsulluqlarında 3 gün davam edən səsvermə saat 22:00-da yekunlaşıb.

Bakıda 9, Gəncədə 3, Naxçıvanda isə 3 qutu olmaqla ümumilikdə 15 qutu olub. Səfirliyin binasında 7417, Gəncədə 2277, Naxçıvanda isə 1349 nəfər olmaqla ümumilikdə 11 min 43 seçici səs verib.

Bülletenlər diplomatik poçtla Türkiyəyə göndərilib.

Azərbaycandakı türk seçicilərin 60,26 faizi birinci turda iştirak edib.

# "Yaşıl iqtisadiyyat"da milli parlamentlərin rolu



**Dünən Milli Məclisin və ATƏT Parlament Assambleyasının (PA) birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfrans keçirilib.**

Milli Məclisin deputatı, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, qurumun İqtisadi məsələlər, Elm, Texnologiya və Ətraf Mühit üzrə Baş Komitəsinin sədri Azay Quliyev ATƏT-in 27 müxtəlif ölkəsindən və 4 beynəlxalq təşkilatdan bir çox nümayəndələrin toplantıya qatıldığını söyləyib.

O milli iqtisadiyyatlarda "yaşıl" prinsiplərin həyata keçirilməsində parlamentlərin rolu, bu sahədə əlaqələrin, davamlı inkişafla bağlı təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, "yaşıl" texnologiyaların istifadəsi təkcə ətraf mühitin qorunmasını təmin etməyəcək, həm də yeni iqtisadi perspektivlər yaradacaq. Bu da davamlı inkişafın bütün aspektlərinə müsbət təsir göstərəcək. İnklüziv yaşıl iqtisadiyyata keçid istər-istəməz tədricən olacaq və bir çox problemlərlə müşayiət ediləcək. Ancaq irəliyə doğru düzgün addımlar ataraq onu sabit və davamlı etmək olar. Milli Məclisin sədri qeyd edib ki, bu, Azərbaycanın gündəmində də mühüm yer tutur. Son illərdə bərpaolunan enerji mənbələrinin enerji təchizatındakı payının əhəmiyyətli dərəcədə artırılması üçün mühüm addımlar atılıb.

Sonra ATƏT PA-nın sədri Marqareta Sederfelt, Monteneqro Parlamentinin sədri Daniyela Curoviç, ATƏT PA-nın Baş katibi Roberto Montella çıxış ediblər.

Onlar tədbirin ATƏT regionunda ətraf mühitin mühafizəsi problemlərinin aradan qaldırılmasına, ekoloji böhran şəraitində milli iqtisadiyyatların dayanıqlı inkişafının təmin edilməsinə, sabitliyin qorunmasına töhfə verəcəyinə əminliklərini bildiriblər.

Konfrans öz işini panellərdə davam etdirib.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**

# Azərbaycanda Ermənistanla sülh müqaviləsinə ictimai münasibət necədir?

**Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinə ictimai münasibəti öyrənmək məqsədilə sorğu keçirib.**

Sorğuda iştirak edənlərin 77,3 faizi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsini dəstəklədiyini bildirib, 20,6 faiz respondent bu barədə əks mövqedə qərarlaşıb, 2,1 faiz isə fikir bildirməkdə çətinlik çəkib.

Nəticələrə əsasən, respondentlərin mütləq əksəriyyəti və ya 85,2 faizi Azərbaycan və Ermənistan arasında sülh razılaşması ilə bağlı prosesləri və xəbərləri izlədiyini qeyd edib. Respondentlərin cəmi 14,8 faizi prosesləri izləmədiyini bildirib.

Nəticələrin gender aspektdən təhlili sözügedən mövzuda kişi və qadınların bərabər səviyyədə müsbət mövqedən çıxış etdiyini göstərib.

Nəticələri respondentlərin təhsil səviyyələri üzrə təhlil etdikdə ali təhsillilərin 82,7 faizi, orta təhsillilərin 72,2 faizi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsini dəstəkləyib. 18-24 yaş qrupunu təmsil edənlərin 76,9 faizi, 65-dən yuxarı yaş qrupuna mənsub olanların 87,3 faizi isə analoji mövqedən çıxış edib.

Qeyd edək ki, 2022-ci ilin sentyabr ayında keçirilən sorğunun nəticələrinə əsasən, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinə respondentlərin 71,2 faizi ( "tam dəstəkləyirəm" - 50.2 faiz, "əsasən dəstəkləyirəm" – 21 faiz) bu və ya digər dərəcədə dəstəyini ifadə edib. Respondentlərin cəmi 2,6 faizi əsasən dəstəkləmədiyini, 23,6 faizi heç dəstəkləmədiyini bildirib. İştirakçıların 2,6 faizi bu suala rəyini ifadə etməkdə çətinlik çəkib.

Həmin ilin dekabr ayında keçirilən sorğuda iştirak edənlərin 73,1 faizi sülh müqaviləsini dəstəklədiyini, 25,6 faizi dəstəkləmədiyini bildirib. 1,3 faizi bu suala fikir bildirməkdə çətinlik çəkib.

Göründüyü kimi, ötən ilin müxtəlif dövrlərində keçirilən rəy sorğusunun nəticələri ilə müqayisədə Azərbaycan cəmiyyətində sülh müqaviləsinin imzalanmasına dəstəyini ifadə edənlərin sayında nisbi artım müşahidə olunub. Azərbaycan cəmiyyətinin sülh və barış mövqeyinə baxmayaraq, Ermənistan postmüharibə mərhələsində də ölkəmizə qarşı hərbi təxribatlarını davam etdirərək sülh prosesindən yayınmağa çalışır.

Qeyd edək ki, sorğular 2023-cü il mayın 14-17-də könüllü iştirak əsasında 18 yaşından yuxarı 384 respondent arasında keçirilib, anonimlik tam qorunub. Sorğularda telefonla müsahibə formasından istifadə edilib və 12 iqtisadi rayon əhatə olunub. Bu məqsədlə müvafiq məlumat bazasından sözügedən iqtisadi və inzibati rayonlara (şəhərlərə) aid stasionar telefon nömrələri təsadüfi qaydada seçilərək zənglər olunub. Sorğunun seçmə çərçivəsi ölkə üzrə əhali sayının paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Nəticələrin əminlik intervalı 95 faiz, xəta payı 5 faizə bərabərdir.

# Daha 19 Vətən müharibəsi iştirakçısı polis orqanlarında xidmətə qəbul olunub

**Mayın 22-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**



Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib.

Sıra baxışında DİN-ə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***Q.QASIMOV, "Xalq qəzeti"***

# Naxçıvanda leysanın fəsadları aradan qaldırılır

**Dünən Naxçıvan şəhərində aramsız davam edən leysan çöl-bayırda işi pozub, yollarda nəqliyyatın hərəkətini çətinləşdirib, bəzi yerlərdə sakinlərə və təsərrüfatlara ziyan vurub.**



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, nazirliyin "112" qaynar telefon xəttinə Naxçıvan şəhərində intensiv yağışlar nəticəsində bəzi fərdi yaşayış evlərinin və inzibati binaların zirzəmilərinin subasmaya məruz qalması barədə xəbər daxil olub. Dərhal həmin ünvanlara göndərilmiş Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin qüvvələri fəaliyyətə başlayıb.

Gerçəkləşdirilən operativ tədbirlərlə selin fəsadları aradan qaldırılır, suyun yollardan və zirzəmilərdən çəkilərək kanalizasiyalara yönləndirilməsi təmin edilir.

**"Xalq qəzeti"**

# “Bu adam SSRİ-ni dəyişməyə gəlib”



## II SÖHBƏT

**Müasir dövrün ictimai-siyasi xadimləri sırasında özünü Heydər Əliyev məktəbinin sadiq yetirməsi kimi tanıdan və bu gün də ulu öndərin irsinə sədaqətilə seçilən Misir Mərdanovla “Heydər Əliyev xatirələr işığında” layihəsində ikinci söhbətimizi oxucularımıza təqdim edirik.**

**– Misir müəllim, ilk söhbətinizdən məndə belə təəssürat yarandı ki, Heydər Əliyevin rəhbərliyi altında işləmək əvəzsiz bir təcrübə olmaqla yanaşı, həm də taleyin misilsiz qismətidir. Heydər Əliyev bir əsrdə ucaldığı zirvədən indi sizə necə görünür?**

– Heydər Əliyevin dahi şəxsiyyət olduğu şübhəsizdir. Bundan əlavə, Heydər Əliyevin həyatı həm də Azərbaycan tarixinin, dövlətçilik tariximizin çox dəyərli və son dərəcə maraqlı bir hissəsidir. Azərbaycan dövlətçilik tarixinin iki mürəkkəb dövründə respublikaya rəhbərlik edən, ölkənin sosial-iqtisadi yüksəlişinə nail olan, Azərbaycanın gerçək müstəqilliyini təmin edən şəxsiyyətin ömür yolu necə tarix olmaya bilər. Onun həyatında elə bir gün yoxdur ki, Vətənlə, Azərbaycanla, dövlətçiliklə və milli kimliyimizlə bağlı olmasın.

Bu mənada Heydər Əliyevlə eyni zamanı paylaşmaq, eyni tarixi yaşamaq özü bir şərəfdir. Amma onun rəhbərliyi altında işləmək, dövlətçiliyimizin inkişafı naminə verdiyi tapşırıqları, müəyyənləşdirdiyi siyasi xətti həyata keçirməkdə iştirak etmək ikiqat şərəfdir.

Ötən əsrin 40-cı illərində Heydər Əliyev Naxçıvan Nazirlər Sovetinin Daxili İşlər Nazirliyinin arxivində işləyirdi. Müəyyən müddətdən sonra baxırlar ki, bu gənc oğlan çox biliklidir, rus dilini yaxşı bilir, boy-buxunlu və cüssəli bir insandır, çevikdir, dərrakəlidir. Ona məsləhət görülüb ki, DTK-ya işə keçsin və ona bununla bağlı göndəriş verilir. Amma bu təklif Heydər Əliyevin ürəyincə olmayıb. Niyə?

O zaman “kartoçka” sistemi olub. Yəni hər adama ailə üzvlərinin sayına görə ərzaq verilirdi. Onun əvvəlki işi təklif olunan işdən bu məsələdə daha sərfəli iş imiş. İkincisi, Heydər Əliyev o zamankı DTK-nın amansız və müdhiş əməllərini çox gözəl bilirdi və istəmirdi ki, əli bu işlərə bulaşsın. Ancaq partiyanın tapşırığından da çıxa bilməyib, çünki bu onun karyerasının sonu ola bilərdi.

Müharibə başlayanda sovet qoşunları İrana, Cənubi Azərbaycana daxil oldular. Orada Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Cənubi Azərbaycan Respublikası yaradıldı. Həmin ərazi də Naxçıvanla qonşudur. Orada baş verənlər Heydər Əliyevin gözləri qarşısında baş verib. Heydər Əliyev Mircəfər Bağırovla Seyid Cəfər Pişəvərinin görüşünü də burada təşkil edib. Məhz o zaman Mircəfər Bağırovla şəxsən tanış olub.

Stalinin əmri ilə sovet qoşunları ordan çıxarılanda minlərlə cənubi azərbaycanlı həlak olub və qaçqın düşüb. Onların sonradan istintaqı keçirilib. Bu proseslər vaxtı Heydər Əliyev xeyli insanı “qırmızı terror”dan xilas edib.

Əvvəla, Heydər Əliyev DTK-ya gələndən sonra bu sistemi əvvəlcə Naxçıvanda, sonra isə bütün Azərbaycanda milliləşdirib. İkincisi həmin qəddar və amansız sistemin içində Azərbaycanın ziyalılarını və görkəmli adamlarını xilas bilib. Ziya Bünyadov, Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə kimi insanları qoruya bilib.

Müharibə qurtarandan sonra Vətənə qayıdan iki mindən çox əsir düşmüş azərbaycanlını o zaman Vətən xaini hesab edir və buna görə ya güllələyir, ya da Sibirə sürgün edirdilər. Heydər Əliyev Azərbaycan DTK-ında o komissiyanın üzvlərindən biri kimi minlərlə adamı məhv olmaqdan xilas edir. Ümumən sistemdəki xidmətlərini qiymətləndirib Heydər Əliyevi Bakıya gətirirlər. Burda isə daha geniş fəaliyyətə başlayır və bir neçə xüsusi əməliyyata rəhbərlik edir...

Xatırlayırsınızsa, 1968-ci ildə Çexoslovakiyada bəzi hadisələr oldu. Bundan narahat olan sovet rəhbərliyi dərk etməyə başladı ki, həmin olaylar SSRİ respublikalarında da baş verə bilər. Ona görə qərara gəldilər ki, xüsusi xidmət orqanlarında çalışan güclü adamları rəhbər vəzifəyə təyin etmək lazımdır. Azərbaycanda bu güclü adam məhz Heydər Əliyev idi və SSRİ-də gedən proseslərin nəticəsi olaraq Heydər Əliyev 1969-cu ildə Azərbaycan rəhbərliyinə gətirildi.

Həmin illərdə, əlbəttə Azərbaycan ictimaiyyəti, o dövrün bizim nəsildən olan gəncləri ölkənin rəhbər şəxsləri qismində əsasən qeyri-azərbaycanlı familiyalarını eşitməyə, televiziyada, radioda rəhbərlərin nitqlərini başqa dillərdə dinləməyə öyrəşmişdi. Heydər Əliyev içimizdə qəzəb doğuran belə təsəvvürləri dəyişdi. İlk dəfə idi ki, Azərbaycan rəhbərliyində rəsmi çıxışlarını ana dilimizdə edən, milli ruha bağlılığını hər vəchlə büruzə verən lider görürdük. Bunlar xalqımızın daxilində bir iftixar hissi oyatmağa başlamışdı və artıq gənc nəslə, milli təəssübkeşliyini dünənə qədər içində boğmaq məcburiyyətində qalan ziyalılarımıza Heydər Əliyev adı və soyadı, hər şeydən əvvəl, hakimiyyət olimpindəki milli qüdrət simvolu kimi görünürdü. Bir sözlə, bu hiss elə ilk günlərdən xalqımızda milli ruhun oyanışına təkan verirdi.

**–Çox maraqlıdır ki, hələ Heydər Əliyevin sağlığında, Azərbaycanın lider şəxsiyyəti olaraq onun həyat və fəaliyyəti daim diqqət çəkib, araşdırılıb, öyrənilib, hətta haqqında əfsanələr yaranıb. Yəqin o dövrün ziyalısı kimi Heydər Əliyev şəxsiyyəti sizin diqqətinizdən də kənarda qalmayıb.**

– Buna şübhə ola bilməz. İçində Azərbaycan milli ruhunu gəzdirən elə bir azərbaycanlı ziyalı tapmaq olmaz ki, Heydər Əliyevin fəaliyyəti onu qürurlandırmasın. Heydər Əliyev Azərbaycana ilk dəfə rəhbər gələndə Kremlin ona olan etibarından öz xalqının, Vətəninin inkişafı üçün çox ustalıqla istifadə etməyə başlayır və Moskvanın gözlərini qamaşdıra-qamaşdıra sosial-iqtisadi cəhətdən geridə qalan, aqrar ölkəyə çevrilmiş Azərbaycanı 15 respublika arasında axırıncı yerdən ön sıraya çıxarır. Bizim nəsil bunun şahididir. Bununla bərabər gənc, milli qeyrət yanğısı ilə çalışan lider öz arzularını da bacarıqla həyata keçirməyə başlayıb.

Bir maraqlı fakta rast gəldim və onu da sizə söyləmək istəyirəm. Sovet Azərbaycanı dönəmində Heydər Əliyev qərar verir ki, Bakının girəcəyində, Şıx çimərliyi boyu yolun sağ hissəsindəki böyük ərazidə yaşıllıq salınsın. Bir çox təşkilatlara ərazilər təhkim olunur ki, burada ağac əksinlər. Şair Qabil danışırdı ki, “bir də baxdıq, Heydər Əliyev əlində bel bizə tərəf gəlir. Gəlib hamı ilə salamlaşandan sonra dedi: “Qələmlə işləmək yaxşıdır, yoxsa bellə?” Bunu deyəndə qayıdıb ona dedim: “Heydər Əliyeviç, Siz nə gözəl Azərbaycan dilində danışırsınız...” Heydər Əliyev sözümü ağzımda qoyub, yarıtəəccüb, yarıtəbəssümlə dedi: “Qabil, bura bax, mənim azərbaycanlı olmağıma sənin şübhən var? Məgər mənim öz dilimdə danışmağım qəbahət sayılmalıdır?”

Bu təkcə hər hansı bir dairədə nümayiş etdirilən jest deyildi. Heydər Əliyev hakimiyyətə gəldikdən dərhal sonra Bakı Dövlət Universitetinin 50 illik yubileyini keçirdi və o təntənəli tədbirdə ilk dəfə Azərbaycan dilində çıxış etdi...

**– Misir müəllim, dediniz Heydər Əliyev ilk dəfə BDU-nun yubileyində Azərbaycan dilində çıxış edib. Amma tarixi faktlara görə, ulu öndər 1969-cu ilin avqustunda ilk dəfə “Kommunist”, indiki “Xalq qəzeti”nin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib...**

– Ola bilər. Heydər Əliyevin rəhbərliyi ilə ilk tədbir 1969-cu il avqustun 5-də keçirdiyi plenum olub. Orada hansı dildə çıxış etdiyini deyə bilmərəm. Amma Bakı Dövlət Universitetində Azərbaycan dilində çıxış etməyinin özgə bir əhəmiyyəti var idi. Həmin tədbirdə SSRİ ali və orta ixtisas təhsili naziri, müttəfiq respublikaların müvafiq nazirləri, Sov.İKP MK-nın nümayəndələri iştirak edirdilər və onların içində Azərbaycan dilində çıxış etmək o dövrdə cəsarət tələb edirdi...

Bu yaxınlarda Türkiyədən olan bir professor ilə Heydər Əliyev barədə danışanda mənə dedi, “o zaman bütün Qərb yazırdı ki, DTK generalını Azərbaycana rəhbər təyin ediblər. Amma iki-üç aydan sonra onun çıxışlarını, korrupsiya ilə mübarizə tədbirləri ilə bağlı elan etdiyi qərarları eşidəndə yazırdılar ki, bu adam SSRİ-ni dəyişməyə gəlib”. Bəli, Heydər Əliyev hakimiyyətə gələr-gəlməz, həm SSRİ, həm də Azərbaycan Respublikası tarixində öz izini qoymağa başladı.

Hələ ölkədə hakimiyyət dəyişikliyi olmamışdan və Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəli Axundov olanda DTK-nın sədri Heydər Əliyev, Nazirlər Sovetinin sədri Ənvər Əlixanov, Ali Sovetin Rəyasət Heyətinin sədri Məmməd İskəndərov, Mərkəzi Komitənin katibi Əli Əmirov idi. Bu saydığım dörd adamın hər biri özünü Vəli Axundovdan sonra Azərbaycan KP MK-nın birinci katibi kürsüsündə görürdü. Çünki onların Moskvada çox yüksək vəzifəli adamlarla sıx əlaqələri var idi. Bəzisi Heydər Əliyevdən yaşca 5-10 il böyük idi. Ona görə Heydər Əliyevin Azərbaycana rəhbər təyin olunması onlar üçün gözlənilməz oldu. İnanmırdılar ki, Heydər Əliyev bu vəzifədə çox işləyə bilər. Hətta bəzi hallarda ona qarşı saymamazlıq edirdilər. Ənvər Əlixanov və Məmməd İskəndərov Mərkəzi Komitənin iclaslarına gecikirdilər. Yaşlı olduqlarına və adət-ənənələrimizə hörmət mənasında Heydər Əliyev onların bu hərəkətinə bir-iki dəfə səbr edir. Bir dəfə iclasa gecikən Ənvər Əlixanovu saxlayır. Əlixanov da adi adam deyildi. Neftçi –professor, Lenin mükafatı laureatı idi. Heydər Əliyev deyir: “Yoldaş Əlixanov, niyə gecikirsən? Bu, artıq neçənci dəfədir iclasa gecikirsən. Mənə hörmət etməyə bilərsən, ancaq partiyaya və onun Mərkəzi Komitəsinə hörmət etmək sənin borcundur”. İki ay sonra Əlixanovu Nazirlər Sovetinin sədri vəzifəsindən çıxarır...

Heydər Əliyevin həyat və fəaliyyətinə kənardan baxanlar elə bilirdilər ki, o istədiyi şeyə çox asanlıqla nail olurdu. Yox, əsla belə deyildi. O, Azərbaycan üçün daha çox işlər görmək istəyirdi. Məsələn, Bakı Dövlət Universitetinin 50 illik yubileyində Heydər Əliyev Moskva qarşısında məsələ qaldırır ki, bu təhsil ocağına Lenin ordeni vermək lazımdır. Universitetin professoru Maqsud Cavadova Sosialist Əməyi Qəhrəmanı adı verilməlidir. Bu sənədləri tapıb üzə çıxarmışam. Ancaq Moskva bunu etmir və BDU-ya “Qırmızı Əmək Bayrağı” ordenini iki ildən sonra verirlər.

İlk vaxtlar Azərbaycandan Heydər Əliyev haqqında Moskvaya çoxlu donoslar yazırdılar. Köhnə rəhbərliyin bəzi nümayəndələri mərkəzdəki dostlarına onun haqqında müxtəlif məlumatlar ötürürdülər. Hətta ilk vaxtlarda Heydər Əliyevin müxtəlif iclaslarından və keçirdiyi tədbirlərdən dərhal sonra Baş katib Brejnev şəxsən ona zəng vururdu ki, “siz orda nə işlə məşğulsunuz? İnsanları ayağa qaldırırsınız”. Heydər Əliyev də səbrlə cavab verirdi: “Siz narahat olmayın Leonid İliç, hər şey yolundadır”. Heydər Əliyev bütün bu hallara dözür, maneələri ustalıqla dəf edir və işi ilə etimadını daha da artırırdı...

**– Misir müəllim, Heydər Əliyevə qarşı ən böyük ədalətsizliklər onun Moskvaya – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə gedəndən bir müddət sonra, Qorbaçovun hakimiyyətə gəlməsindən sonra başlayıb. Hərçənd, onun Moskvadakı fəaliyyət dövrü haqqında elə də geniş danışılmır, amma o dövrün hadisələri də son dərəcə maraqlı və Heydər Əliyev obrazının polad xarakterini açan faktlarla zəngindir.**

– Sizinlə tam razıyam. Mən çox da dərin məqamlara toxunmayacağam. Konkret Qorbaçovun ədalətsizliyindən bir-iki faktı açıqlayacağam. 1985-ci ildə Heydər Əliyevin həyatında ən əziz adam- həyat yoldaşı Zərifə xanım haqq dünyasına qovuşur. Aprelin 14-də Zərifə xanım rəhmətə gedir, aprelin 22-də də Leninin anadan olan gün idi. Hər il olduğu kimi, həmin il də Siyasi Büronun bir üzvü Lenin haqqında məruzə etməli idi. Qorbaçov tapşırıq verir ki, Heydər Əliyevə deyin, Lenin haqqında məruzə hazırlasın və toplantıda çıxış etsin. Baxın, hakimiyyətə gələnə qədər Heydər Əliyevə yarınan, onunla yaxın olduğunu göstərməyə çalışan Qorbaçov, Baş katib postuna seçiləndən dərhal sonra özünə rəqib gördüyü, həsəd apardığı Heydər Əliyevi mənən sındırmağa, ona təzyiq göstərməyə çalışır. Amma Heydər Əliyev bunun qarşısında qürurunu mətinliklə qoruyur və gəlib Siyasi Büroda məruzə edir.

Başqa bir misal. 1986-cı il avqustun 31-də Novorossiyskdə “Admiral Naximov” sərnişin gəmisi Çemess buxtasında quru yük gəmisi “Pyotor Vasyov” gəmisi ilə toqquşaraq batır. 423 adam həlak olur və bir neçə min ton taxıl suya tökülüb sıradan çıxır. Həmin vaxt Qorbaçov Yaltada istirahət edirdi. Ona xəbər verirlər ki, belə bir faciə baş verib. Deyir: “O məsələnin öhdəsindən yalnız Heydər Əliyev gələ bilər”. Heydər Əliyev heç bir şərait olmayan yerdə iki həftə orada qalır. Faciə qurbanlarının yaxınlarını dinləyir, zərər çəkən, yaralanan insanların təxliyə olunmasına və yardım edilməsinə göstərişlər verir, onların qayğısına qalır, dərdlərinə şərik olur.

Ötən il “Arqumenti i faktı” (“Arqumentlər və faktlar”) qəzetinin fotomüxbiri Vladimir Svarçeviçin bu faciə haqqında xatirələri ilə tanış oldum. Müxbir danışır ki, SSRİ rəhbərliyinin qəzadan sonra yaratdığı xüsusi hökumət komissiyasına o zaman Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyev rəhbərlik edirdi. Mətbuat işçilərini faciə haqqında məlumat yaymağa imkan vermirdilər. Mən faciə ilə bağlı olan səhnələri, dənizdən çıxarılan cəsədləri çəkirdim və sonra lentləri komissiyaya təhvil verirdim. Bu çəkilişlərin birində tanımadığım üçün mənə bağıran Krasnodar Vilayət Partiya Komitənin birinci katibi, Sov.İKP MK-nın üzvü İvan Polozkovla çox sərt danışmışdım..

Zalda məni görən Polozkov barmağını mənə tərəf göstərərək Əliyevə şikayət etməyə başladı. Heydər Əliyev isə sözün əsl mənasında Polozkova əsəblərini daha da pozan sözlər söylədi: “İvan Kuzmiç, mən hesab edirəm ki, jurnalistlər sovet xalqına cinayətkar səhlənkarlığın nə qədər kədərli nəticələrə səbəb olduğunu söyləməyə borcludurlar! Jurnalistlərə necə kömək edə bilərəm?” Əliyev bunu deyəndə mən zalda qışqırdım: “Yoldaş Siyasi Büro üzvü, bizə vertolyot, qəza yerinə qayıq və maşın lazımdır. Dalğıcların necə işlədiyini göstərmək lazımdır. Ən əsası isə senzura məsələsini həll etməliyik! Belə olmasa, onlar hər şeyi məhv edəcəklər!” Heydər Əliyev başını tərpətdi və yüksək səslə köməkçilərinə dedi: “Jurnalistlərə kömək edin! Mənim adımdan! Senzura məsələsini həll edin”.

Müxbir yazır ki, “Siyasi Büro üzvü Heydər Əliyev sözünün üstündə durdu. Məni Moskvaya deportasiya etməyə hazırlaşan həmin məmurlar artıq kömək edirdilər, Əliyevin dediklərini edirdilər...”

Bu, baş vermiş faciənin xalqa çatdırmağın vacib olduğunu deyən və zəruri imkan yaradan Heydər Əliyevlə bağlı ilk hadisə deyildi. Bundan əvvəl Çernobıl faciəsi zamanı da Heydər Əliyevin cəsarətlə fikrini söylədiyi məlumdur. Atom elektrik stansiyasında qəza baş verir, insanlar tələf olur, bəşəri təhlükə var, amma Siyasi Büro bunu gizlədir. Heydər Əliyev cəsarətlə ayağa durub deyir ki, siz bunu kimdən gizlədirsiniz? Xarici ölkələr hadisədən dərhal sonra bundan xəbər tutublar. Yaxşı olardı biz gedib vəziyyətlə tanış olaq, lazım olan tədbirlərin görülməsi üçün səfərbər olaq.

Amma Heydər Əliyevin Moskva dövründə göstərdiyi fədakarlıq bunlarla bitmir. Heydər Əliyev çıxışlarının birində deyir: “O zaman biz Sov.İKP Mərkəzi Komitəsinin Siyasi Bürosunda mən, Kunayev və Rəşidov məhsəti türklərinin Orta Asiyadan doğma torpaqlarına qaytarılması məsələsini qaldırdıq. Büroda dedilər ki, Eduard Şevardnadze ilə danışın. Şevardnadze bu məsələnin həllinə mane oldu”. Bu da ondan irəli gəlirdi ki, Qorbaçov da o zaman Şevardnadzeni dəstəkləyirdi.

1986-cı il Alma-Ata hadisələrini xatırlayın. Heydər Əliyevin Qorbaçovun bəlkə də ilk savaşı elə bu məsələdən başlayır. Siyasi Büroda Baş katib M.Qorbaçov və onun tərəfdarları Kunayevi çıxarıb onun yerinə Kolbinin təyin edilməsini dəstəkləyirlər. Heydər Əliyev isə bunun əleyhinə çıxış edir. Ulu öndər sonralar özü bu epizodu belə xatırlayırdı:

“Bilirsiniz, Mixail Sergeyeviç, uyğun şərait olmadığına görə iclasda sizə bir söz demədim. Amma indi bildirmək istəyirəm ki, insanların psixologiyasını az-çox bilirəm. Məncə, bu səhv təyinat idi. Düzdür, Kolbin çox yaxşı insandır... Amma Qazaxıstan üçün o, yararlı deyil. Nəzərə alın ki, səhv addım atırsınız”. Qorbaçov təəssüflə və qəzəblə mənə baxıb dedi: “Yaxşı, baxarıq”.



Heydər Əliyevin təklifinə əhəmiyyət verməməyin nəticəsi nə oldu, sizə məlumdur. Qazaxıstana ordu yeridildi, minlərlə insan yaralandı, ölənlər oldu. Kolbin isə orada cəmi bir neçə ay işləyə bildi.

**– Etiraf edək ki, qazax xalqı da Heydər Əliyevin bu cəsarətli addımını heç zaman unutmur...**

– Təbii unutmur. Bunun canlı şahidi olmuşam. Bir dəfə Heydər Əliyevin Qazaxıstana səfərində məni də nümayəndə heyətinin tərkibinə daxil etmişdilər. O zaman BDU-nun rektoru idim. Heydər Əliyev Qazaxıstan parlamentində çıxış edirdi. Ondan sonra bir yaşlı xanım deputat söz istədi və tribunaya çıxaraq dedi: “Mən Kunayevin ömrünün son günlərində onun yanında olmuşam. Kunayev bir gün mənə dedi ki, mən ölürəm. Sən qazax xalqına bildirməlisən ki, Heydər Əliyev Moskvada vaxti ilə qazax xalqına görə Qorbaçovla döş-döşə gəldi”.

Həmin səfərdə Alma-Ata Universitetinə də getdik. O ərəfədə də biz də istəyirdik ki, universitetə muxtariyyət hüququ alaq. Təhsil naziri, rəhmətlik Lidiya Rəsulova, çox gözəl insan idi, ancaq bu təklifi yaxın buraxmırdı. Heydər Əliyev Alma-Ata Universitetində məni yanına çağırdı və dedi: “Sən burda qal, rektorla görüş. Onlar müstəqillik alıblar. Bax, gör bunu hansı yolla ediblər, onu öyrən, sənədləri götür, sonra mənə məlumat verərsən”.

Universitetdən sonra diasporla görüşə getdik. Heydər Əliyev hansı ölkəyə gedirdiksə, diasporla görüşür və hər çıxışının da baş mövzusu Qarabağ, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi məsələsi olurdu. Qayıdanda təyyarədə bizi öz yanına dəvət etdi və dedi: “Mən burada görüşlərdə danışanda görürdüm siz mənə birtəhər baxırsınız. Elə bilməyin ki, mən yaddaşımı itirmişəm. Xeyr! Mən bu məsələləri təkrar-təkrar danışıram ki, problemi buradakı insanlara başa salım. Siz bunları bilirsiniz deyə, bununla hər şey bitmir. Hamı bunu bilməlidir, xüsusilə də Vətəndən kənarda yaşayan azərbaycanlılar”.

Bir gün də Heydər Əliyevlə Moskvaya rəsmi səfərə getmişdik. O zaman artıq nazir idim. Orada ilk dəfə mən sənəd imzaladım. İmzalanmadan sonra rəhbərlər çıxdılar, nümayəndə heyəti qaldı. Bir general bizə yaxınlaşıb dedi: “Mən Kremlin komendantıyam. Etiraz etmirsinizsə, sizi Kremllə tanış edim”. Gəzib, gəlib bir otağın qarşısında dayandıq. Qapını açdı, baxdıq ki, içəridə Azərbaycanın bayrağı. General dedi: “Heydər Əliyev bu otaqda işləyib. Onun xatirəsinə hörmət əlaməti olaraq, bu otağı muzey kimi saxlayırıq”. Bizim üçün bundan böyük fəxr olunası bir hadisə ola bilərdimi?

*(ardı növbəti sayımızda)*

*Söhbəti qələmə aldı:*
*İlqar RÜSTƏMOV,*
*“Xalq qəzeti”*

# Hələ ovlamadıqları tülkünün dərisindən kürk tikmək istəyənlər

## Bir-biri ilə didişən separatçıların qarşıdurmasına ötəri baxış

**Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan etnik ermənilərin "qlavar"ları arasında didişmə nəinki səngimir, əksinə, daha da şiddətlənir. Separatçılar ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən sonra onsuz da böyük təşviş, qorxu və səksəkə içində idilər. Onların arasında mübahisə, qarşıdurma və qarşılıqlı ittihamlar baş alıb gedirdi. Azərbaycanın Vətən müharibəsindən sonra yürütdüyü ardıcıl siyasət, atdığı uğurlu diplomatik, hərbi-siyasi addımlar da onlara əlavə dərd olmuşdu. Belədə məğlubiyyətlərinin təqsirkarı qismində həm biri-birini suçlayır, həm də günahı Ermənistan iqtidarının üzərinə atırdılar.**



Müharibədən sonra Hayastanda Nikol Paşinyana etirazlar o qədər güclü idi ki, baş nazir növbədənkənar parlament seçkisinə getməyə məcbur oldu. 2021-ci ilin iyununda keçirilən həmin seçki bir növ Paşinyana etimad referendumu idi. İndi isə deyəsən, bu ssenari Qarabağdakı haylar arasında təkrarlanacaq. Hər halda son proseslər belə deməyə əsas verir.

Xankəndidə gərginlik mayın 15-dən sonra yeni müstəviyə qədəm qoyub. Həmin gün şəhərdə separatçı rejimin "təhlükəsizlik şurası"nın katibi Samvel Babayana "dövlət naziri" vəzifəsinin verilməsi tələbi ilə mitinq keçirilib. Mitinqdən üç gün sonra keçmiş "dövlət naziri" Ruben Vardanyan isə keçirdiyi mətbuat konfransında "Artsaxın təhlükəsizlik və inkişaf cəbhəsi" adlı qondarma qurum yaratdığını açıqlayıb. O deyib ki, müxtəlif düşərgələrdən olan insanlar bu bu "ideya" ətrafında birləşib: "Bu, insanların bir şəxs deyil, bir ideya ətrafında birləşməsinə dair nümunədir. İnsanlar vəziyyətin kəskinliyini anlayaraq birləşiblər. Biz gələcəyimizə cavabdehik. İdeyasız hərəkətlər təhlükəlidir. Şəxsi və partiya maraqlarını bir kənara qoyub bir-birimizi dinləməyə çalışa bildik. Biz bu cəbhəni ona görə formalaşdırırıq ki, Artsax təhlükəsiz və azad olsun".

***

Qondarma rejimin daxilində – "hökumət"də də, "parlament"də də həyəcanlanma var. Təsadüfi deyil ki, S.Babayanın mitinqində özünü separatçı rejimin "parlament sədri" adlandıran Artur Tovmasyan da çıxış edib. O deyib ki, məqsədi mitinqçilərin tələbini rəhbərliyə çatdırmaqdır. Bu məsələ ilə bağlı siyasi müzakirələrə başlamaq lazımdır ki, insanlar mitinqlər yolu ilə istədikləri şəxsin vəzifəyə təyin olunmasını tələb etməsinlər. Tovmasyan hesab edir ki, yoxsa, onlar Qarabağı itirəcəklər və buna görə aksiya rəhbərləri məsuliyyət daşıyacaq: "Biri müsahibə verir, biri canlı yayıma çıxır, bəsdirin. Gəlin, baxaq görək, nə etməliyik. Gəlin birləşək, bu cəmiyyəti parçalamayaq".

Babayan isə Tovmasyana deyib ki, onlar bu vəzifədə 100 gün vaxt istəyirlər, əgər bacarmasalar, çıxıb gedəcəklər. Babayanın sözlərinə görə, onlara başqa siyasi qüvvələrə qoşulmaq təklif olunub, amma nəyə görə hansısa məsələni həll etmək üçün kiminləsə birləşmək lazımdır?!

Qondarma rejimin "qlavar"ı Arayik Arutyunyan sosial şəbəkə hesabında təkcə onu yazıb ki, mitinqin təşkilatçılarına məsələ ilə bağlı dialoq təklif edilib. O, hamını təmkinli olmağa çağırıb.

***

Separatçı rejimin müxalifətçi deputatı Metakse Akopyan isə hesab edir ki, Samvel Babayan da daxil Qarabağdakı erməni icmasında Ermənistan hakimiyyəti tərəfindən idarə olunan 3-4 siyasətçi var: "Onların hərəkətləri, tələbləri və bütün addımları Ermənistan hakimiyyəti ilə razılaşdırılır və sanki hər bir söz və hərəkət birbaşa Qarabağdakı erməni icmasına qarşı yönəlib". Akopyan deyib ki, "Daşnaksütyun" partiyası da daxil olmaqla, bir sıra siyasi qüvvələr və ictimai xadimlər yaxın günlərdə vahid cəbhədən çıxış edəcəklər və onların mübarizə planı mövcuddur. Onun sözlərinə görə, bu cəbhədə separatçı rejimin keçmiş "dövlət naziri" Ruben Vardanyan da var. Amma hansı addımların atılacağı hələ ki, açıqlanmır. Qarabağdakı separatçı qüvvələr bunu xilas cəbhəsi hesab edir və Samvel Babayanın da ora dəvət olunduğu ehtimal edilir.

Xankəndidə siyasi ehtirasların qızışması yolunda növbəti addım separatçı rejimin oyuncaq parlamentinin sədri Artur Tovmasyanın bugünlərdə Arayik Arutyunyanın istefasını tələb etməsi olub: "Ya istefa verin, ya da etimad referendumu keçirilsin. Əgər əhali sizə etimad göstərməsə, gedəcəksiniz. Lakin bu o demək deyil ki, siz istefa verəcəyiniz təqdirdə səlahiyyətlərinizi Artur Tovmasyan icra edəcək. Əgər xalq sizə inanmasa, mən də gedəcəm". O, A.Arutyunyana "dövlət müdafiə komitəsi"nin yaradılmasını təklif edib: "90-cı illərdə bizi xilas edən bir model var. Mən "dövlət müdafiə komitəsi"nə iki nəfərin – Ruben Vardanyan və Samvel Babayanın daxil edilməsini təklif etdim".

Göründüyü kimi, haylar arasında qarşıdurma yüksələn xətt üzrə gedir. Proseslərin məcradan çıxmaması üçün baş separatçı Arutyunyan bir neçə gün əvvəl siyasi məsləhətləşmələrin başlandığını və müxalifət qüvvələrinin nümayəndələrinin, o cümlədən Babayan və Vardanyanın daxil olacağı yeni qurumun formalaşacağını elan edib. Lakin məsləhətləşmələr uğursuzluqla nəticələnib. Belə ki, siyasi qüvvələr bir masa arxasında əyləşə bilməyib, qondarma "iqtidar, parlament və parlamentdənkənar müxalifət" arasında razılıq əldə olunmayıb.

"Harparak" qəzeti yazır ki, vəziyyətin belə olduğunu görən Arutyunyan etimad referendumunun keçirilməsi təklifi üzərində dayanıb. Yaxın bir-iki ayda referendum təşkil olunacaq və Arayikə etimad göstərilib-göstərilmədiyi sualına cavab veriləcək. Separatçılar daxili siyasi böhranı bu və ya digər şəkildə həll etməyə çalışsalar da, onların səylərinin əbəs olduğu hamıya, elə özlərinə də aydındır. Əlelxüsus, Paşinyanın mayın 22-də Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa hazır olduğunu bəyan etməsindən sonra...

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Aydın QULİYEV,**
**politoloq**

– Əslində, separatçıların son yuvası olan Xankəndidə "hakimiyyəti" əllərində saxlayan qüvvələrin konkret nəyəsə ümidləri qalmayıb. Sadəcə olaraq, özlərinin separatçı "hakimiyyətləri"nin ömrünü az da olsa, uzatmaq haqqında düşünürlər. Müşahidələr göstərir ki, Azərbaycanın Ermənistan hakimiyyətinə diplomatik-siyasi təzyiqləri gücləndikcə Xankəndi rejiminin daxilində çəkişmələr qızışır.

Hazırkı şəraitdə bu rejimin içərisində şərti olaraq üç qüvvə özünü göstərir. Bunlar Vardanyanın da fəal şəkildə iştirak etdiyi və Rusiyaya bağlı olan qüvvələrdir. İkincisi, qondarma parlamentə rəhbərlik edən Tovmasyan və onun çevrəsindəki dəstədir. Üçüncüsü isə Arutyunyan və onun adamlarıdır. Tovmasyan və Arutyunyanın İrəvandan müəyyən təlimatlar aldıqları və onu icra etdikləri şübhəsizdir. Amma bütün hallarda Xankəndi rejiminin daxilindəki bu çəkişmələrdə, onların dərinləşməsində əsas rolu Vardanyanın daxil olduğu qrup oynayır. Bunların hər biri rejim üzərində daha çox təsir imkanını ələ keçirməyə çalışır. Onların bu qarşıdurması hələ ovlamadıqları tülkünün dərisindən özlərinə kürk tikməyə bənzəyir. Sözsüz ki, bu qarşıdurmaların heç bir faydası olmayacaq. Çünki Xankəndi rejiminin ömrü, separatizm oyunları sona çatmaq üzrədir və bu qarşıdurmanı da məğlubiyyətə məhkum olanların mübarizəsi adlandırmaq daha doğru olardı.

# İrəvan çalxalanır – Ter-Petrosyandan ölkə ilə bağlı qorxunc anons

## Həlak olmuş hərbçinin anasının həbsi Ermənistandakı siyasi ehtirasları daha da qızışdırmaqdadır

**İrəvanda İkinci Qarabağ müharibəsində həlak olmuş hərbçi Jora Martirosyanın anası Qayane Akopyanın həbsinə etiraz əlaməti olaraq aksiya keçirilib. Ümumən, bu məsələ ölkənin ictimai rəyini çalxalamaqdadır, – desək, yəqin ki, yanılmarıq. Əsgər anasının həbsi, eyni zamanda, onsuz da gərgin olan siyasi vəziyyətə yeni rəng qatıb. Baş nazir Nikol Paşinyan iqtidarına qarşı barışmaz mövqe tutan müxalif cinah hadisəni xalqı iqtidara qarşı qaldırmaq üçün növbəti bəhanə kimi istifadə etməkdədir. Bütün bunların isə nəticə etibarilə Paşinyan administrasiyasını Azərbaycanla sülh gündəliyindən yayındırmaq kimi bir mərama hesablandığı da gün kimi aydındır.**

Hələlik, qeyd edək ki, aksiya iştirakçıları müharibədə həlak olan əsgərlərin yaxınları ilə birlikdə İrəvan Ümumi Yurisdiksiya Məhkəməsinin Q.Akopyanın baş nazir Nikol Paşinyanın oğlu Aşot Paşinyanı oğurlamağa cəhd göstərdiyinə görə bir ay müddətinə həbs edilməsi ilə bağlı qərarla razılaşmadıqlarını bildirirlər. Hökm elan edildikdən sonra məhkəmə binası yaxınlığında toplaşan vətəndaşlar, o cümlədən, həlak olan hərbçilərin valideynləri İrəvanın mərkəzi küçələrində yürüşə başlayıblar. Onlar Akopyanın həbsdən azad edilməsi tələbi ilə paytaxtın əsas küçələrini bağlayıblar. Yürüş zamanı etirazçılar müxtəlif ölkələrin, xüsusən də Rusiya və Fransanın diplomatik nümayəndələrinin qarşısında dayanaraq, diqqəti Ermənistandakı qanunsuzluqlara yönəldiblər. Onlar, həmçinin dünyadakı erməni diasporunu da etirazlara qoşulmağa çağırıblar. Aksiya zamanı dəfələrlə vurğulanıb ki, Qayane Akopyan Ermənistanda ilk qadın siyasi məhbusdur. Etirazçılar hökumət binasının önündə müddətsiz oturaq aksiyaya başladıqlarını elan ediblər.




Q.Akopyanın həbsinə etiraz səsini ucaldan çoxsaylı siyasilər var ki, onlardan daha çox Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan diqqət çəkməkdədir. Ter-Petrosyan bildirib ki, oğlunu döyüş meydanında itirmiş ananın həbsi, hətta İrəvanın mərkəzində vətəndaşın üzünə tüpürən bədnam parlament sədrinin iyrənc əməlindən də böyük biabırçılıqdır və bu iki hal onu göstərir ki, hakimiyyətin kini sərhəd tanımır. "Belə görünür ki, Ermənistanda daxili siyasi gərginliyin səngiməsi hakimiyyətin məsuliyyəti və narahatlığı olmalıdır. Lakin gördüyümüz kimi, onlar öz kinli hərəkətləri ilə gərginliyi daha da artırırlar. Belə davam edərsə, ölkəmizi daha acınacaqlı, hətta partlayıcı bir perspektiv gözləyir. Bunu bildirərkən, eyni zamanda, qeyd etməyi zəruri hesab edirəm ki, dövlət məmurlarının ailə üzvlərinə qarşı nalayiq davranışın təzahürləri də yolverilməzdir", – deyə Ermənistanın birinci prezidenti vurğulayıb.

Onu da qeyd edək ki, L.Ter-Petrosyanın hakimiyyətin kinli davranması məntiqini təsdiqləyən hadisələrdən biri də bir neçə ay əvvəl yaşanmışdı. Ölkənin Sünik bölgəsinə səfər edən baş nazir Nikol Paşinyan hücuma məruz qalmışdı. Hadisənin əsli isə bu idi ki, bir qadın ona yaxınlaşmağa cəhd göstərmiş, hüquq-mühafizə orqanlarının təmsilçiləri bir neçə dəfə yaşlı xanımın qarşısını almış, axırda niyyətinə nail ola bilməyəcəyini görən bu şəxs əsəbindən əlindəki çətiri baş nazirə atmışdı. Bu onun saxlanılmasına səbəb olmuşdu. Qadın hakimiyyət nümayəndəsinə zorakılıq ittihamı ilə azadlıqdan məhrum edilmişdi.

Əslində, hüquqi baxımdan istər haqqında söz açdığımız davranış, istərsə də Q.Akopyanın hərəkəti pozuntu faktlarıdır. Demokratiya heç də qanunlara münasibətdə loyallıq demək deyil. Bu mənada hər iki həbs doğru qərardır. Ancaq nəzərə alsaq ki, Paşinyanın qurduğu və dünyaya car çəkdiyi demokratiya son vaxtlar bu sayaq hallarla daha çox rastlaşmaqdadır, deməli, idarəçilik düzgün deyil.

Demokratiklik Paşinyanın Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişellə görüşündəki kimi İrəvanın tır sürücülərinin geyimlərinə bənzər libasda özünü sadə göstərməkdən uzaq baxışdır. Yəni, Nikolun zahiri "maskirovka"larına rəğmən, bu adamın mahiyyətində totalitarizm var. Bu mahiyyət vətəndaşın etirazını və etirazından doğan çarəsiz addımını öz hakimiyyətinə qarşı qəsd kimi dəyərləndirmək düşüncəsinə köklənib. Yəni, istənilən bu sayaq hərəkət az qala dövlət çevrilişi cəhdi olaraq "dəyər" qazanır.

Baş nazir Nikol Paşinyan Avropadakı çıxışlarında Ermənistandakı demokratiyanı qorumaq naminə çağırışlar edir. Nəzərə alsaq ki, demokratiya həm də sosial və rifah dolu bir cəmiyyət deməkdir, qeyd etdiyimiz hər iki həbs vətəndaşa həssas münasibət anlayışına tam zidd davranışdır. Görünür, Nikol avropalı dostlarından belə həssasiyyəti deyil, despotizmi qorumağı xahiş edir. Daha doğrusu, yalvarır...

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Qarabağ, Qərbi Azərbaycana qayıdış və Qərb–Rusiya qarşıdurması

## Liderlərin Moskva görüşü öncəsi Ermənistanda siyasi isteriya təzahürləri

**Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında mayın 25-də Moskvada keçiriləcək görüş öncəsi Ermənistan cəmiyyətində Qərb və Rusiya vasitəçiliyinin ölkəyə, Qarabağ məsələsinə təsirinə dair fikirlər yayılmaqdadır. Təbii, hər bir baxışda başlıca xətti baş nazir Nikol Paşinyana qarşı çıxmaq təşkil edir. Mövcud xüsusda isə Qərbin və Rusiyanın Azərbaycanla Ermənistan arasındakı münaqişəli duruma yanaşması üzərinə gəlinir. Təbii ki, Cənubi Qafqaz müstəvisindəki qlobal maraqlar da ön plana çəkilir.**

Məsələn, ermənistanlı politoloq Beniamin Matevosyan bildirir ki, N.Paşinyan bütün hazırkı proseslərin hara getdiyini yaxşı bilir, lakin onlardan imtina etmir, çünki onun üçün yolun alternativi yoxdur. Politoloqun fikrincə, Rusiya və Qərbin təkliflərində əsas fərq zəmanət məsələlərindədir. "Rusiya öz imkanları daxilində Ermənistanın və Qarabağın təhlükəsizliyinə və gələcəyinə zəmanət verməyə hazırdır. Lakin Nikol Paşinyanın şəxsən özünə siyasi dəstək nəzərdə tutulmur. Qərb Paşinyana kömək göstərməyə, onu təbliğ etməyə və dəstəkləməyə hazırdır. Amma Ermənistana və Qarabağa hər hansı təminatdan uzaqdır. Nikol Paşinyan ikinci yolu seçir", – deyə Matevosyan bildirib. O, əmindir ki, Qərb nəinki heç bir zəmanət vermir, hətta təzyiq göstərir ki, İrəvan təklif olunan sənədi imzalasın.

Matevosyan Ermənistana imzalamaq üçün təklif olunan sənədin uzunmüddətli hədəflərinə toxunub və qeyd edib ki, vaxtilə ölkəni tərk etmək məcburiyyətində qalmış azərbaycanlıların geri qaytarılması məsələsi fəal şəkildə təbliğ olunur. Bəli, söhbət 1988-1991-ci illərdə özlərinin dədə-baba yurdlarından deportasiya olunmuş azərbaycanlılardan gedir. O azərbaycanlılardan ki, ölkəmiz onların geri qayıtması ilə əlaqədar məsələyə Qərbi Azərbaycana qayıdış kontekstində yanaşır və bununla bağlı dinc məqsədli konsepsiyanın da hazırlanması son dərəcə qəti şəkildə irəli sürülməkdədir.

Matevosyan bu mənada maraqlı məqama diqqət çəkməkdədir. Onun sözlərinə görə, artıq avropalı müşahidəçilər yerli əhali arasında köçürülməzdən əvvəl azərbaycanlılara Ermənistandakı münasibətlə bağlı sorğular aparırlar. Onlar (avropalı müşahidəçilər) xüsusilə Sünikdə fəaldırlar. Bu proseslərin hara apardığı bəllidir", – deyən erməni politoloq əlavə edib ki, Qərb, xüsusən də ABŞ Cənubi Qafqaz regionunda ümumi təhlükəsizlik sisteminin formalaşdırılmasında israrlıdır.

Qərbin əsas məqsədinin Rusiyanı Cənubi Qafqaz regionundan sıxışdırıb çıxarmaq və Ermənistanı İrana zərbələr endirmək üçün bazaya çevirmək olduğunu deyən Matevosyan onu da bildirib ki, indiki məqamda Ermənistan dövləti və erməni cəmiyyəti qarşısında qoyulan tələb tarixi stereotiplərdən əl çəkilməsidir. Başqa sözlə desək, tarixi düşmənçilikdən əl çəkilməsi. Bu tələb nə üçündür? Matevosyanın sözlərinə görə, belə olmalıdır ki, Rusiyaya və İrana qarşı düşmənçilik, Azərbaycana və Türkiyə münasibətdə isə müttəfiqlik yaransın.

***

Qarabağ bir çox güc mərkəzlərinin istifadə etməyə hazır olduqları məsələdir. Bunu diplomat, Ermənistanın Sankt-Peterburqdakı keçmiş baş konsulu Vardan Akopyan deyib. Onun sözlərinə görə, Qarabağ məsələsi regiona daxil olmaq üçün stimul kimi qiymətləndirilir. Bu nöqteyi-nəzərdən problemin bölgədə tamhüquqlu hakimiyyətin bərqərar olması ilə həlli heç kəs, o cümlədən, bu gün danışıqlar prosesini irəlilətməyə və sürətləndirməyə çalışan Qərb üçün sərfəli deyil.

Həqiqətən də otuz ilə yaxın müddətdə Qərb Qarabağ münaqişəsinin həllində maraqlı olmayıb, mövcud xüsusda manipulyasiyalara yol verib. Bu strategiyanın ermənipərəstlik notlarına kökləndiyi də aydındır. Deməli, həm ermənipərəstlik, həm də Azərbaycana təzyiq. Keçmiş baş konsulu, müəyyən mənada, haqlı saymaq mümkündür. Çünki Qərb 44 günlük müharibəyə qədər Qarabağ kartını hər zaman Azərbaycana təzyiq üçün istifadə edib. Rusiya da eyni cür davranıb.

Lakin Azərbaycanın 44 günlük müharibədəki Zəfəri vəziyyəti dəyişdi. Bakının diktə edən tərəfə çevrilməsi məntiqi də bundan qaynaqlanmaqdadır. İndi baş rolda Azərbaycandır. Ancaq V.Akopyanın fikirlərindən anlaşılan budur ki, ölkəmiz tək deyil. Nəzərə alaq ki, 44 günlük müharibə Cənubi Qafqaz siyasi akvatoriyasında Türkiyənin də nüfuzu reallığını doğurub. "Əgər Azərbaycan və Türkiyə hər şeyə tam nəzarət etsələr, bu, ərazidə Qərbə yerin olmayacağı anlamı verəcək. Eyni şey Rusiya və İrana da aiddir", – deyə Akopyan bildirib.

"Əgər belədirsə, o zaman nə üçün Qərb Qarabağın Azərbaycanın olmasına töhfə verməyə çalışır" sualını cavablandıran keçmiş baş konsul bildirib: "Onlar həmişə ərazi bütövlüyü, sərhədlər və sülh kimi anlayışlardan danışacaqlar. Bu siyasətdir. Amma Qarabağ məsələsi təzyiq faktoru kimi (Azərbaycana və Türkiyəyə - red.) hələ də qalır".

Əslində, Akopyanın fikirlərini həm də təzadlı saymaq mümkündür. Çünki, o, bir yandan deyir, Qarabağ problemi həll olunmamış qalacaq, digər tərəfdən isə problemin həlli ilə "Zəngəzur dəhlizi" məsələsinin də yoluna qoyulacağını vurğulayır. Onu da vurğulayır ki, gedişat Türkiyəni Yaxın Şərqdə həlledici faktora çevirəcəkdir.

Sonda onu da qeyd edək ki, diqqətə çatdırdığımız fikirlər erməni cəmiyyətində Azərbaycan və Ermənistan liderlərinin Moskva görüşü öncəsi ortaya çıxan isterik durumun kiçik, amma belə demək mümkünsə, nisbətən şüurlu təzahürləridir. Bu təzahürlər də onu göstərir ki, İrəvan bütün mənalarda dalana dirənmiş durumdadır və bu situasiyada onun yeganə çıxış yolu Bakının şərtlərini qəbul etməkdir.

***R.ƏVƏZ, "Xalq qəzeti"***

# Litva Azərbaycanın köhnə müttəfiqi, yeni tərəfdaşıdır

## Baltik dövləti ölkəmizdə 17 layihə gerçəkləşdirir

**Keçmiş SSRİ-nin tərkibində müttəfiq respublika olmuş Azərbaycan və Litva arasında iqtisadi və mədəni əlaqələr ölkələrimiz müstəqillik əldə etdikdən sonra tam sərbəst, yeni reallıqlar əsasında formalaşıb. Xatırladaq ki, iki ölkə arasında diplomatik əlaqələr 1995-cü ilin noyabr ayının 27-də qurulub. Ötən müddətdə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində bir sıra zəruri addımlar atılıb, müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri yaradılıb. Bütövlükdə iki ölkə arasında ötən müddətdə 41 sənəd imzalanıb.**



Litva Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının təşviqinə fəal töhfə verən ölkələrdən biridir. Belə ki, Azərbaycan Litva üçün Avropa İttifaqının “Şərq tərəfdaşlığı” proqramı çərçivəsində vacib ölkə olmaqla yanaşı, həm də Aİ üçün strateji enerji tərəfdaşıdır. Yeri gəlmişkən, Azərbaycan Avropa İttifaqının Tvinninq proqramı üzrə Litvanın ən yaxın tərəfdaşlarından biridir. Litvanın respublikamızdakı səfiri Eqidiyus Navikasın bildirdiyinə görə, ötən müddətdə ölkəsi Azərbaycanda keçirilən 26 layihə seçimində iştirak edib və onlardan 17-də qalib gəlib. Ümumi dəyəri 20 milyon avro olan bu layihələrdən 12-si artıq reallaşdırılıb, 5-i isə icra mərhələsindədir.

Fərqli məkanda yerləşən Azərbaycan və Litva arasında iqtisadi əlaqələrin genişləndirilməsi illik ticarət dövriyyəsinin də artmasına səbəb olub. Müqayisə üçün qeyd edək ki, 2005-ci ildə ölkələrimiz arasında 6 milyon 975,8 min dollar məbləğində idxal-ixrac əməliyyatları aparıldığı halda, 2022-ci ildə bu rəqəm 32 milyon 912 min dollar təşkil edib. Bununla belə, ticarət dövriyyəsinin indiki səviyyəsi bu sahədə mövcud potensialı tam əks etdirmir. Bu baxımdan Vilnüsdə hər iki ölkədən kifayət qədər sahibkarın iştirakı ilə keçiriləcək Azərbaycan–Litva biznes forumu ticarət sahəsində əlaqələrin genişləndirilməsi üçün yaxşı fürsət sayıla bilər.

Ötən müddətdə ölkələrimiz arasında investisiyaların təşviqi istiqamətində də mühüm işlər görülüb. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində Litva investisiyası əsasında 20 kommersiya qurumu fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycandan Litvaya 36 milyon ABŞ dolları məbləğində sərmayə qoyulub. Baltikyanı ölkə, həm də bərpaolunan enerji sahəsində yüksək texnologiyalara sahibdir. Elə Litvanın Azərbaycandakı səfiri E.Navikas da ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğulayaraq deyib ki, enerji sahəsində əməkdaşlığa dair əvvəllər aparılmış danışıqlar zamanı coğrafiya, eləcə də texniki imkanlar nəzərə alınıb. O bildirib ki, ölkəsi bərpaolunan enerji ilə bağlı texnolgiyaları Azərbaycana təklif edə bilər. Hazırda svop qaz tədarükü ideyasının müzakirə olunduğunu diqqətə çatdıran litvalı diplomatın fikrincə, burada texniki detallara girəcək biznes tərəfdaşları arasında dialoq qurmaq vacibdir. Səfirin sözlərinə görə, günəş və külək enerjisi texnologiyalarının ixracatçısına çevrilən Litva Azərbaycanın bərpaolunan enerji layihələrinə maraq göstərir və qarşı tərəfə bununla bağlı təkliflər veriləcək.

Dövlət başçılarının qarşılıqlı səfərləri və həmin səfərlərin nəticələri olaraq imzalanmış mühüm sənədlər, eləcə də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən mütəmadi görüşlər münasibətlərin inkişafına, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verir. Ötən ilin mayında Litva Prezidenti Gitanas Nausedanın ölkəmizə səfərinin də bu baxımdan xüsusi əhəmiyyət daşıdığını söyləmək olar. Xatırladaq ki, səfər çərçivəsində keçirilmiş biznes forumu zamanı Azərbaycan və Litva arasında nəqliyyat, ticarət, sənaye, kiçik və orta biznesin inkişafı, innovasiya və s. sahələr üzrə bir sıra mühüm sənədlər imzalanmışdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə imzalanmış sənədlərin isə hər biri ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Elə bu il yanvarın 18-də Davos forumu çərçivəsində Azərbaycan və Litva prezidentləri İlham Əliyev və Gitanas Nauseda arasında keçirilmiş görüş zamanı da ikitərəfli əlaqələrin mövcud vəziyyəti, Azərbaycan–Avropa İttifaqı əlaqələri, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı önəmli rol xüsusi vurğulanmış, bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi ilə bağlı ötən ilin dekabrında Buxarestdə imzalanmış sazişin əhəmiyyəti qeyd edilmişdi. Yeri gəlmişkən, həmin görüş zamanı Prezident Gitanas Nauseda dövlətimizin başçısı İlham Əliyevi Litvaya səfərə dəvət etmişdi.

Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev mayın 21-də Litvaya rəsmi səfərini gerçəkləşdirib. Qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edən budəfəki səfər çərçivəsində dövlətimizin başçısının Vilnüsdə litvalı həmkarı Gitanas Nauseda ilə məhdud və geniş tərkiblərdə görüşü keçirilib. Söhbət zamanı ölkə rəhbərlərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti üzərində dayanılaraq ikitərəfli məsələlər müzakirə olunub, iqtisadi-ticari əlaqələrin genişləndirilməsinin, ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyi vurğulanıb. Bu xüsusda informasiya texnologiyaları, kibertəhlükəsizlik, bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib. Bununla yanaşı, Litvada keçiriləcək biznes forumun əhəmiyyəti və biznes dairələri arasında birbaşa təmasların qurulmasının vacibliyi qeyd olunub. Söhbət zamanı, həmçinin nəqliyyat məsələləri, o cümlədən Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr barəsində müzakirələr aparılıb, səfər çərçivəsində imzalanmış sənədlərin əhəmiyyəti önə çəkilib.

Bütövlükdə isə, Prezident İlham Əliyevin Litvaya növbəti rəsmi səfərinin iki ölkə arasında əlaqələrin daha da genişlənməsinə, eləcə də ticarət dövriyyəsinin artmasına təkan verəcəyi şəksizdir. Elə səfərin yekunu olaraq prezidentlərin mətbuata bəyanatlarla çıxışlarında səsləndirdikləri fikirlər, eləcə də ikinci Litva-Azərbaycan biznes forumu da bunu təsdiqləyir.

***Mirbağır YAQUBZADƏ, “Xalq qəzeti”***

**2023-cü ilin yanvar-aprel aylarında Azərbaycanda könüllü sığorta növləri üzrə 341 milyon 853,9 min manat, icbari sığorta növləri üzrə isə 125 milyon 676,4 min manat sığorta haqqı toplanılıb.**

# Sığorta sahəsində göstəricilər yaxşılaşıb

Bu barədə Azərbaycan Mərkəzi Bankından məlumat veriblər. Məlumatda bildirilir ki, ötən ilin yanvar-aprel ayları ilə müqayisədə könüllü sığorta növləri üzrə toplanan sığorta haqları 27,7 faiz və ya 74 milyon 108,9 min manat, icbari sığorta növləri üzrə sığorta daxil olmaları isə 38 faiz və ya 34 milyon 650,3 min manat artıb.

Bununla yanaşı, hesabat dövründə ölkəmizdə könüllü sığorta növləri üzrə ödənişlərin məbləği 64,4 faiz artaraq 102 milyon 501,9 min manat, icbari sığorta növləri üzrə ödənişlərin həcmi isə 3,3 faiz artaraq 32 milyon 99,7 min manat təşkil edib.

Bütövlükdə isə, cari ilin ötən 4 ayında könüllü sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqından 30 manat sığorta ödənişi edilib. Xatırladaq ki,




əvvəlki ilin müvafiq dövründə bu rəqəm 23,3 manat olub. Bu ilin yanvar-aprel ayları ərzində icbari sığorta bazarında hər 100 manat sığorta haqqına düşən ödənişin məbləği isə 25,5 manat təşkil edib. Ötən ilin ki, ilk 4 ayında isə bu göstərici 34,1 manata bərabər olub.

***“Xalq qəzeti”***

# Cəbrayılda Günəş elektrik stansiyası tikiləcək

*240 meqavatlıq “Şəfəq” stansiyası Səngəçal terminalına xidmət edəcək*



Cəbrayılda 240 meqavat gücündə “Şəfəq” adlı günəş elektrik stansiyasının tikintisi layihəsinin texniki və kommersiya parametrləri, demək olar ki, razılaşdırılıb. Bunu Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov bildirib. Onun sözlərinə görə, adıçəkilən layihənin maliyyə tərəfləri ilə bağlı Energetika Nazirliyi və BP şirkəti arasında razılığa gəlinib. “Bu layihəni çox yaxşı şərtlər ilə həll eləmişik. Yalnız texniki məsələlər qalıb”,– deyə nazir müavini əlavə edib.

E. Soltanov, həmçinin qeyd edib ki, gələcəkdə günəş elektrik stansiyasında istehsal olunan enerji Səngəçal terminalını təmin edəcək. Artıq bu kontekstdə BP və konsorsium arasında hazırda müəyyən prosedurlar razılaşdırılır. Nazir müavininin fikrincə, layihənin operatoru olan BP və konsorsiumun üzvləri arasında müəyyən proseslər, prosedurlarla bağlı da prinsipcə razılıq var.

E. Soltanovun dediyinə görə, Cəbrayılda günəş elektrik stansiyasının tikintisi təqribən iki il ərzində başa çatdırıla bilər.

***“Xalq qəzeti”***



# “Yaşıl enerji”nin də Avropaya qısa yolu Zəngəzur dəhlizindən keçir

**Energetika nazirinin müavini Elnur Soltanov jurnalistlərə açıqlamasında Zəngəzur dəhlizinin karbohidratlarla yanaşı, “yaşıl enerji”nin də Avropaya daşınması və Avropanın Azərbaycanda baş verən proseslərdən yararlanması üçün zəmin yaratdığını bildirib.**

Onun sözlərinə görə, bu zəminin şərtlərindən biri Azərbaycan və Ermənistan arasında dayanıqlı sülhün təmin olunması və Zəngəzur dəhlizinin açılmasıdır.

***“Xalq qəzeti”***

# Ölkəmizdə kompüter istehsalı 4,4 dəfə artıb

**Bu ilin yanvar-aprel aylarında Azərbaycanda kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində 66,9 milyon manatlıq məhsul istehsal olunub.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 2,6 dəfə, elektrik avadanlıqlarının istehsalı isə 1,5 faiz artıb.

Cari ilin 4 ayında əvvəlki ilin müvafiq ayları ilə müqayisədə ölçmə cihazlarının istehsalı 2 dəfə, stolüstü kompüterlərin istehsalı isə 4,4 dəfə çoxalıb.

***“Xalq qəzeti”***

# Sənədsiz evlər də sığortalanacaq

**Son günlər ölkə mediasında yayılan xəbərlərə görə, yaxın vaxtlarda qanunsuz tikililərin, yəni çıxarışı, sənədi olmayan yaşayış evlərinin də sığortalanacağı bildirilir. Bunun üçün Ədliyyə Nazirliyi və Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən birgə ideya layihəsinin hazırlandığı vurğulanır. Layihədə qanunsuz tikililərin bir portaldan qeydiyyatdan keçməsi və qanuna uyğunlaşdırılması ilə bağlı proses nəzərdə tutulur.**

Məlumatda, həmçinin layihənin reallaşdırılmasından sonra 500 mindən çox müxtəlif təyinatlı yaşayış obyekti və fərdi evin sığortaya cəlb olunacağı qeyd edilir. Ekspertlərin sözlərinə görə, belə bir hal isə qanunsuz tikililərin sənədləşdiriləcəyini və onların sığortaya cəlb ediləcəyini şərtləndirir.

Birgə layihənin hazırlanması yekunlaşdırıldıqdan sonra vahid portal yaradılacaq və onun vasitəsilə bütün əmlakları qeydiyyatdan keçirmək mümkün olacaq. Bu da sığorta sektorunun inkişafına çox ciddi təkan verəcək. Prosesin bu ilin sonuna qədər yekunlaşdırılacağı gözlənilir. Beləliklə, respublikada daşınmaz əmlakın sığortalanması üçün qurulan yeni elektron sistem həm əmlakın sığortalanması prosesini sadələşdirəcək, həm də əmlakın sığortalı olub-olmadığına daha yaxşı nəzarət etməyə imkan verəcək.

Hazırda Azərbaycanda icbari sığorta sahəsində daha çox zəif inkişaf edən istiqamətlərdən biri mənzil və evlərin sığortasıdır. Ekspertlərin qiymətləndirmələrinə əsasən, təkcə Bakı şəhərindəki mənzil və evlərin qiyməti 50 milyard manata yaxındır. Azərbaycanda icbari sığortalara nəzarəti həyata keçirən qurumun – İcbari Sığorta Bürosunun açıqladığı məlumata görə, ötən ilin sonuna respublikada, ümumilikdə, 151 min ev və mənzil sığortalanmış vəziyyətdə olub. Mərkəzi Bankın baş direktoru Ziya Əliyevin sözlərinə əsasən, sığortalana bilən əmlakların potensial sayı 1 milyondur. Bu da əmlak sığortasında penetrasiyanın, yəni bazarın əhatə göstəricisinin 15 faiz olmasının təsdiqi deməkdir. Dəyişikliklərdən sonra isə bu rəqəmin azı 2 dəfə artırılması gözlənilir.

Ziya Əliyevin sözlərinə görə, ölkədə qeyri-yaşayış obyektlərinin sığortalı olub-olmamasına nəzarəti Fövqəladə Hallar Nazirliyi həyata keçirir. Yaşayış evlərinin sığortasına nəzarət isə qanunla rayon icra hakimiyyəti orqanlarına həvalə edilir. Qanuna görə, əmlakını sığorta etməyənlərin cərimələnməsi də nəzərdə tutulsa da, bu sistem işləmir.

Bundan sonra isə evlərin sığorta olunub-olunmadığı elektron şəkildə müəyyənləşdiriləcək. Bunun üçün Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyindəki Daşınmaz Əmlakın Reyestri Xidməti ilə İcbari Sığorta Bürosu inteqrasiya olunacaq. Artıq başlayan bu proses yaxın aylarda yekunlaşacaq. Beləliklə, müvafiq icra hakimiyyəti həm ölkədəki “kupçalı” evləri, həm də onlardan hansının sığorta edilib-edilmədiyini görə biləcək. Bu da onlara sığortası olmayan evlərə kabinetdən çıxmadan elektron şəkildə cərimə yazılmasına imkan verəcək.



Yeni qaydalarda sığorta olunmayan evlərin cərimələnəcəyi nəzərdə tutulur. Bəs belə olan halda ölkədə mövcud 500 minə yaxın “kupçasız” evin aqibəti necə olacaq? Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına görə, daşınmaz əmlakın icbari sığortası ölkədə mövcud olan yaşayış və qeyri-yaşayış əmlakları üçün məcburidir. Bu sığorta növü üzrə proseslər 2011-ci ildə qəbul edilən “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qanundan irəli gələn tələblərə görə, yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısa qapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma, hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri, yerüstü nəqliyyat vasitəsinin dəyməsi, təbii fəlakətlər – zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi, üçüncü şəxslərin hərəkətləri nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi daşınmaz əmlakın icbari sığortası növü üzrə sığorta hadisəsi hesab olunur.

Müvafiq qanunun digər tələbinə əsasən, yaşayış obyektlərinin icbari əmlak sığortası üzrə tarif və təminat məbləğləri regionlara görə dəyişir. Belə ki, Bakı şəhərində yerləşən yaşayış obyektlərinin icbari sığortası üzrə tarif 50 manat, sığorta təminatı 25 min manata qədər, Gəncə, Sumqayıt və Naxçıvanda sığorta tarifi 40 manat, sığorta təminatı 20 min manata qədər, digər şəhər və rayonlarda yerləşən yaşayış obyektləri üçün sığorta tarifi 30 manat, sığorta təminatı isə 15 min manata qədər müəyyənləşdirilir. Qeyri-yaşayış obyektlərində isə sığorta tarifləri həmin əmlakın yerləşdiyi yerə, təyinatına, həcminə görə, fərqləndirilir.

***V.BİNYATOĞLU, “Xalq qəzeti”***

## Ekspert rəyi

**Nihat QORQUD ƏLİYEV, iqtisadçı-ekspert**



Ədliyyə Nazirliyi və Əmlak Məsələləri Dövlət Xidmətinin birgə ideya layihəsi ölkəmizdə mövcud olan və sığortalanmamış daşınmaz əmlakların sığortaya cəlb olunmasını təmin edə biləcək. Hazırda ölkə vətəndaşlarının icbari əmlak sığortasına olan yanaşma qaneedici deyil. Çünki statistikaya əsasən, hazırda respublika ərazisindəki yaşayış obyektlərinin 90 faizi, qeyri-yaşayış obyektlərinin isə 70 faizi icbari qaydada sığorta edilməyib. Söhbət sənədli əmlaklardan gedir. Bu da onu göstərir ki, bu sığorta növü üzrə bazar potensialı böyükdür və sistemli tədbirlər nəticəsində daşınmaz əmlakın icbari sığorta növü üzrə penetrasiya ən az 2-3 dəfə artırıla bilər. Çıxarışsız əmlaklar da qanunvericiliyə əsasən, sənədləşdirildikdən sonra qurulmaqda olan elektron sistem vasitəsilə avtomatik olaraq sığortaya cəlb olunacaq.

Onu da vurğulayım ki, daşınmaz əmlakın icbari sığortası növündən istifadə etməyən mülk sahibləri müəyyən cərimə ilə üzləşə bilərlər. Belə ki, daşınmaz əmlakların satınalması və girov əməliyyatları zamanı bu sığorta növü aidiyyəti qurumlar tərəfindən mütləq tələb olunur.

Bundan əlavə, İnzibati Xətalar Məcəlləsinin 469-cu maddəsində, daşınmaz əmlakını icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslərə 30 manat, vəzifəli şəxslərə 80 manat, hüquqi şəxslərə isə 200 manat məbləğində cərimə müəyyənləşdirilib. Şəxs bu maddədə nəzərdə tutulmuş icbari sığorta müqaviləsinin bağlanmamasına görə, inzibati məsuliyyətə cəlb olunduqda 20 gün ərzində icbari sığorta müqaviləsini bağlamalıdır.

# Türkiyədə seçkilər: ikinci tura 5 gün qalır

**Mayın 14-də Türkiyədə keçirilən prezident və parlament seçkilərində altmış milyona yaxın insan iştirak edib. Səsvermə hüququ olan vətəndaşların doxsan faizə yaxını seçkilərə qatılıb. Bu, nəinki qardaş ölkənin, bütövülkdə çağdaş dünyanın demokratik ölkələrinin tarixində görünməmiş bir hadisədir.**

Bakı Dövlət Universitetinin Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov hesab edir ki, Türkiyə 14 mayda bütün dünyaya demokratiya dərsi keçib: "Dostlar sevindilər, rəqiblər və düşmənlər məyus oldular, Türkiyənin seçkilərdə möhtəşəm perfomansı heç də təsadüfi sayılmamalıdır. Belə ki, türk xalqı zəngin dövlət və dövlətçilik ənənələri olan bir toplumdur".

Professor R.Rüstəmov əmindir ki, seçkilərin ikinci turunda da Türkiyə vətəndaşları yüksək fəallıq göstərərək öz vətəndaşlıq borclarını yerinə yetirəcəklər. Çünki seçkilərin nəticələri bütün türk dünyası üçün həyati əhəmiyyət kəsb edir. Türkiyə güclü və qüdrətli olarsa, Böyük Turan da yenilməz olacaq! Qardaş ölkə bunun fərqindədir.



Seçkilərin ikinci turu da gərgin siyasi mübarizə şəraitində keçəcək. Yeri gəlmişkən, Prezident Rəcəb Tayyib Ərdoğan öz rəsmi "Twitter" hesabındakı paylaşımında qeyd edib ki, 28 may tarixində keçiriləcək prezident seçkilərinin ikinci turunda "millətimizin iradəsi və dəstəyi sayəsində rekord göstərici ilə qalib gələcəyik".

Dövlət başçısı həmçinin vurğulayıb ki, "millətimiz 14 may tarixində 323 millət vəkili ilə parlamentdə çoxluğu "Cümhur İttifaqı"na verərək, əslində, öz iradəsini nümayiş etdirdi. Prezidentlikdə isə 49,5 faiz səslə 27 milyondan çox vətəndaşımız seçkilərdə bizə üstünlük verdi".

Xatırladaq ki, mayın 14-də Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəhbəri Rəcəb Tayyib Ərdoğan 49,50 faiz, Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi Kamal Kılıçdaroğlu 44,89 faiz, Ata İttifaqının namizədi Sinan Oğan 5,17 faiz, Məmləkət Partiyasının namizədi Məhərrəm İncə (səsvermə gününə üç gün qalmış öz namizədliyinin geri götürüb-müəllif) isə 0,44 faiz səs toplayıblar.

Mövcud qanunvericiliyə görə, prezident seçkilərində heç bir namizəd 50 faizdən çox səs toplamadığı üçün mayın 28-də seçkilərin ikinci turu keçiriləcək. Bu mərhələdə artıq iki namizəd—R.T.Ərdoğan və K.Kılıçdaroğlu mübarizə aparır. Bəzi analitiklər qeyd edirlər ki, Türkiyəni diktaturada günahlandıranlar indi utanırlar. Belə ki, diktatorlar ikinci tura qalmırlar.

Bəli, türk xalqı azad və ədalətli seçkilər arzulayır və bunu bacarır. Hər şeyi xalqın iradəsi həll edir. Heç bir yad qüvvə Türkiyəyə təsir və təzyiq göstərə bilməz!

Bugünlərdə prezidentliyə namizədlər seçicilərlə görüşür, bir daha öz proqramlarını izah edir, tərəfdarlarını ikinci turda da fəal olmağa çağırırlar. Bununla bərabər, bir çox seçki texnoloqları ikinci turda seçici fəallığının 14 mayda olduğundan, təxminən, səkkiz-on faiz aşağı olacağını ehtimal edir.

Ölkə mediasında isə Ata İttifaqından namizəd olan Sinan Oğanın tərəfdarlarının ikinci turda hansı namizədə səs verəcəyi ilə bağlı müzakirələr səngimək bilmir. Məlum olduğu kimi, S.Oğan millətçi siyasətçi kimi tanınır və onun elektoratı əsasən ölkədə son illər qaçqınların sayının kəskin surətdə artmasından narahatdır.

Bunu nəzərə alaraq prezidentliyə namizədlər və onların komandaları qaçqınların taleyi ilə bağlı mövqelərini açıqlamağı özlərinə borc bilirlər. Dünən xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, "Türkiyəyə gəlmiş çoxlu sayda Əfqanıstan sakinini vətəninə göndərdik, "Taliban" hakimiyyətə gəldikdən sonra da təyyarələrlə göndəririk".

M.Çavuşoğlu sonra deyib ki, suriyalı miqrantlar Türkiyəyə vətəndaş müharibəsi səbəbilə gəliblər. 550 min suriyalı miqrant ölkəsinə geri göndərilib. XİN rəhbəri bununla yanaşı, həmin rəqəmin kifayət etmədiyini və daha çox miqrantın ölkəsinə göndəriləcəyini vurğulayıb: "Onları təkcə təhlükəsiz bölgələrə deyil, rejimin nəzarətində olan yerlərə də göndərməliyik. Yəni, gəldikləri şəhərlərə".

Nazir mühacirlərin təhlükəsiz qayıtması və infrastrukturun hazırlanması üçün "yol xəritəsi" üzərində çalışdıqlarını da deyib: "Miqrantlar geri dönəcəklər, onları geri qaytaracağıq, amma bunu insan ləyaqətinə yaraşan şəkildə etməliyik".

M.Çavuşoğlu həmçinin Türkiyədəki suriyalı kürdlərin terrorun olduğu yerə qayıtmaq istəmədiyini, terror təşkilatı PKK-nın zülmü ilə üzləşdiklərini bildirib.

Yeri gəlmişkən, mayın 28-də Türkiyədə keçiriləcək prezident seçkilərinin ikinci turu üçün xaricdə yaşayan Türkiyə vətəndaşlarının səsverməsi davam edir. "TRT Haber" xəbər verir ki, xarici nümayəndəlik və sərhəd məntəqələrində səsvermə prosesində iştirak edən Türkiyə vətəndaşlarının sayı 1 milyonu keçib. Xaricdəki nümayəndəliklərdə səsvermə prosesi mayın 24-də başa çatacaq.

Dünən ATA İttifaqının Türkiyə prezidenti postuna namizədi olmuş Sinan Oğan ikinci turla bağlı qərarını açıqlayıb. Bununla bağlı mətbuat konfransı keçirən Oğan seçkilərin ikinci turunda Türkiyənin hazırkı prezidenti Rəcəb Tayyib Ərdoğanı dəstəkləyəcəyini bəyan edib. O, tərəfdarlarını Ərdoğana səs verməyə çağırıb. Bundan əlavə, Türk Dövlətləri Təşkilatının gücləndirilməli olduğunu deyib.

Əlavə edək ki, ATA İttifaqına daxil olan Ədalət Partiyası CHP lideri Kamal Kılıçdaroğlunu dəstəkləyib, Zəfər Partiyası isə qərarını bu gün açıqlayacaq.

Türkiyədə seçkilərin ikinci turuna cəmi beş gün qalır. Qəlbən inanır və çox ümid edirik ki, müdrik türk xalqı bu dəfə də ən doğru seçimini edəcək. Xeyirlisi olsun, əziz Türkiyə!

***M.HACIXANLI,***
***"Xalq qəzeti"***




# Şimal-Cənub dəhlizi: Azərbaycan udan, Ermənistan uduzan tərəfdir

## *Rəsmi İrəvanın Bakını dəhlizdən kənarda qoymaq cəhdləri fiaskoya uğrayıb*

**Bu günlərdə Tehranda İran və Rusiya rəsmiləri ölkəmizin ərazisindən keçən Şimal–Cənub nəqliyyat dəhlizinin mühüm hissəsi olan Astara–Rəşt dəmir yolunun tikintisi ilə bağlı saziş imzalayıblar. Bu, sözügedən dəhlizin fəaliyyətə başlaması istiqamətində atılan mühüm addımlardan biri kimi dəyərləndirilir.**

***Ekspert rəyi***



**Atamoğlan MƏMMƏDLİ,**
**Bakı Dövlət Universitetinin professoru, politoloq**

Rusiya və İran öz aralarında ticarət dövriyyəsinin həcmini hazırkı 40 milyard dollardan bir neçə dəfə artırmağı planlaşdırır. Bu məqsədlə xüsusi işçi qrupu yaradılıb. İlkin mərhələdə Astara-Rəşt dəmir yolunun tikintisini sürətləndirmək nəzərdə tutulub.

Məlum olduğu kimi, bu il mayın 17-də Tehranda Rusiya ilə İran arasında Rəşt–Astara dəmiryolunun tikintisi üçün saziş imzalanıb. 170 kilometr uzunluğunda olan bu xəttin inşası 4 il ərzində başa çatdırılacaq. Layihələndirmə işləri təxminən bir il çəkəcək. Ondan sonra Astara-Rəşt dəmir yolunun tikintisi başlayacaq.

Azərbaycan bu layihədən ən çox udan ölkələrdən biri olacaq. Çünki ölkəmizdə yaxşı inkişaf etmiş dəmir və avtomobil yolları, liman infrastrukturu var. Bu sahədə Azərbaycanla Cənubi Qafqazda heç bir ölkə rəqabət apara bilmir.

Məlumdur ki, son illər Baku -Yalama dəmir yolunda 400 milyon dollarlıq modernizasiya işləri görülüb. Yaxın vaxtlarda isə Ələt-Astara yolunun modernləşdirmə işləri başlayacaq. 2023-cü ilin sonuna qədər yüksək sürətli Samur-Baku avtomobil yolunun tikintisi başa çatdırılacaq.

Xatırladaq ki, hələ 2019-cu ildə Azərbaycan-Rusiya sərhədində Yalama-Qazmalar körpüsü inşa edilib. Ötən ildən orada Xanoba nəzarət-buraxılış məntəqəsi fəaliyyət göstərir. Buradan gündə 1000 yük maşını keçir. "Şirvanlı" nəzarət-buraxılış məntəqəsi ən müasir avadanlıqlarla təchiz olunub. Bu tədbirlər nəticəsində əvvəllər sərhəddə adi hal olan tıxaclar aradan qaldırılıb.

Azərbaycan özünün cənub sərhədlərində də nəqliyyat infrastrukturunu yaradıb. 2018-ci ildə Ələt-Astara avtomobil yolu istifadəyə verilib. Son dörd ildə Astaradan sərhədə qədər dəmir yolu relsləri quraşdırılıb. Astara çayı üzərində yeni terminallar və nəzarət-buraxılış məntəqəsi inşa edilib.

Ukraynada artıq 15 aydır davam edən ağır müharibə, Qərbin Rusiyaya və İrana qarşı tətbiq etdiyi sanksiyalar Avropanın şərqi ilə qərbi arasında nəqliyyat əlaqələrini minimuma endirib. Bütövlükdə, geniş bir coğrafi məkanda Avropa ilə Rusiya arasında yaranan dərin çatlar rəsmi Moskvanı alternativ ticarət yollarının açılması üçün səylərini artırmağa sövq edib.

Bu kontekstdə Qədim İpək Yolu üzərindəki "Orta dəhliz"lə bərabər, Şimal-Cənub dəhlizinin əhəmiyyətini kəskin artırır. Bu marşrut Baltikyanı ölkələrin limanlarından Hindistanın böyük sənaye və ticarət şəhəri olan Mumbaya qədər 7 min kilometrdən çox məsafədə mal və məhsulların daşınmasını gündəmə gətirir.

Ən başçlıcası, bu dəhliz mövcud ənənəvi ticarət yollarından iqtisadi cəhətdən daha sərfəlidir. Belə ki, Şimal-Cənub dəhlizi hazırda Süveyş kanalı vasitəsilə daşınan malların nəqliyyat xərclərini, azı, otuz faiz azalda bilər. Üstəlik, daşınma müddəti üç dəfə qədər azala bilər.

Rusiya Prezidenti Vladimir Putin Şimal-Cənub dəhlizinin əhəmiyyəti barədə danışarkən deyib ki, məhsulların Sankt-Peterburqdan Mumbaya çatdırılması təxminən 10 gün çəkəcək. Həm də xeyli ucuz başa gələcək.

Buna görə də Rusiya səxavətlə dəhlizə vəsait ayırmağa qərar verib. Belə ki, Moskva İranın payına düşən Astara-Rəşt dəmiryolunun tikintisi üçün İran tərəfinə 1,3 milyard avro kredit ayırıb. İki ölkə arasında imzalanan sazişə əsasən layihənin dəyəri 1,6 milyard avro dəyərləndirilir.

Qeyd etmək lazımdır ki, İran uzun müddət bu layihəyə Ermənistanı cəlb etməklə, Azərbaycanı kənarda qoymaq istəyirdi. Hətta Hindistan hökuməti oradakı erməni lobbisinin təzyiqi ilə dəhlizin Ermənistandan keçməsində maraqlı olduğunu deyirdi. Alternativ yol kimi, malların İrandan Ermənistana daşınması, oradan isə Gürcüstan yolu ilə Rusiyaya çatdırılması təklif olunurdu.

Mütəxəssislər qeyd edirlər ki, həmin yolun buraxılış imkanları həddindən artıq aşağıdır. İndinin özündə də Ermənistana aid nəqliyyat vasitələri o yolu keçməkdə bir çox ciddi çətinliklərlə üzləşir. İran, eyni zamanda yüklərin Xəzər dənizi vasitəsilə Ənzəli limanına daşınmasını təklif edirdi. Bu təklif də bəyənilməyib, ona görə ki, malların dəmir yolu ilə daşınması daha ucuz başa gəlir.

Ermənistan rəhbərliyi isə son vaxtlar rəsmi Bakı ilə Tehran arasında müəyyən gərginliyin yaranmasından istifadə edərək alternativ yol variantını yenidən gündəmə gətirmişdi. Bu dəfə İrəvan "Fars körfəzi – Qara dəniz" layihəsinin icrası üçün cəhdlər göstərirdi. Lakin ermənilərin bu arzusu da gözlərində qaldı. Belə ki, yüklərin quru yollarla "Tır"larla daşınması dəmir yoluna nisbətən baha başa gəlir.

Bundan başqa, İrəvanın öz ərazisindən İrana dəmir yolu çəkmək ideyası da fiaskoya uğrayıb. Belə ki, bu yol çətin relyefi olan yüksək dağlıq ərazidən keçməlidir. Bunun üçün azı 3-5 milyard dollar vəsait lazımdır. Bu vəsait isə Ermənistanda yoxdur.

***M.ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# "The New York Times": G7 sammitinin görünməyən tərəfləri

**G7 ölkələrinin Yaponiyanın Hiroşima şəhərində keçirilən sammiti öz işini başa çatdırıb. "The New York Times" qəzeti sammitin bəzi pərdəarxası məqamlarını oxucuların diqqətinə çatdırıb. "Pərdəarxası: G7 ölkələri iqlim üzrə iddialı öhdəliklərlə bağlı mübahisə edir" sərlövhəli məqalədə qeyd olunub ki, dünyanın ən böyük sənayeləşmiş demokratik ölkələri dörddə bir əsrdən bir qədər çox müddət ərzində qalıq yanacaqlardan istifadəni dayandırmağa və mümkün qədər tez günəş və külək kimi yeni enerji mənbələrinə keçməyə razılaşıblar.**

7-lik qrupunun liderləri həftə sonu Yaponiyanın Xirosima şəhərində toplaşarkən, bəzi ölkələr ən pis hadisələrin qarşısını almaq məqsədilə qaz və kömür kimi karbon emissiya edən yanacaqların istifadəsini mərhələli şəkildə ləğv etmək üçün öhdəlikləri yumşaltmaq barədə mübahisə ediblər. Məqalədə qeyd edilir ki, pərdəarxası döyüşdə bir çox G7 dövlətinin trilyonlarla dollarlıq hökumət təşviqləri ilə qlobal enerji keçidini sürətləndirməyə çalışarkən siyasi, iqtisadi və praktiki çətinliklərlə qarşılaşdıqları bildirilib.

Ukraynanın işğalından əziyyət çəkən Avropa ölkələri işıqları yandırmaq üçün təbii qaz mənbələrini tez bir zamanda təmin etməyə çalışırlar. Eyni zamanda, Yaponiya və hətta müəyyən dərəcədə Amerika Birləşmiş Ştatları kimi ölkələr öz daxilində və ya xaricdə qalıq yanacaq sənayesinə uzunmüddətli investisiyaları qorumağa çalışırlar.



Birləşmiş Ştatlar və onun müttəfiqləri keçən il ərzində külək və günəş enerjisi, elektrik nəqliyyat vasitələri, enerji səmərəliliyinə kömək etmək üçün texnologiya və istixana qazı emissiyalarını, həmçinin qlobal temperatur artımını azaltmaq, nəzərdə tutulan digər tədbirlərə sərmayələri stimullaşdırmaq üçün sürətlə hərəkət etdilər. Eyni zamanda, onlar həm Avropada elektrik enerjisi böhranının qarşısını almaq, həm də bütün dünyada benzinin qiymətini aşağı salmaq üçün qalıq yanacaqların qlobal bazarlara axmasını saxlamaq məqsədilə rəsmilərin müvəqqəti, lakin mühüm adlandırdıqları tədbirləri həyata keçiriblər.

İngiltərə və Fransa Almaniyanın səyləri ilə mübarizə apardılar. Bayden Administrasiyası prezidentin öz iddialı iqlim dəyişikliyi gündəmini müdafiə etmək və ABŞ-ın digər müttəfiqlərinə onların qalıq yanacaqlara çıxışını artırmaq niyyətində olan yardım arasında qalıb.

İrlandiyanın keçmiş prezidenti Mary Robinson, "G7 1,5 dərəcə Selsi həddini necə canlı saxlamaq və təmiz enerjiyə qlobal keçidə təkan vermək niyyətlərini açıq şəkildə ifadə etməlidir. İqlim böhranı üzərimizdədir" -deyərək həyacanını ört-basdır edə bilməyib.

Məlumdur ki, Yaponiya enerjisinin, təxminən, 30 faizini kömürdən alır. Bu da ətraf mühüitin korlanmasına təsir edir. Bir ay əvvəl Yaponiyanın Sapporo şəhərində 7-lik qrupunun ətraf mühit nazirlərinin görüşü zamanı yapon nümayəndələrini Asiyada qaz yataqlarının işlənməsinə əlavə sərmayə qoymağa icazə verməyə məcbur etdilər.

Qəzet yazır ki, G7-lik "təmiz enerji iqtisadiyyatı fəaliyyət planı"nda "hər ölkənin enerji vəziyyətinə, sənaye və sosial strukturlarına və coğrafi şəraitə görə müxtəlif yolların olduğunu" etiraf etdi.

Britaniya və Fransa dərhal enerji böhranının keçdiyini və Avropanın bu qış potensial elektrik çatışmazlığının qarşısının alındığını iddia ediblər. Almaniya artıq ilk mayeləşdirilmiş təbii qaz terminalını tikib və bunun sayını artırmağa ümid edir.

Yaponiya da təbii qazın gələcək inkişafında maraqlı olduğunu bildirib.

***Hazırladı:***
***Ə.BƏDƏLOV, "Xalq qəzeti"***

# Ermənistan Laçın dəhlizi ilə bağlı yenidən beynəlxalq məhkəməyə müraciət edib

**Laçın yolunda Azərbaycanın nəzarət-buraxılış məntəqəsi qurması ilə bağlı Ermənistan ikinci dəfə beynəlxalq məhkəməyə müraciət edib.**

Bu barədə bazar günü Ermənistanın ictimai televiziyasına müsahibəsində beynəlxalq hüquq məsələləri üzrə nümayəndə Yeqişe Kirakosyan bildirib.

O qeyd edib ki, yolda nəzarət-buraxılış məntəqəsi quraşdırıldıqdan sonra ikinci dəfə Beynəlxalq Məhkəməyə müraciət ediblər. Bildirilib ki, İrəvan Haaqadan Laçın dəhlizi ilə nəqliyyatın maneəsiz hərəkət etməsini tələb edərək, iddia ilə bağlı yekun qərar qəbul olunana qədər Bakıya qarşı müvəqqəti tədbir görüləcəyini gözləyir.

Ermənistanın Beynəlxalq Hüquq Məsələləri üzrə Müvəkkili Aparatı da məsələ qaldırıb ki, guya, Bakı nəinki BMT məhkəməsinin müvəqqəti qərarlarına əməl etmir, həm də Avropa İnsan Haqları Məhkəməsinin qərarlarına məhəl qoymur.

***L.AZAD,***
***"Xalq qəzeti"***

# Həkəri postu sözümüzün təsdiqidir

## Ararat Mirzoyan Laçın yolunun Rusiya sülhməramlı kontingentinin nəzarətində olmadığından şikayətlənib

**Moskvada Rusiya və Ermənistan XİN başçılarının ikitərəfli görüşünün gedişində Hayastanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycanın şərti sərhəddə, Laçın yolunda – Həkəri çayının üstündə yaratdığı nəzarət-buraxılış məntəqəsinin Rusiya Federasiyasının, onun bölgəyə müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentinin nəzarətində olmadığını moskvalı həmkarı Sergey Lavrovun diqqətinə gileylənərək çatdırıb.**





### Yenə məntəqədən şikayətləndi...

A.Mirzoyanın yersiz giley-güzarı gerçəkliyi təhrif etmək üzrə püxtələşmiş rəsmi İrəvanın gənc çinovniklərinin də etnik natamamlıq kompleksindən əziyyət çəkdiyi, yüksək formatlı beynəlxalq tədbirlərdə özlərini əzabkeş xalqın nümayəndəsi kimi aparmağa üstünlük verdiyi xəstəliyin görünən simptomlarıdır. Bizim üçün burada təəccüblü heç nə yoxdur. Çünki hayların yuxarıda dediyimiz kompleksdən neçə əsrdir əziyyət çəkdiklərini hamıdan yaxşı biz azərbaycanlılar bilirik. Arzu etdiklərini gerçəklik kimi qələmə verməyə alışmış haylar Qarabağ münaqişəsinin lap əvvəlindən bütün təbliğatlarını yalan, və şər-böhtan toxumları üzərində qurdular və bu gün, necə deyərlər, əkdiklərini biçirlər.

Danışıqların Moskva raundunu ağrılı mövzular ətrafında, Cənubi Qafqazdakı mövcud vəziyyət barədə danışmaq üçün daha bir fürsət kimi dəyərləndirən hayların baş diplomatı sülh dialoqunun indiki mərhələsində İrəvanın "konstruktiv mövqe", Bakının isə "eskalasiya yolunu tutduğunu" gördüklərini dilə gətirir. "Ermənistan həmişə olduğu kimi, konstruktivdir, biz sülh istəyirik", – deyən A.Mirzoyanın bölgədəki reallığa və onun doğurduğu hərbi-siyasi mənzərəyə güzgü effekti ilə baxdığı, buna görə hər şeyi tərsinə görüb qavradığı gözümüzün qarşısındadır. Düzünə, ya tərsinə, aşkar görünən həqiqət bundan ibarətdir.

Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov da Ermənistan XİN-in



başçısı Ararat Mirzoyanın Moskvada yersiz danışdığına və Sergey Lavrovun qarşısında ağlaşma qurmasının İrəvana heç bir fayda gətirməyəcəyinə diqqəti çəkdi:

**"Onun dediyi sözlərin heç bir dəyəri yoxdur. Mirzoyanın orada nədən şikayətləndiyi əsas deyil. Əsas məqam vasitəçi Rusiyanın baş diplomatı Lavrovun üçtərəfli görüşün sonunda bizim Laçın yolunda qurduğumuz nəzarət-buraxılış məntəqəsi barədə, ümumiyyətlə, bir kəlmə də söyləməməsidir. O da yaxşı bilir ki, bu məsələ Azərbaycanın suverenliyi çərçivəsində artıq öz həllini tapıb və beynəlxalq təşkilatlar da bunu qəbul ediblər. Daha ermənilərin vay-şivəndən savayı edə biləcəkləri heç nə qalmayıb".**

Düz bir aydır Azərbaycanın Ermənistanla şərti sərhəddə, Laçın yolunun Həkəri çayının üzərindən keçən hissəsində üçrəngli, ay-ulduzlu Dövlət Bayrağımız dalğalanır. Qazandığımız hərbi-siyasi uğurların nəticəsində bölgədə yaranmış yeni reallıqla barışmayan İrəvan və onun xaricdəki himayədarları hələ də illüziyalardan əl çəkmir, revanşist iddialarla çıxış edirlər.

Hayların xarici işlər nazirinin sülh danışıqlarında həmişə özünəməxsus mövqe münayiş etdirdiyini söyləyən **politoloq Yeganə Hacıyeva** bunun səbəbini belə açıqladı: **"Nikol Paşinyan iqtidarı hakimiyəti lobbi qruplarının nümayəndələri arasında bölüşdürməklə, guya, balansa nail olub. Baş nazir öz komandasını məhz bu amilə söykənərək, qurub, seçkilərdə də bunun hesabına qalib gəlib. Bu bölgü prinsipinə görə, Ararat Mirzoyan ABŞ Konqresindəki Ümumerməni Konqresinin nümayəndəsi, onun dəstəklədiyi namizəddir. Təhsilini Amerikada alan Mirzoyanın doğum yeri haqqında müxtəlif versiyalar səslənsə də, amerikalıdır. Onun münaqişənin tənzimlənməsindəki mövqeyi də buradan qaynaqlanır və çox vaxt danışıqları pozmağa yönəlir. Mirzoyan buna görə Ermənistan parlamentindəki Rusiya lobbisindən, eləcə də Avropa İttifaqının təmsilçilərindən tamamilə fərqli mövqe nümayiş etdirir".**

Yeganə Hacıyeva A.Mirzoyanın Moskvada Həkəri postu ilə bağlı dediklərinin beynəlxalq hüquqa, eləcə də Azərbaycanın Konstitutusiyası ilə bir araya sığmadığını vurğuladı: **"Sərhəd şərti də olsa, o, Azərbaycan dövlətinə məxsusdur və orada quraşdırılan nəzarət-buraxılış məntəqəsi də ölkəmizin suverenliyinə və buradan irəli gələn şərtlərə tam uyğundur. Beynəlxalq hüququn regional tətbiqinə, həmçinin ölkə Konstitusiyasına görə, sərhəd Azərbaycanındır. Orada quraşdırılan məntəqə də konstitusiyamızın şərtidir. Hər hansı üçtərəfli razılaşma, xüsusilə də bəyanat çərçivəsində razılaşma dövlətlərin daxili qanunvericilik, konstitusion şərtlərindən də güclüdür, eləcə də beynəlxalq hüquqdan, beynəlxalq konvensiyalardan üstün deyil".**

Politoloq məhz bu səbəbdən Ararat Mirzoyanın istər dediyi, istərsə də arzuladığı şərtlərin onun sadəcə görmək istədiyi məqamlardan ibarət olduğunu qeyd etdi:

**"O məntəqədə nə Rusiyanın, nə Avropa İttifaqının, nə də BMT-nin qüvvələri olacaq. Həkəri postunda həmişə Azərbaycan sərhədçiləri, gömrükçüləri və hərbçiləri xidmət göstərəcəklər. 2025-ci ildən sonra isə Laçın yolu, Qarabağ da daxil, hər şey Azərbaycan Ordusunun nəzarətinə keçəcək".**

Təslimçilik sazişi, faktiki kapitulyasiya aktı kimi imza atdıqları 10 noyabr 2020-ci il tarixli Bəyanatının yalnız hüquqi şərtlərini deyil, bütövlükdə, sənədin özünü hörmətdən salmağa çalışan İrəvan üçün Həkəri postu artıq sonuncu dayanacaqdır. Son qərarın harada qəbul ediləcəyindən asılı olmayaraq, o, Azərbaycanın xeyrinə veriləcək.

### Sözümüz möhürümüzdür

Bir ay bundan əvvəl, 2023-cü il aprelin 23-də Azərbaycan–Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində sərhəd-buraxılış məntəqəsi quruldu və ölkəmizin ərazi bütövlüyü tam təmin olundu. Bu fakt bütün dünyaya bəyan edildi. Azərbaycan hər zaman olduğu kimi, bu gün də ədalətin tərəfdarıdır, bu yolda haqlı mübarizəsini sonadək, həm də qətiyyətlə davam etdirəcək. Buna heç kəs, o cümlədən İrəvan şübhə etməməlidir.

Bu gün artıq Ermənistanla sərhəddə, Həkəri körpüsündə qurulan sərhəd-buraxılış məntəqəsində pasport yoxlanış proseduru həyata keçirilir. Sərhədçilərimizlə yanaşı gömrükçülərimiz də orada xidməti fəaliyyətlərini davam etdirirlər. Onlar bu missiyanı beynəlxalq standartlara və etiketə tam uyğun şəkildə həyata keçirirlər.

Bütün haqsız ittihamlara rəğmən, Azərbaycan bu savaşın hər iki cəbhəsində – həm döyüş meydanında, həm də diplomatik müstəvidə daim dürüstlük və qətiyyət nümayiş etdirdi. Verdiyimiz vədə əməl etdik, sözümüzün sahibi olduq. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi: "Bizim sözümüz imzamız qədər keçərlidir".

Bəli, şərti sərhəddəki Həkəri postu nəyi nə vaxt edəcəyini dəqiq bilən, dediyi sözü imzaya və möhürə çevirməyi bacaran Ali Baş Komandanın və onun arxasında duran xalqın iradəsinin zirvə nöqtəsidir.

*İmran BƏDİRXANLI, "Xalq qəzeti"*

# Nikolun "niyə də yox" məntiqi

## Ermənistan baş nazirinin Azərbaycanla sülh təsəvvürlərinə baxış

**"Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Litvayaya səfəri zamanı bu ölkənin Prezidenti Gitanas Nauseda ilə birgə keçirdiyi mətbuat konfransı zamanı deyib. Dövlətimizin başçısı, həmçinin bildirib: "Biz ümid edirik ki, sülh danışıqlarının aparılması, nəticə etibarilə, Qafqaza uzunmüddətli sülh gətirəcək".**

Dünən Ermənistan baş naziri Nikol Paşinyan da keçirdiyi mətbuat konfransında Azərbaycanla münasibətlərdən söz açıb. Onun üzərində dayandığı başlıca məqam ölkəsinin 86,6 min kvadratkilometr ərazidə Azərbaycanın suveren hüquqlarını tanımasıdır.

Əlbəttə, N.Paşinyan mayın 17-də Avropa Şurasının Reykyavikdə keçirilmiş sammiti zamanı da bu fikri dilə gətirmişdi. Bundan başqa Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə mayın 14-də Belçikanın paytaxtında keçirilmiş "Brüssel formatı" çərçivəsindəki görüşdə də 86,6 min və 29,8 min kvadratkilometrlik ərazidə qarşılıqlı tanınma barədə razılığa gəlinmişdi. Hazırkı xarakterik məqam isə Nikolun, bilavasitə, Qarabağdan söz açmasıdır: "Bəli, Ermənistan Azərbaycan ərazisini 86,6 min kvadratkilometr olaraq tanıyır, bura Qarabağ da daxildir".

lanması mümkün ola bilər. "Əgər alınan cavab təkliflərinin məqbul olduğu və kompromislər məntiqi ilə uzlaşdığı qənaətinə gəlsək, niyə də olmasın. Niyə də yox?".

Əvvəldə də diqqətə çatdırdığımız kimi, Prezident İlham Əliyev Ermənistanla sülh müqaviləsinin beynəlxalq norma və prinsipləri əhatə etməli olduğundan söz açıb. Paşinyan isə sənədin icrasının təminatçıları barədə danışıb və bildirib ki, bu məsələdə irəliləyiş var. Amma, o, təminatçı rolunu üzərinə götürməyə hazır olan tərəfin və ya tərəflərin kimliyi üzərinə gəlməyib. Deməli, belə düşünmək mümkündür ki, dövlətimizin başçısı sülh müqaviləsinə təminat baxımından konkret hüquqi sənədlərə, Paşinyan isə tərəflər məntiqinə üstünlük verməkdədir. Mövcud xüsusda hansısa ölkənin qarant olmaq istəyini ifadə edib-etməməsi ilə bağlı sualı şərh edən Paşinyan deyib: "Bizim kimi mürəkkəb regionda qarant olmaq böyük məsuliyyətdir. Bu ölkələr üçün həm imkanlar yarada, həm də risklərə səbəb ola bilər".



Qeyd edək ki, Paşinyan Reykyavikdəki çıxışında ilk baxışdan absurd görünən bir fikri də gündəmə gətirmişdi. O demişdi ki, İrəvan üçüncü ölkələrin Qarabağın müstəqilliyini tanımasına çalışacaq. Təsəvvür edin, Ermənistan özü belə bir "tanınmadan" uzaq durur, ancaq hansısa xarici ölkəni mövcud istiqamətdə həvəsləndirir. Həqiqətən də, ortada nəinki absurd, son dərəcə həyasız bir yanaşma var. Nikol dünənki mətbuat konfransında da eyni "dəst-xəttini", amma bir qədər korrekt formada təkrarlamağa üstünlük verib. O deyib ki, Ermənistan Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi məsələsinin həllini Bakı ilə Xankəndi arasında müzakirə olunmasında görür.

Bəli, Paşinyanın nəyi necə görməsinin heç bir önəmi yoxdur. Çünki Bakının Qarabağ erməniləri ilə bağlı öz mövqeyi var. Onlar ölkəmizin digər xalqları kimi imtiyazlardan bəhrələnəcəklər, mövcud xüsusda hər hansı ayrı-seçkiliyin və ya hansısa fərqli yanaşmanın sülh müqaviləsində yer alması qeyri-mümkündür. Yəni, Azərbaycan Prezidentinin yazımızın ilk cümləsində iqtibas gətirdiyimiz fikirlərindəki konstruktiv səylər məntiqi mövcud müstəvidə güzəşti nəzərdə tutmur və tuta da bilməz. Dövlətimizin başçısı bununla bağlı mövqeyini dəfələrlə açıqlayıb...

Erməni baş naziri 1–4 may 2023-cü il tarixində keçirilmiş Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqton raundundan əvvəl Bakıya ölkəsinin sülh təkliflərinin son variantını təqdim etdiyini açıqlayıb. "Bu, səhv etmirəmsə, dördüncü nəşr idi. İndi biz onların cavabını gözləyirik. Ümid edirəm ki, cavab Vaşinqton görüşündə əldə olunmuş razılaşmaları və qarşılıqlı anlaşmada irəliləyişi əks etdirəcək".

Maraqlıdır ki, N.Paşinyan çıxışında qarşılıqlı güzəştlərdən də söz açıb. Ancaq bununla bağlı təfərrüatlara aydınlıq gətirməyən baş nazir onların əsasında sülh sazişinin imzalana biləcəyini vurğulayıb. Hərçənd mayın 25-də Moskvada Azərbaycan Prezidenti ilə görüşündə sözügedən müqavilənin imzalanmasının istisna təşkil etdiyini də diqqətə çatdırıb. Həm də ona görə ki, görüşə çox az vaxt qalıb. Hər halda Nikol bu düşüncədədir.

N.Paşinyan, eyni zamanda, bu düşüncədədir ki, əgər Bakının təkliflərinin məqbulluğu qənaətinə gəlinsə, iyunun 1-də Azərbaycan Prezidenti ilə Qərb tənzimləməsi çərçivəsində Kişinyovda və ya payızda Qranadada keçiriləcək görüşlərdən (Şarl Mişelin missiyası nəzərdə tutulur. Bu baxımdan sözügedən görüşlərdə Fransa Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şolçun iştirakı da nəzərdə tutulur – red.) sonra sülh müqaviləsinin imzalanması mümkün ola bilər.

Mövzunu davam etdirən Ermənistanın baş naziri onu da deyib ki, əgər beynəlxalq ictimaiyyətdə tərəflərin, həqiqətən də, münaqişənin həllini istədiklərinə və sülhə can atacaqlarına əminlik yaranarsa, o zaman ola bilsin, ayrı-ayrı ölkələr, bəlkə də təşkilatlar, BMT Təhlükəsizlik Şurası bu məsələdə qarant rolunu öz üzərinə götürməyə razılaşacaq.

Sonda onu da deyək ki, Paşinyanın Azərbaycan Prezidenti ilə görüşə iki gün qalmış Qarabağın Azərbaycana məxsusluğunu bildirməsi müsbət haldır. Ancaq, Ermənistan baş naziri sülh perspektivindən yayınmaq üçün manevr yolunu da nəzərdən keçirməkdədir. Çünki o, necə deyərlər, "Qarabağ Azərbaycandır" bildirir, digər tərəfdən isə nizamlama prosesinə hansısa əlahiddəlik gətirmək haqqında düşüncələrə baş vurmaq əzmini ortaya qoyur, kimlərinsə sülh prosesində qarant rolunu oynamalı olduğunu dilə gətirir, üstəlik, həmin təminatçıların maraqlarına eyham vurur. Bu yanaşma isə səmimiyyət deyil və birbaşa dialoq məntiqindən uzaqlaşmadır. Halbuki, Azərbaycan Prezidenti İlham Əliyev mayın əvvəlində Vaşinqtonda hər iki ölkənin XİN rəhbərləri arasında görüşün getdiyi bir vaxtda, məhz ikili təmaslar məsələsini qaldırmışdı. Bu, İrəvanın səmimiyyət göstərməsinin vacibliyi ilə bağlı eyham idi. Səmimiyyət varmı, hələlik, bu barədə söz demək çətindir. Çətindir, həm də o səbəbdən ki, 44 günlük müharibədən sonra belə hal nəzərə çarpmayıb.

Əlbəttə, başa düşürük ki, indiki durumda Nikolun tam şəkildə Qarabağ erməniləri ilə bağlı məsələni bir kənara qoyması mümkünsüzdür. Fikrimizin təsdiqi üçün Ermənistanın müxtəlif yerlərindən Azərbaycanın Laçın yolundakı sərhəddə nəzarət-buraxılış məntəqəsi qurmasına qarşı bölgəyə yürüş keçirilməsini vurğulaya bilərik. Yəni, ümumilikdə, ölkədəki xəstə ictimai rəyin Qarabağ mövzusunda Nikola qarşı qəzəbi duyulmaqdadır.

Ancaq belə hallar heç də o demək deyil ki, Paşinyan həmin qəzəbi danışıqlar masasına daşımalıdır. Daha doğrusu, özünü həmin qəzəbdən və təzyiqlərdən sığortalamaq üçün danışıqların ruhuna zidd məqamlar qabartmalıdır. Həm də ona görə qabartmamalıdır ki, Azərbaycanın indiyədək göstərdiyi və göstərəcəyi təzyiq Ermənistanın dişsiz müxalifətinin söz yığnağından ibarət çərənləmələrindən qat-qat ağır başa gəlməkdədir.

*Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"*

# ABŞ-da haqq sözə hücum...

**Güney Azərbaycan Milli Azadlıq Hərəkatının lideri Əhməd Obalı və oğlu Dəniz ABŞ-da 6 nəfərdən ibarət dəstənin hücumuna məruz qalıb. Əhməd Obalıya ağır xəsarət yetirən sui-qəsdçilər onun tələbə övladını da fiziki zorakılığa məruz qoyublar. Hazırda xəstəxanada intensiv müalicə alan Əhməd Obalının vəziyyəti ağır qiymətləndirlir. Baş verənlər fonunda ən çox maraq doğuran suallardan biri isə qəsdin motivi, bu zorakılığın hansı qüvvələr tərəfindən təşkilidir.**

### Həqiqət carçısı – mübarizə adamı

Əhməd Obalı Güney Azərbaycan Milli Azadlıq Hərəkatının lideri kimi uzun müddətdir fəaliyyət göstərir. Əsasən İrandakı soydaşlarımızın problemlərini ictimailəşdirir, onların doğma ana dili, mədəniyyəti, hüquq və azadlıqları uğrunda apardığı mübarizəni beynəlxalq aləmin diqqətinə çatdırır.

Əhməd Obalı 1961-ci ildə İranın Ərdəbil ostanına bağlı Meşkinşəhrdə anadan olub. Gənc yaşlarından şah rejiminə qarşı etiraz aksiyalarında iştirak edib. Şah rejimi devrildikdən sonra İrandakı mövcud siyasi rejimə qarşı da mübarizəsini davam etdirən Əhməd Obalı 19 yaşında həbs edilib, təzyiqlərə məruz qalıb. Bütün bunların nəticəsində ölkəsindən uzaqda mühacir həyatı yaşamağa məcbur olub.

Cənab Obalının siyasi fəaliyyətində ən mühüm məqamlardan biri ABŞ-ın Çikaqo ştatında Güney Azərbaycan Televiziyasını təsis etməsidir. 2007-ci ildən Güney Azərbaycan Televiziyasının Azərbaycan bürosu fəaliyyətə başlamış, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində yeni mərhələyə start verilmişdir.

Bir sözlə, Əhməd Obalının bütün



həyatı – fəaliyyətinin təhlili bu şəxsin həqiqət carçısı və mübarizə adamı olduğunu göstərir.

Həyatını Azərbaycan insanına, onun azadlıq və ədalət uğrundakı mübarizəsinə həsr etmiş bir fəala hücum sadəcə olaraq, bir fərdə deyil, bütövlükdə, Azərbaycan insanının azadlıq mübarizəsinə edilən basqı kimi dəyərləndirilə bilər. Əslində, bu reallıq Əhməd Obalıyaya hücumun arxasında hansı siyasi motivlərin dayana biləcəyi ilə bağlı da bəzi ipucları verir.

### Haqq zora boyun əyməyəcək!

Şübhəsiz, Əhməd Obalıya qəsdin arxasında kimlərin, hansı qüvvələrin dayandığı haqqında indidən qəti mühakimə yürütmək mümkün deyil. Lakin sui-qəsdçilərin ABŞ polisi tərəfindən saxlanıldığını nəzərə alsaq, demək olar ki, bu məsələyə yaxın günlərdə aydınlıq gətiriləcək. Ancaq yetirilən xəsarətlərin ağırlığı, hücum edən şəxslərin onun boynunu qırmağa cəhd etməsi göstərir ki, məqsəd Milli Azadlıq Hərəkatı liderinin fiziki mövcudluğuna son qoymaq olub. Ancaq bu zorakılıq aktını həyata keçirənlər bilməlidirlər ki, haqqı, həqiqəti yaramaz üsullarla susdurmaq mümkün deyil. Azərbaycan xalqı illərdir onun həqiqətlərini dünyaya çatdıran, bu yolda hər cür təzyiq və təqiblərə sinə gərən oğlunun yanındadır və ona edilən hücumu qətiyyətlə lənətləyir. Və Azərbaycan xalqı əmindir ki, bu cinayətə imza atanlar, bu xain əməlin sifarişini verən qüvvələr ifşa olunacaq, gec-tez layiq olduqları cəzanı alacaqdır.

*Seymur ƏLİYEV*

**P.S. Azərbaycan Demokrat Firqəsi MK-nın Siyasi Heyəti Əhməd Obalı və oğlunun ABŞ-da xain hücuma məruz qalması hadisəsi ilə bağlı bəyanat verib. Bəyanatda baş vermiş hadisə hiddətlə qınanıb.**

# Əziz Şuşa, biz

**Şuşa 29 il 6 ay erməni faşizminin əsarətində qaldıqdan sonra, nəhayət, 2020-ci il noyabrın 8-i azad edildi! Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlə xalqa müraciət edib qala-şəhərin qəsbkardan xilası müjdəsini verdi. Ali Baş Komandan bu tarixin həyatında bəlkə də ən xoşbəxt günlərindən biri olduğunu bildirdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan!..”**

Beləliklə, Azərbaycan tarixində 1992-ci il 8 may Şuşa uğursuzluğundan ta 2020-ci il 8 noyabr Şuşa qələbəsinədək çox ağrı-acılı bir yol qət etdi. Bu uzun müddətdə qala-şəhər yadların, yağıların əsarətində inildəyib sızladı. Düşmən şəhərin bünövrəsini qoyan Pənahəli xanın tikdirdiyi məscid və mədrəsəni, Qara Böyük Xanım bürcünü, Hacıqullar malikanəsini, Xurşudbanu Natəvanın, Əsəd bəyin evlərini, ikimərtəbəli karvansarayı... yandırıb xarabalığa çevirsə də, özü, necə deyərlər, daşı daş üstə qoymadı, bir tikinti, bir abadlıq işi belə görmədi. Amma buna baxmayaraq məkrli məqsədindən də əl çəkmədi, Şuşanı Qarabağın paytaxtı elan etmək, qondarma rejimin parlamentini bu əzəli, tarixi şəhərimizə köçürmək iddiasını səsləndirməklə heysiyyətimizə toxunmağa cəhd göstərdi. Paşinyan bu mədəniyyət paytaxtımıza gəlib yallı getdi, “Qarabağ Ermənistandır, nöqtə” kimi bəyanatlar səsləndirdi. İşğalçı bu hərəkəti ilə xalqımızda bir ümidsizlik yaratmaq, inadımızı qırmaq, inamımızı sarsıtmaq məqsədi güddü. Lakin Azərbaycan əsgəri 44 günlük Vətən müharibəsində bu qala-şəhəri PUA-larsız, tanksız-topsuz, əlbəyaxa döyüşlə qaytardı...

...Şuşanın bərpasına 2021-ci il yanvarın 14-dən başlanılıb və həmin vaxtdan ötən müddət ərzində burada çox sayda layihələr icra olunub. İlk növbədə, yol çəkilib. şəhərin elektrik təsərrüfatı bərpa edilib, düşmən Şuşanı tərk edərkən dağıtdığı su xətləri yenidən qurulub və bura iki mənbədən suyun verilməsi reallaşdırılıb. “Xarıbülbül” otelində yuxarıda vurğulanan ilin may-iyun aylarında ilk qonaqlar qəbul edilib. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə tarixi-mədəni abidələrin yendən qurulması diqqət mərkəzində saxlanılıb.

Bu yazıda bütün bunlar barədə geniş söhbət açmağa və işğal dövründə xarabalığa çevrilən Şuşanın artıq öz təbii gözəlliyinə necə qovuşduğunu təsvir etməyə çalışacağıq.



## Sosial infrastruktur layihələri uğurla icra olunur

Şəhər ərazisində yaşayış və qeyri-yaşayış binaları ilə yanaşı, yeni dövlət qurumlarının obyektləri istifadəyə verilir. Bugünlərdə açılışı olan “Azərişıq” ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi yeni yaradılan dairəvi təchizat sxeminin tərkib hissəsi kimi layihələndirilib, “Nöqtə Buludu” texnologiyasından istifadə edilməklə ərazinin virtual xəritəsi hazırlanıb, əraziyə getmədən sahədə ölçmə və layihələndirmə işlərinin yerinə yetirilməsi, görüləcək işlərin əvvəlcədən planlaşdırılaraq vaxta qənaət edilməsi, həyata keçirilən tədbirlərin monitorinqinin və qiymətləndirilməsinin aparılması təmin olunub.




Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzində müxtəlif gücdə transformatorlar, 35 kV-luq yeni yarımstansiya inşa olunub, müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi, avtomatika sistemləri və 0,4 kV şəbəkələrini də əhatə edən SCADA dispetçer idarəetmə sistemi quraşdırılıb.

Mərkəzin ərazisində elektromobillərin enerji ilə doldurulmaları üçün müvafiq qurğular yerləşdirilib. Burada, həmçinin günəş enerjisi ilə çalışan panellər quraşdırılıb. Həmin panellər vasitəsilə əldə olunan enerjinin bir hissəsi yarımstansiyada qəza hallarında daxili tələbatın ödənilməsi və elektromobil enerji doldurma cihazları üçün istifadə olunmasına başlanılıb. Qalan enerjinin isə avtomatik rejimdə şəbəkəyə ötürülməsi reallaşdırılıb.

Texnologiyalar Mərkəzində təhlükəsizliyin təmin edilməsi və qəzaların aradan qaldırılması məqsədilə qapalı paylayıcı quruluşla digər yarımstansiyalar arasında əlaqələr, eləcə də yarımstansiyadan çıxan elektrik verilişi xətləri yeraltı kabellər vasitəsilə həyata keçirilir.

Şuşa işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının da bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən şəhərin su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər erməni vandallar tərəfindən məqsədli şəkildə dağıdılıb və suyun nəqli dayandırılıb.

Təxirəsalınmaz tədbirlər proqramına uyğun olaraq, Kiçik Kirs mənbəyinin və Kiçik Kirs–Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib.

Eyni zamanda, şəhərin digər mənbəyi – Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı–Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Şuşanın perspektiv inkişafı nəzərə alınaraq, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr təşkil edən sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni təzyiqli kəmər inşa edilib, eyni zamanda, diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs–Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 530-426 millimetr olan borularla əvəzlənib. Görülmüş işlərin nəticəsində 2022-ci ilin dekabrında yeni mənbədən suyun verilməsi ilə şəhərdə yaşayış olan evlər, dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib.

2040-cı ilə perspektiv inkişaf nəzərə alınmaqla hazırlanan Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsi 25 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Layihəyə əsasən şəhərin orta gündəlik su tələbatı 105 litr-saniyə təşkil edir.

Layihəyə əsasən, Şuşa şəhərində 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı suların tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçaya axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur “Ağıllı su” sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək. 2023-cü ilin ikinci yarısında məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulur ki, bu işlərə də 7,4 milyon manat vəsait sərf olunacaq.

## İlin sonuna qədər yüzlərlə sakin Şuşaya köçəcək

Şuşada yeni yaşayış və qeyri-yaşayış binalarının sürətlə inşası sakinlərin doğma yurd-yuvalarına qayıdışını tezləşdirir. Şəhər ərazisində infrastruktur yeniləndikcə, küçələr abadlaşdırılır və adlar verilir. Yol boyu küçələrin adlarının əks olunduğu lövhələr bunu təsdiqləyir. Heydər Əliyev, 8 Noyabr, Dəmir Yumruq, Zəfər, Qarabağ, Atatürk, Xurşidbanu Natəvan, Xan Şuşinski, Molla Pənah Vaqif və Pənahəli xan küçələri Azərbaycanın tarixi irsinin Şuşada bərpa olunduğunun bariz nümunəsidir.

Ulu öndər Heydər Əliyevin adını yaşadan küçənin 8 Noyabr ilə kəsişməsi bu dahi şəxsiyyətin ən müqəddəs istəyinin reallaşdırılmasının parlaq sübutudur. Məhz Prezident İlham Əliyevin liderliyi sayəsində artıq 20 ildir ki, nüçə-neçə belə arzu-istək gerçəyə çevrilir.

Şuşanı addım-addım dolaşdıqca, Cıdır düzündən göz işlədikcə uzanan dağ-aran Qarabağ torpağını seyr etdikcə qürur hissi keçiririk. Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə qüdrətli ordumuzun nəyə qadir olduğunu düşünüb bu xalqın, bu torpağın övladları olduğumuza görə, fəxr duyuruq. Şuşada, eləcə də digər işğaldan azad edilən ərazilərimizdə bu gün tarixi-mədəni irs nümunələrinə yüksək diqqət və qayğı ilə yanaşılmasını isə xalqımızın dünənimizə, keçmişimizə bağlılığı kimi, mənəvi dəyərlərimizə sevgisi kimi dəyərləndiririk.

Şəhərin Qarabağ küçəsində 10 qeyri-yaşayış binası tikilir. A” və “B” korpuslarından, həmçinin ofis binasından ibarət tikilinin ümumi sahəsi 5 min 745 kvadratmetr nəzərdə tutulur. Binanın ikinci mərtəbəsində avtodayanacaq yerləşəcəyi də planlaşdırılır. Gələn il bu vaxt təhvil verilməsi nəzərdə tutulan həmin obyektlərdə ofis və ticarət mərkəzlərinin, həmçinin təmir olunan keçmiş poçt binasında DOST, “ASAN xidmət”, “Azərpoçt” və KOBİA kimi qurumların fəaliyyətə başlaması sakinlərin ehtiyaclarının və yüksək sosial təminatının ödənilməsi məqsədi daşıyır.



Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən Qarabağ küçəsinin abadlaşdırılması ilə bağlı ilkin vəsait ayrılıb. Abadlıq və infrastruktur layihələri binaların inşası prosesi ilə paralel aparılır. Görülən işlərin bir qismi Prezident İlham Əliyevin tapşırığı ilə dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq Qarabağ adını verib. Gövhər Ağa məscidi, “Qarabağ” oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqətdə saxlanılır.

Şuşalı keçmiş məcburi köçkünlərin yaxın gələcəkdə doğma şəhərlərinə qayıdışından sonra Prezident İlham Əliyevin tapşırığı ilə burada əsasən yerli sakinlərin işə götürülməsi nəzərdə tutulur. Bu baxımdan əhalinin məşğulluğunun təmin olunması istiqamətində də fasiləsiz iş aparılır, siyahılar dəqiqləşdirilir. Şuşada fəaliyyət göstərmək məqsədilə qeydiyyatdan keçən şirkətlər tərəfindən yerli sakinlər üçün təşkil olunan üç əmək yarmarkasında 200-dək şuşalı gənc siyahıya alınıb. Hazırda onlar üçün treninqlər təşkil olunur.

Prezident İlham Əliyev tərəfindən bu il mayın 9-da Şuşanın Qarabağ küçəsində ümumi sahəsi 5400 kvadratmetr olacaq 10 yeni yaşayış binasının təməli qoyulub. Dörd mərtəbədən və zirzəmi qatından ibarət tikilidə yerləşəcək mənzillərdən 24-nün ikiotaqlı, 6-nın isə üçotaqlı olması planlaşdırılıb.

Bununla yanaşı, hazırda şəhərdə 23 binadan ibarət yaşayış kompleksində tikinti işləri sürətlə aparılır. Şəhər Dövlət Qoruğu İdarəsinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Səmayə Məmmədova deyir:

– Hazırda kompleksdə ümumilikdə 450 mənzil inşa edilir. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzilin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

## Müasir və milli Otel-Konqres Mərkəzi

Erməni faşizminin bu qədim mədəniyyət paytaxtımızı işğal altında saxladığı illər ərzində Şuşada Azərbaycan Prezidentinin təbirincə desək, “şeytan yuvası” – “parlamentin” binasının tikintisi planlaşdırılırdı. Ancaq düşmənin arzusu gözündə qaldı. Dövlətimizin başçısı qala-şəhərə ilk səfərində – 2021-ci il yanvarın 14-də bu barədə deyib: “Qondarma rejim bəyan etmişdi ki, “Dağlıq Qarabağ respublikası”nın “parlamentini” Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar “Dağlıq Qarabağ Respublikası”nın “parlament” binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi”.



İndi isə həmin yerdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməli qoyulan Şuşa Otel-Konqres Mərkəzi Kompleksi yerləşir. Beşulduzlu kompleks müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn olunub. Binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyi əks etdirir. Kompleksin xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq olunub. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə edilib. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının – XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəylinin ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan (əsasən palıd) hazırlanıb. Binanın fasad örtüyünün üzərində və vestibülün girişinin üzlüyündə təbii Şuşa daşı ilə hazırlanmış relyef işləmələr mövcuddur.

Qeyd edək ki, Şuşa Otel–Konqres Mərkəzi Kompleksinin kitabxanasında 1000-ə qədər kitab saxlanılır. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY, ölkəmizdəki bir sıra səfirliklər (Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkmənistan) və Tatarıstanın daimi nümayəndəliyi bu kitabxanaya ümumilikdə 215-ə qədər kitab hədiyyə edib.

Kompleksin ətrafında mövcud ağaclar qorunmaqla geniş sahə yaşıllaşdırılıb, yeni ağaclar və bəzək gülləri əkilib, həyətində müasir interyerə malik daxili bağ salınıb. Burada qapalı və açıq avtomobil dayanacaqları vardır.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, kompleksin yaxınlığında XVIII əsrin sonlarında Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumu ərəfəsində şəhərin müdafiəsinin təşkili məqsədilə İbrahimxəlil xanın göstərişi əsasında fəaliyyət göstərən silah emalatxanası və hazır silah-sursatın saxlanılması üçün anbar və emalatxananın həyətində qazılmış təsərrüfat quyusu da buraya gələcək qonaqlara nümayiş etdiriləcək.

## Turizm potensialı genişləndirilir

Vətən müharibəsində Azərbaycanın əldə etdiyi böyük zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilən torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün əlavə üfüqlər açıb. Qarabağ və Şərqi Zəngəzurun zəngin iqtisadi potensialı bu ərazilərin bərpası və yenidən qurulması prosesini də sürətləndirib.

İşğaldan azad edilmiş torpaqlarımız tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var.

Hazırda düşməndən təmizlənən ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilən, Laçında təməli qoyulan beynəlxalq hava limanları azad edilən ərazilərimizin turizm potensialının reallaşmasını, turist cəlbini şərtləndirir.

Şuşa şəhəri tarixən Azərbaycanın mədəni, ictimai, siyasi həyatının mühüm mərkəzlərindən biri olub. 1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilib. Həmin qərarın nəticəsində Şuşada tarixi-mədəni irsin qorunması istiqamətində əhəmiyyətli addımlar atılıb. Lakin işğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilib, şəhərin memarlığına və milli-mədəni irsimizə misli görünməmiş ziyan vurulub.

İkinci Qarabağ müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Məhz Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrildi, tariximizə Zəfər Günü kimi həkk olundu. Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanıldı.

Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşa, həmçinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib.

# səni dirçəldirik

Şuşa mədəniyyət paytaxtı olduğu kimi, turizm mərkəzi olmaq imkanına da malikdir. Burada təbiət və mədəniyyətin nadir ahənginə şahid olmaq mümkündür. Şuşa şəhəri həm fəsil, həm də nadir memarlıq üslubu baxımından fasiləsiz turizm potensialına sahibdir və bu potensiala uyğun turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir.

### Məşhur məktəb yenidən həyata qaytarılır

Bu il yüz doxsan üç yaşı tamam olan Şuşa şəhər 1 saylı tam orta məktəbi fəaliyyət göstərdiyi illərdə təlim-təhsilin keyfiyyətinə görə öncüllərdən biri olub və yerli əhalinin intellektual səviyyəsinin, dünyagörüşünün inkişaf etdirilməsində, şəhərin ziyalı səviyyəsinin qorunub saxlanılmasında mühüm rol oynayıb.



Hazırda məktəbin inşası məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, təhsil ocağının tikintisi bu qədim şəhərin təhsil mərkəzinin şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır. İnşaat işləri Prezident İlham Əliyevin Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında sərəncamına əsasən aparılır. Ümumi tikinti sahəsi 4300 kvadratmetrə yaxın olan yeni məktəb binasının inşaat işlərinə 2021-ci ilin oktyabrında başlanılıb. Məktəb 960 şagird yerlikdir. Tikintini həyata keçirən "İdeal" TM QSC-nin iş icraçısı Samir Ələkbərov bildirir ki, məktəb 960 yerlik 5 korpusdan ibarətdir. Əsas və iki yardımçı girişləri olan binada 3 əsas, iki yardımçı korpus yerləşir. Tədris binası əsas 3 korpusdan ibarətdir. Akt və idman zalları, yeməkxana isə əlavə korpuslarda yerləşir.

İş icraçısı bildirir ki, məktəbin həyətində qazanxana sistemi, daxili yeraltı su anbarı, nasosxananın tikintisi həyata keçirilir, həyətində isə sahəsi 510 kvadratmetr olan stadion şagirdlərin ixtiyarına veriləcək. Onun sözlərinə görə, sinif otaqlarının sahələri 50,7 kv. metrlə 52 kv. metr arasında dəyişir. Burada şagirdlərin təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olması üçün hərtərəfli şərait yaradılacaq. Yaradılan şərait isə şuşalıların təhsil prosesinə müsbət təsir göstərəcək.

İş icraçısı Samir Ələkbərov deyir ki, məktəb binası zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarətdir. Hazırda binanın bütün korpuslarında beton və hörgü işləri görülür. Binasının üstü isə metal keramik vərəqlərlə (CPS) örtülüb.

Şuşada tikilən 1 saylı tam orta məktəb binası sentyabrda istifadəyə verildikdən və şəhər sakinləri doğma yurdlarına köçdükdən sonra fəaliyyətə başlayacaq.

### Qarabağ torpağının ruhu hopmuş xalçalar

Ünvanımız Azərbaycan Xalça Muzeyinin Şuşa filialıdır. Filialda bizi Azərbaycan Mili Xalça Muzeyinin fond şöbəsinin elmi işçisi Babakişi İsrəfilov qarşılayır. O deyir:

– Xalqımızın zəngin daxili aləmini, dünyagörüşünü, bədii təxəyyülünü, milli xüsusiyyətlərini və estetik zövqünü əks etdirən xalçaçılıq sənəti mədəniyyət tariximizin inkişafında özanəməxsus yer tutaraq Azərbaycanın simvollarından birinə çevrilib. Məhs buna görə də dünyanın ilk ixtisaslaşmış xalça muzeyi 1967-ci ildə Bakıda yaradılıb. 19 may 1987-ci il tarixindən etibarən isə Şuşa şəhərində XIX əsrin tarixi-memarlıq abidəsi sayılan Mehmadarovların malikəsində Qarabağ bölgəsinin dekorativ-tətbiqi sənət və onun ayrılmaz hissəsi olan xalçaçılıq ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı fəaliyyətə başlayıb. Qarabağ torpaqlarının Ermənistan tərəfindən işğala məruz qaldığı dövrdə filialda qorunub saxlanılan sənət nümunələrinin təhlükədə olduğu nəzərə alınaraq 1992-ci ilin 29 fevral tarixində onların təxliyyəsii təşkil edilib. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatın 183-ü Bakıya gətirilib. Təxliyəsi çətin olduğu üçün 63 eksponatın çıxarılması mümkün olmayıb.



1992-ci ilin mayında Şuşa işğal edilən zamanı filialda, şəhərin tarix-diyarşünaslıq muzeyində və Şuşa əhalisinin evlərindən çıxara bilmədikləri çoxlu sayda xalça və xalça məmulatları, xalqımıza məxsus digər maddi-mədəniyyət nümunələri ermənilər tərəfindən talanıb, xarici ölkələrə, hərraclara daşınıb, bir hissəsini isə İrəvanda saxlanılıb, "erməni xalçaları" kimi qələmə verilməyə çalışılıb.

...Şuşa isə artıq üç ilə yaxındır azaddır. Milli Xalça Muzeyinin Şuşa filialı 31 ildən sonra doğma şəhərə qayıdıb və yeni binada fəaliyyətə başlayıb. XIX əsrin ikinci yarısında tikilmiş bu bina şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə o yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olunub. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək binanın tarixi siması özünə qaytarılıb. Binanın fasadındakı çatlar bərpa olunub və daşla üzlənib. Bərpa başa çatdıqdan sonra, mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Milli Xalça Muzeyinin Şuşa filialının açılışında iştirak ediblər.

... Hazırda Şuşa filialında vaxtilə təxliyə edilmiş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Burada ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.

Babakişi İsrəfilov deyir ki, ermənilərin oğurlayıb xaricə satdıqları Qarabağ xalçalarının bəzilərini ölkəmizə qaytarmaq mümkün olub. Məsələn, 44 günlük Vətən müharibəsi zamanı bir xeyriyyəçi tərəfindən XVIII əsrə aid Qarabağ xalçası Azərbaycana hədiyyə edilib. Bu xalça zənginliyi və müxtəlifliyi ilə seçilən "Əjdahali" nümunəsinə aiddir. Uzun illər erməni kolleksiyaçının əlində olub. Sonra bu xalça italyan kolleksiyaçı tərəfindən alınıb. Müxtəlif kataloqlara daxil edilmiş bu şah əsəri ölkəmizə qaytarılıb. Hazırda Şuşa filialında nümayiş olunur.

Qeyd edək ki, hazırda Milli Xalça Muzeyinin Şuşa filialı ən çox ziyarət edilən mədəniyyət ocaqlarından biridir. Burada sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu, əsrlərlə burada yaşayıb-yaratmış insanların, o cümlədən sənətkarların həyat və məişətini, estetik zövqünü, bədii dünyagörüşünü duymağa, həmin tarixi mühiti təsəvvür etməyə imkan yaradır.

### Mehmandarovların malikanəsi də canlandırılıb

Şuşada yerləşən Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə tikilib. Malikanə kompleksinə böyük yaşayış evi, kiçik yaşayış evi və məscid daxildir. Həmçinin daha sonralar məscidə gedən yolun üstündə bulaq tikilib.

Böyük yaşayış binası sovet dönəmində Şuşa Şəhər Xəstəxanası kimi fəaliyyət göstərib. 19 may 1987-ci il tarixindən isə Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı kimi fəaliyyətə başlayıb.

Müharibə dövründə Mehmandarovların malikanə kompleksinə də ciddi ziyan dəyib, dağıntılar törədilib. Mülkdə olan əksər tikililər yerləyeksan edilib. Mehmandarovların kiçik yaşayış binası isə ermənilər tərəfindən Şuşa Tarix Muzeyi kimi fəaliyyət göstərib. Kompleks ərazisindəki məscid ermənilər tərəfindən mənimsənilmiş və Geologiya Muzeyinə çevrilmişdi.

Şuşa işğaldan azad olunandan sonra onun orijinal memarlıq üslubuna uyğun olaraq bərpa və quruculuq işləri həyata keşirilir. Həyata keçirilən işlər çərçivəsində Mehmandarovların malikanə kompleksi də bərpa edilib. Bərpa işlərinə 2021-ci ilin oktyabr ayından başlanılıb və əvvəlki vəziyyətinə gətirilib. Kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənib, tavanlar bərpa edilib. Malikanə kompleksinin dağılmış divarı bərpa olunub, zədəli divarda bərkitmə işləri aparılıb. Evin döşəmə daşlarının dağılmış yerləri, pilləkəni yenidən qurulub, divar və tavanlardakı rəsmlər eskiz layihələri üzrə bərpa edilib. Məscidin "Güldəstə"si restavrasiya olunub. Yaşayış evinin həyətindəki XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib.

### Tariximizi saxtalaşdırmağa çalışıblar

Şuşanın geniş quruculuq işləri aparılan küçələrindən biri də Qarabağ küçəsidir. Dövlətimizin başçısının tapşırığına əsasən Qarabağ küçəsinin abadlaşdırılması ilə bağlı ilkin vəsait ayrılıb. Abadlıq və infrastruktur işləri binaların inşası prosesi ilə paralel aparılır. Görülən işlərin bir qismi Prezident İlham Əliyevin tapşırığı ilə dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Yuxarı Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqətdə saxlanılır. Biz də bu küçədə yerləşən Yuxarı Gövhər Ağa məscidini ziyarət etdik. Biz məscidin həyətində olanda günorta namazı qılınırdı. Xeyli adam da namaza durmuşdu.

Namazdan sonra bizə verilən məlumata görə, indiki Yuxarı Gövhər Ağa məscidinin yerində hələ Şuşa şəhərinin əsasını qoymuş Pənahəli xanın göstərişi ilə Qarabağ xan sarayı ilə paralel qamışdan inşa edilən məscid olub. Pənahəli xanın tikdirdiyi bu məscid 1768-ci ildə İbrahimxəlil xan tərəfindən daşla yenidən inşa edilib. Onun da ömrü uzun olmayıb və XIX əsrin birinci yarısında Qarabağ xanı İbrahim xanın qızı Gövhər Ağanın (Gövhərnisə bəyimin) vəsaiti hesabına İbrahimxəlil xanın yararsız hala düşmüş məscidinin yerində qoşa minarəli üçüncü məscid, 1883-cü ildə isə həmin məscidin yerində müasir dövrümüzə qədər gəlib çatmış Yuxarı Gövhər Ağa məscidi inşa olunub. Bu məscidin memarı Qarabağda bir çox tikililərin müəllifi olan Kərbəlayi Səfixan Qarabağidir və o müəllifin ən yaxşı əsərlərindən biridir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabağı tərəfindən işlənib.

İşğal dövründə bu məscidə qarşı da erməni vandalizmi özünü göstərib. 1992-ci ilin mayında Şuşanın mənfur qonşularımız tərəfindən işğalı nəticəsində məscid erməni əsgərlərinin ağır artileriya silahlarından açdığı atəş nəticəsində dağıntıya məruz qalıb və interyerləri tamamilə dağıdılıb, fasadına ciddi ziyan vurulub, minarələrinin dekoru zədələnib. İslam dini abidələrinə hörmətsizlik edən ermənilər Yuxarı Gövhər ağa məscidinə məxsus xalça, mebel və digər avadanlıqları qarət edərək şəxsi mənzillərinə daşıyıblar.

Şairə Məşhəti Musa deyir ki ermənilər bununla kifayətlənməyiblər. Şuşa şəhərində etnik təmizləməyə məruz qoyduqları azərbaycanlıların burada yaşadıqlarını inkar edən Ermənistan rəhbərliyi bu məscidi fars məscidi kimi təbliğ etməyə cəhd edib. Onlar İranın nüfuzunu qazanmağa çalışıblar. 2017-ci ildə İranın "Part Saman jahan Co." memarlıq şirkəti tərəfindən təmir-bərpa işləri adı altında məscidin daxili interyerində ciddi dəyişikliklər edərək tariximizi saxtalaşdırmağa çalışıblar. Alınmadı...

Şuşa şəhəri 2020-ci il noyabrın 8-də azad edildikdən sonra Yuxarı Gövhər Ağa məscidində Heydər Əliyev Fondu tərəfindən konservasiya və bərpa işlərinə başlanılıb. Bu işlər Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədi ilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universiteti nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasında araşdırılıb. Məsciddə möhkəmləndirmə işləri görülüb, ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılıb.

Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri aparılıb. Minarələrin boya işləri və qoruyucu qatın tətbiqi yekunlaşıb, məscidin dam örtüyünün qurulması həyata keçirilib.

Bərpa işləri mədrəsə binasını da əhatə edib. Məscidin mədrəsə hissəsində taxta dam konstruksiyanın qurulması işləri tamamlanıb. Mövcud döşəmə örtüyünün sökülməsi və qalıqların təmizlənməsi işləri başa çatdırılaraq dindarların istifadəsinə verilib.

Mədrəsə binasının ərazisində məscid minarəsinin ornamentləri və otaqların rəsmlərini işləmiş Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunan sərgi açılıb.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva azad Şuşaya ilk səfərlərində Yuxarı Gövhər Ağa məscidinə də baş çəkdilər. Dövlət başçısı Məkkədən gətirilmiş "Qurani-Kərim"i məscidə bağışlamışdı.

### "Bir çox kitablar yazmışdır ki, cahanda yadigar qalsın"

Şuşa şəhərində ziyarət etdiyimiz tarixi məkanlardan biri də Mir Möhsün Nəvvabın məzarı və qəbirüstü abidəsi idi. Məzar Cıdır düzündədir və qəbrinin üzərində onun oğlu Mir İbrahim Ağamirzadə tərəfindən bunlar yazılıb: Böyük Nəvvaba, heyiflər olsun! Öz dövrünün arif, kamil şəxsiyyəti olmuşdur. Seyidin nəsli, peyğəmbərin pak övladı bir çox kitablar yazmışdır ki, cahanda yadigar qalsın. Allah ona rəhmət eləsin hər vaxt gecə-gündüz. Nəvvab 1919-cu il rəbiləvvəl ayının 29-da vəfat etmişdir.



Qeyd edək ki, 1960-cı ildə UNESCO-nun xətti ilə Mir Möhsüm Nəvvabın qəbri üzərində qırmızı mərmərdən abidə-barelyef qoyulub. Şuşa şəhəri işğal altında olduğu illərdə onun Cıdır düzündə yerləşən məzarı ermənilər tərəfindən tamamilə dağıdılıb. Şuşa azad olunduqdan sonra Heydər Əliyev Fondu tərəfindən ərazidə aparılan yenidənqurma işləri nəticəsində isə bərpa olunub.

Erməni işğalı zamanı Mir Möhsün Nəvvabın yaşadığı ev də dağıdılıb. Bu ev XIX əsrin memarlıq nümunələrindən biri idi. 1990-cı ildə burada Mir Möhsün Nəvvabın ev muzeyi fəaliyyətə başlayıb. Muzeydə Mir Möhsün Nəvvabın həyat və yaradıcılığından bəhs edən eksponatlar sərgilənirdi. Bunların içərisində sənətkara məxsus çap maşını, teleskop, özünün çəkdiyi rəsm əsərləri və onun çapçılıq fəaliyyətini isbatlayan əşyalar xüsusi yer tuturdu.



Ermənistan Silahlı Qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində muzeyin binası və eksponatları məhv edilmişdir.

### İki büst – eyni şəhərin iki dövrünün təsviri

Şuşanın küçələrini gəzərkən Bülbülün ev muzeyinin olduğu əraziyə gəldik. Muzeyin həyəti təmizliyi və yaşıllığı ilə seçilirdi, bir neçə ziyarətcisi də vardı. Bülbül Memorial Muzeyinin ekskursiyaçısı Mehriban Veyisova bizə muzey haqqında məlumat verdi: – Bülbülün Bakıdakı Bülbül Memorial Muzeyindən Şuşa şəhərindəki ev muzeyinə ezam olunmuşuq. Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyi 1983-cü ildə ulu öndər Heydər Əliyevin göstərişinə əsasən yaradılıb. 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Ermənilər muzeyi tamamilə qarət ediblər. Bütün eksponatları – Bülbülə məxsus frakı, dəyərli əşyaları və pianino oğurlayıblar.

...Müzəffər Azərbaycan ordusunun qalibiyyətindən sonra, 2021-ci il yanvar ayının 14-də Şuşa şəhərinə səfəri zamanı Bülbülün ev-muzeyini ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən muzeydə təmir-bərpa və yenidənqurma işləri aparılıb. Bərpa zamanı bütün yükdaşıyıcı divarların bünövrəsi möhkəmləndirilib, çat olan divar hissələrində yenidənqurma işləri aparılıb. Binanın daxili otaqlarında çürümüş taxta döşəmələr yeniləri ilə əvəz olunub. Dam örtüyü, qapı və pəncərələri çürüdüyündən və istismara yararsız halda olduğundan, binanın tarixi görkəmini qorumaq şərti ilə yenisi ilə əvəz edilib.

Bülbülün ev-muzeyinə məxsus həyətyanı sahə də ilkin görkəmi saxlanılmaqla bərpa olunub.

...Muzeyin ekspozisiyası dövrün etnoqrafik xüsusiyyətlərini əks etdirməklə qorunub saxlanıb. Yəni, biz ekspozisiyada müasirliklə qədimliyi göstərməyə çalışmışıq. Eksponatları isə əsasən Bülbülün Bakıdakı Memorial Muzeyindən gətirilən eksponatlar hesabına bərpa olunub. Gördüyünüz binanın üzərində ərəb dilində müxtəlif yazılar var. Məsələn, onlardan birisi bu mənzilin Kərbəlayi Yusif tərəfindən inşa olunduğu göstərir. Digər tərəfdə isə Qurani-Kərimin "Qələm" surəsinin 51-52-ci ayələri və Günəş simvolu həkk olunub. Bunlar bərpa zamanı aşkar olunub.

Mehriban Veyisova həyətdəki tut ağacı barədə də maraqlı məlumat verdi: – Gördüyünüz tut ağacıdır. Bülbül bu tut ağacının budaqlarına şıxıb bülbül quşunu ustalıqla təqlid edirmiş. Məhs ona görə də, ona Bülbül adı verilmişdi. Qeyd edim ki, Bülbül onun təxəllüsü deyil, adıdır. Çünki bütün rəsmi sənədlərdə onun adı Bülbül kimi qeyd olunub. Əsl adı isə Murtuza, soy adı Məmmədovdur. Bu evdə onun uşaqlıq illəri keçib.

Ev muzeyinin həyətində Bülbülün həm yeni, həm də ermənilər tərəfindən güllə ilə deşik-deşik edilmiş büstləri qoyulub. Sonuncu büst vaxtilə dəmir tullantısı kimi Gürtcüstana satılmışdı. Sonralar bu büst Azərbaycan hakimiyyəti tərəfindən alınıb, Ramiz Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa şəhəri işğaldan azad edildikdən sonra isə o ev muzeyinin həyətinə qoyulub. Bu gün hər iki büst Bülbülün ev muzeyinin həyətində yan-yana durur və eynən Şuşanın taleyini əks etdirirlər. Eyni zamanda həm müharibə dövrünün Şuşasını, həm də qalib Şuşanı görə bilirik. Əlbəttə, zamanla Şuşa tamamilə dəyişib yeni, abad bir məkana çevriləcək. Amma sözügedən büstlər hər zaman bu iki dövrü bir araya gətirəcək və ziyarətçilərə bu haqda məlumat verməsə belə, onlara hər şey aydın olacaq. Eyni şəxsin iki büstü – əslində eyni şəhərin iki dövrünün təsviridir – dağıntı və quruculuğun göstəricisidir.

***

Cəlbedici auraısı, sehrli havası olan Şuşaya qədəm qoyan andan onun daşı-torpağı adama doğmaları tək əziz, mehriban görünür. Cıdır düzünə üz sürtəndə, Xan qızının çeşməsində su içəndə, məscidləri ziyarət etəndə adam özündə bir yüngüllük, rahatlıq tapır.

Bu gün bu şəhərin yaralarına Şuşa istəyi, Şuşa sevgisi ilə məlhəm qoyulur. Ermənistanın 30 ilə yaxın bir zaman ərzində viranəyə çevirdiyi, əzəmət və gözəlliyini zədələdiyi bu məkana yenidən təmizlik və paklıq gətirilir.

...Şuşadan-erməni faşizminin qurbanına çevrilən tarixi, mədəni abidələrinə indi yenidən "nəfəs" verilən, tikilən, qurulan bir şəhərdən, müqəddəs ocaqların, mədəniyyət və incəsənətimizin böyük simalarının Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün ev-muzeylərinin, görkəmli şair Molla Pənah Vaqifin məqbərəsinin ziyarətindən ürək rahatlığı, könül xoşluğu ilə, bundan sonra hələ nə qədər sevinc dolu günlərinə qovuşacağımız ümidi ilə geriyə – Bakıya dönürük.

*Vaqif BAYRAMOV,*
*Pünhan ƏFƏNDİYEV,*
*Elşən AĞALAR (foto-müxbir),*
*"Xalq qəzeti"*

# Bakıda bədii gimnastika üzrə Avropa çempionatı uğurla keçirildi

## *Azərbaycanın "qızıl" gimnastları beşinci oldular*

**Federasiyanın Bakıda keçirilən bədii gimnastika üzrə 39-cu Avropa çempionatı ilə bağlı Avropa gimnastikasının "Twitter" hesabındakı paylaşımında yer alan bu fikirlə ölkəmizin Gimnastika Federasiyasının ailəsində önəmli yeri bir daha vurğulandı. Vətənimizin növbəti dəfə bədii gimnastika üzrə mötəbər yarışa böyük uğurla evsahibliyi etməsi, əzəmətli Milli Gimnastika Arenasında iştirakçı komandaların öz potensiallarından maksimum istifadə etmələri üçün yaradılan hərtərəfli şərait bir daha təqdir edildi.**



Təbii ki, bütün bunlar təsadüfi deyil. Dünyanın idman mərkəzlərindən hesab olunan Azərbaycan müxtəlif növlər üzrə Avropa, dünya çempionatları, dünya kuboku yarışları və bir sıra multi idman oyunlarına yüksək səviyyəli təşkilatçılığı ilə fərqlənir. Elə bu ayın sonunda Bakıda daha bir mötəbər idman yarışı – taekvondo üzrə dünya çempionatı start götürəcək. Paytaxtımızda, eləcə də, regionlarımızda ilin sonunadək dünya, Avropa çempionatları, digər nüfuzlu beynəlxalq yarışların təşkili planlaşdırılıb. Dünyanın ən nüfuzlu təşkilatları öz tədbirlərinin, yarışların Azərbaycanda keçirilməsinə can atırlar. Mükəmməl infrastruktura, bütün sahələrdə dinamik inkişafa malik olan Azərbaycanda baş tutan istənilən irimiqyaslı tədbirin təşkilatçılığı digər ölkələrə nümunə göstərilir.




Bu yaxınlarda 2027-ci ildə bədii gimnastika üzrə dünya çempionatının da Azərbaycanda keçiriləcəyi ilə bağlı qərar verilib. Deməli bədii gimnastika üzrə vətənimiz 3-cü dəfə dünya çempionatına evsahibliyini gerçəkləşdirəcək.

Şübhəsiz, Azərbaycanda gimnastikanın yüksək səviyyədə inkişafı da bu cür mötəbər yarışları təşkil etmək üçün əsaslı zəmin yaradır. Ölkəmizdə gimnastikanın inkişafına və böyük uğurlara Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti Mehriban Əliyevanın siyasəti sayəsində nail olunub. Hazırda istər böyüklər arasında, istərsə də müxtəlif yaş qruplarında istedadlı gimnastlarımızın əldə etdikləri nailiyyətlər sevindiricidir. Bu gün Azərbaycanda olan Milli Gimnastika Arenası kimi gözəl məkan dünyanın heç bir yerində yoxdur. Bu arenada istənilən vaxt hər bir yarışı yüksək səviyyədə keçirmək olar. Paytaxt və bölgələrdə gimnastlarımızın hərtərəfli yetişmələri üçün inşa edilmiş və ən müasir standartlara cavab verən idman infrastrukturu, bu sahədə yüksək potensiala malik mütəxəssislərin yetişməsi ölkəmizi beynəlxalq arenalarda layiqincə təmsil edəcək gimnastların ərsəyə gəlməsinə səbəb olur.

"Ulduz kimi parla" şüarı ilə keçirilən budəfəki Avropa çempionatında komandamızın əzmkar mübarizəsi ilə göz qamaşdırması, əsl ulduz kimi parlaması dediklərimizin sübutudur. Yarışın sonuncu günündə Azərbaycanın üç lent və iki topla qrup hərəkətləri komandasının (Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokina) möhtəşəm çıxışı hakimlər tərəfindən ən yüksək - 32,250 xalla qiymətləndirilərək qızıl medala layiq görüldü. Bu, ölkəmizin gimnastika tarixində qrup komandamızın ilk çempionluğu idi. Komandamızın üzvləri çoxnövçülük proqramında isə bürünc medala layiq görüldülər.

Qitə çempionatında Zöhrə Ağamirova top ilə final çıxışı üçün hakimlərdən 32,850 xal alaraq bürünc medala sahib oldu. Tokio Yay Olimpiya Oyunlarının iştirakçısı, Yay Universiadasının ikiqat gümüş mükafatçısı, IV İslam Həmrəyliyi Oyunlarının qalibi Z.Ağamirova Bakı gimnastika məktəbinin yetirməsi olaraq Avropa çempionatında medal qazanan ilk azərbaycanlı gimnastdır.

Çıxışından sonra fikirlərini jurnalistlərlə bölüşən idmançımız Avropa çempionatında medal qazanmağın ən böyük arzusu olduğunu bildirib. O qeyd edib ki, qazandığı uğurlarda məşqçilərin böyük payı var. Gözəl dəstəyə görə tribunadakı tamaşaçılara təşəkkür edən gimnast bu dəstəyin ona əlavə güc verdiyini vurğulayıb.

İlk dəfə gənc bədii gimnastlardan ibarət qrup komandamızın çoxnövçülükdə və beş topla yarışlarda bürünc medala yiyələnməsi də xüsusi vurğulanmalıdır. Avropa çempionatı çərçivəsində "Audience Award" mükafatı da məhz qrup hərəkətləri üzrə Azərbaycanın gənclərdən ibarət komandasına verilib. Komandaya Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərova daxildir. Mükafatın qalibi tamaşaçılar arasında keçirilən səsvermə nəticəsində müəyyənləşib.

Beləliklə, bir qızıl və dörd bürünc medal qazanan Azərbaycan Almaniya, İspaniya, Sloveniya və digər ölkələri qabaqlayaraq ümumi hesabda beşinci olub.

Bolqarıstan 5 qızıl, 5 gümüş və 3 bürünc medalla ümumi sıralamanın qalibi olub, sonrakı pillələri İsrail (2-5-1) və İtaliya (2-1-2) komandaları tutublar.

Bununla da, Bakının ev sahibliyi etdiyi bədii gimnastika üzrə 39-cu Avropa çempionatı böyük uğurla başa çatıb. Çempionatın bağlanış mərasimində əvvəlcə iştirakçı ölkələrin paradı olub.

Sonra Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov Avropa Gimnastikasının bayrağını qitə qurumunun vitse-prezidenti Edvard Kolara təqdim edib. Avropa Gimnastikasının rəsmisi isə bayrağı 2024-cü ildə qitə çempionatına evsahibliyi edəcək Macarıstan nümayəndəsinə verib.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# YAP Gəncə Şəhər Təşkilatına yeni sədr seçilib





**Dünən Yeni Azərbaycan Partiyası Gəncə Şəhər Təşkilatının yeni sədri Bayram Aslanov şəhər ictimaiyyətinə təqdim olunub.**

Bununla bağlı keçirilən toplantıda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, ümummilli lider Heydər Əliyevin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi, xalqın daim dəstəklədiyi Yeni Azərbaycan Partiyası qüdrətli dövlət naminə üzərinə düşən missiyanı - "Biz birlikdə güclüyük!" çağırışını şərəflə yerinə yetirir.

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev YAP Gəncə Təşkilatının sədri Bayram Aslanovu şəhər ictimaiyyətinə təqdim edib, onun fəaliyyəti haqqında ətraflı məlumat verib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov ona göstərilən böyük etimada görə Partiyanın sədri, cənab İlham Əliyevə, YAP sədrinin I müavini Mehriban xanım Əliyevaya, YAP Mərkəzi Aparatının rəhbərinə təşəkkürünü bildirib, çətin və məsuliyyətli vəzifəni şərəflə yerinə yetirəcəyinə söz verib.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Milli Məclisin üzvü Müşfiq Cəfərov, AMEA Gəncə bölməsinin akademik katibi, akademik Fuad Əliyev, Gəncə Şəhər Ağsaqqallar Şurasının sədri Nurəddin Məmmədov bildiriblər ki, 30 il ərzində zamanın sınaqlarından uğurla çıxan Yeni Azərbaycan Partiyası ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək ikinci siyasi qüvvənin mövcud olmadığını fəaliyyəti ilə təsdiq edib. Natiqlər təşkilatın şəhər sədrinə məsuliyyətli və şərəfli işində uğurlar arzulayıblar.

***H.QASIMOV, "Xalq qəzeti"***

*Replika*

**Gəncədəki qədər futbola vurğun ikinci bir azarkeş ordusu tanımıram. Bu qədim şəhərdə adamlar, sanki, futbolla nəfəs alırlar. Vaxt var idi digər şəhər və rayonların stadionlarındakı oyuna 300 adam ancaq toplaşa bilirdisə, həmin günlərdə "Kəpəz"in oyununa 30 min azarkeş gəlirdi. İndinin özündə komanda, hətta son pillələrdə getməsinə baxmayaraq, stadiona kifayət qədər azarkeş yığışırdı. Ona görə "yığışırdı" yazıram ki, xeyli müddətdir "Kəpəz" ev oyunlarını yenə də doğma meydanda deyil, Gəncədən xeyli uzaqda, Qəbələ şəhər stadionunda keçirmək məcburiyyətində qalıb. Səbəb isə stadionun ot örtüyünün bərbad vəziyyətdə olmasıdır. AFFA oyunların həmin stadionda keçirilməsinə qadağa qoyub.**

# Gəncədə futboldan çox, qalmaqaldan söhbət gedir...

Nəticədə onsuz da sponsoru, avtobusu, istirahət bazası olmayan (uzun müddətdir burada əsaslı təmir işləri gedir) maliyyə durumu pisləşən, bəzən maaşlarını belə vaxtlı-vaxtında almayan klub çox ciddi problemlərlə qarşılaşıb. Amma ruhdan düşməyib, oyunçuların mübarizə əzmi bir qədər də artıb, istənilən güclü komanda ilə bərabər səviyyədə, bəzən ondan da üstün oynamağı bacarıb.

Elə isə nə baş verib ki, bu gün "Kəpəz" komandası haqqında ən müxtəlif söz-söhbətlər yayılır, klub daxilində yaranmış qalmaqal, dedi-qodu səngimək bilmir?

Hələ təxminən üç ay qabaq, dəqiq desək, "Xalq qəzeti"nin 1 mart 2023-cü il tarixli nömrəsində "Futbol dedi-qodu sevmir" sərlövhəli bir yazı dərc etmişdik. Məqalə bu cümlələrlə tamamlanırdı: "Amma bütün hallarda "Kəpəz"in adını yüksək yerlərdə görmək istəyiriksə, umu-küsü bir kənara qoyulmalıdır, hamı bir yumruq kimi birləşməlidir. Bəzi hallarda fərdi xüsusiyyətlər, hətta mentalitet, yerli şərait də nəzərə alınmalıdır. Klubun rəhbərliyi də, baş məşqçisi də elə etməlidirlər ki, hamı onların ətrafında birləşsin, kənar söz-söhbətə yer qalmasın. Futbol dedi-qodu sevmir."

Bəs indi hanı o birlik, səmimiyyət, mentalitet?! Hansı saytı açırsan, yenə "Kəpəz"dəki bu vəziyyətdən yazır. Futbol sanki unudulub. Hətta komanda yüksək liqada öz yerini qoruyub saxlasa da bu barədə danışan, klubun rəhbərliyini, baş məşqçisini, çoxminli azarkeş ordusunu təbrik etmək barədə fikirləşən yoxdur. Ən müxtəlif söz-söhbətlər yayılır. Biri deyir klubun idarə heyətinin sədri İlqar Nadiri baş məşqçi Tərlan Əhmədovla müqaviləni uzatmayacaq. Digəri yazır ki, keçmişdə xidməti olan bir neçə veteran futbolçu elə Tərlan Əhmədov komandanın sükanı arxasına keçəndən bəri onu istəmir, müxtəlif vasitələrlə, necə deyərlər, "ayağından çəkir". Hətta azarkeşlər arasında iki, bəlkə də üç-dörd cəbhə yaranıb. Veteranların tərəfdarları, Tərlan Əhmədovu çox istəyənlər, İlqar Nadirini tərifləyənlər, yaxud pisləyənlər...

Doğrusu, vəziyyətin belə gərgin həddə çatacağını gözləmirdik. Futbol fanatları arasında bir-birini ittiham edənlər kifayət qədərdir. Hətta bəzən əlbəyaxa həddinə çatanlar da olur. Biz də bəzi məsələlərə aydınlıq gətirmək üçün sosial şəbəkədə bir sorğu apardıq. Yazdıq ki, vəziyyətin bu hala düşməsində, görünür, klubun rəhbərliyinin də günahı az deyil. "Ola bilsin İlqar Nadiri yaxşı insandır, elə də söyləyirlər, sözüm yoxdur. Amma bu gün "Kəpəz"də yaşanan qalmaqalların kənardan sadəcə müşahidəçisi təsiri bağışlayır."

Sosial şəbəkədə yazdıqlarımız ətrafında ən müxtəlif fikirlər oldu, bizimlə razılaşanlar da, bizi ittiham edənlər də, razılaşıb tərifləyənlər də, təxribata çəkmək istəyənlər də, böhtan yağdıranlar da.

Bir faktı daha qabarıq nəzərə çatdırmaq istəyirəm ki, keçən ilin sentyabrında Tərlan Əhmədovla bir illik müqavilə bağlananda "Kəpəz"in bir xalı belə yox idi. Halbuki artıq 6-7 tur arxada qalmışdı. Baş məşqçi tezliklə komandanı bu vəziyyətdən çıxara bildi, meydanda istənilən güclü rəqiblə sonadək mübarizə aparmağı bacaran bir komanda yaratdı və "Kəpəz" çox keçmədi ki, xal ehtiyatlarını artıraraq, sonuncu pilləni tərk etdi, yüksək liqada yerini qoruyub saxladı. Hələ fevralın son günlərində biz Tərlan Əhmədovla söhbət edərkən demişdi ki, "mən sözümün üstündə duran adamam". Halbuki yuxarıda qeyd etdiyimiz çətinliklər mövcud idi, bir tərəfdən tərəfdən də şəhər stadionunun ot örtüyü məsələsi ortaya çıxdı və komanda doğma azarkeşlər önündə çıxış etməkdən yenidən məhrum oldu. Yəni, bütün bunların müqabilində, hakimlərin də bir çox hallarda açıq-aşkar ədalətsizliyinə baxmayaraq, komanda öz oyunu ilə çoxminli futbol azarkeşlərinin rəğbətini qazandı.

...O yerdə ki, laqeydlik var, hansı sahə olursa-olsun, iş getməyəcək. Cəzasızlıq hökm sürürsə, vəziyyət daha pis şəkil alacaq. Baxın, komanda ot örtüyünün yarıtmaz vəziyyətdə olduğuna görə azakeşsiz qaldı. Kiməsə güldən ağır bir söz deyildi? Qətiyyən! Amma bütün şəhər danışırdı ki, ot örtüyünü biləərəkdən yandırıblar. Ona görə ki, Tərlan Əhmədov qarşısına qoyduğu vəzifəni yerinə yetirə bilməsin, çıxıb getsin, yerinə Gəncədən olan mütəxəssis gəlsin. Təbii ki, biz şayiələrə inanıb fikir söyləmək niyyətindən uzağıq. Amma vacib bir məsələnin üstündən sükutla keçmək, stadionu bu vəziyyətə salana və ya salanlara güldən ağır söz deməmək, günahkarları üzə çıxarmamaq şəhərdə böyük narazılığa və müxtəlif söz-söhbətlərin yaranmasına rəvac verdi.Yaxud hər hansı bir hakim təkrar "VAR"da da baxıb görürsə ki, "Kəpəz"in vurduğu top qapıdan keçib və onu hesaba almırsa, deməli, bu sahədə anarxiyadır. Kim nə istəyir onu edir, öz bildiyi qərarı verir, 3-4 gün sonra da başqa bir oyuna hakimlik edir. Çünki onu sorğu-suala çəkən yoxdur.

Sual olunur: Bütün bunlarla kim mübarizə aparmalıdır, kim öz səsini ucaltmalıdır? Əlbəttə, ilk növbədə komandanın rəhbərliyi, Gənclər və İdman Nazirliyi, AFFA. Əslində, klubun idarə heyətinin sədri İlqar Nadiri gənc olmasına baxmayaraq, müəyyən müsbət işləri ilə diqqəti cəlb edib. Tərlan Əhmədov da dəfələrlə, o cümlədən bizimlə söhbətində bəyan edib ki, sədr indiyədək hansı məsələ ilə əlaqədar müraciət etmişiksə, köməyini əsirgəməyib.



Şəhər rəhbərliyi də Gəncədə futbola laqeyd deyil. Niyazi Bayramov oyunlar Gəncədə keçirilərkən tez-tez stadiona gəlir, komandanın oyununu izləyir, üzvləri ilə görüşür, problemləri ilə maraqlanırdı. Hətta mart ayının əvvəllərində şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə "Kəpəz"ə dəstək" adlı bir tədbir də keçirilmişdi. Gəncədən seçilən Milli Məclis deputatlarının da iştirak etdiyi həmin aksiyada qeyd olunmuşdu ki, "Kəpəz"in çətinliklərinin aradan qaldırılmasına yönələn belə bir tədbir şəhərdə ilk dəfədir təşkil olunur. Bütün bunlar onu göstərir ki, doğma komandanın uğurlarına hamı sevinir.

Elə isə şəhərdə bu ikitirəlik, futboldan daha çox qalmaqallardan söhbət açılması nədən və haradan qaynaqlanır? Bunun cavabına əvvəlki yazıda az da olsa toxunmuşduq. Klub daxilində baş verənlərlə bağlı hər yoldan ötən sayta geninə-boluna müsahibələr verməmək, söz-söhbətlərə əhəmiyyət yetirməmək, xırdaçılığa getməmək, başqalarının təhriki ilə iş görməmək lazımdır.

Bu günlərdə klubun rəhbərliyi həm baş məşqçi, həm də digər işçilər və futbolçularla yenidən müqavilə bağlamalıdır. Təbii ki, kimin xidməti var, onunla müqavilənin müddəti uzadılacaqdır. Amma indinin özündə də söz-söhbət səngimir, mübahisələr artır, narazılıqlar çoxalır, hərə öz prinsipini ortaya qoymaq istəyir.

"Kəpəz" ölkə çempionatında yeganə klubdur ki, xoşagəlməz sorağı, necə deyərlər, sərhədləri aşır. Klubun tarixində heç vaxt bu cür hallar olmayıb. Azarkeşin öz yeri, klub rəhbərlərinin də öz yeri olmalıdır. Bu vəziyyətlə uzağa getmək mümkün deyil. Burada udan yoxdur, uduzan var, daha çox isə Azərbaycan futbolu uduzur. Gərək bunu unutmayaq.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Gəncə**

# Yarımçıq qalmış sual-cavab

## *Mehdi Məmmədov xatirələrdə*

**Mayın 22-si görkəmli rejissor, teatrşünas, professor, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Mehdi Əsədulla oğlu Məmmədovun anadan olmasının 105-ci ildönümü tamam oldu. M.Məmmədov 22 may 1918-ci ildə Şuşada doğulub. Bakı Teatr Məktəbini bitirib, sonra Moskvada ali rejissor təhsili alıb. Gəncə Dram, Akademik Opera və Balet, Akademik Milli Dram, Rus Dram teatrlarında baş rejissor işləyib. Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri olub.**





Mehdi Məmmədov 1940-ci ildə Gəncə teatrında M.Təhmasibin "Bahar" dramını diplom işi kimi tamaşaya hazırlayıb. Təyinatla Gəncəyə göndərilən gənc rejissor 1945-ci ilin yay mövsümünün sonunadək burada işləyərək sentyabrda Bakıya gəlib. Teatrlarda bir sıra rolları ifa edib. "Onu bağışlamaq olarmı?" filmində Qaya roluna çəkilib. Quruluş verdiyi pyeslər də saysız-hesabsız olub. Milli Dram Teatrında ilk işi V.Şekspirin "On ikinci gecə" komediyasının tamaşası olub. Müəyyən fasilələrlə bu sənət ocağında C.Cabbarlının "Yaşar", A.Fadeyevin "Gənc qvardiya", S.Rəhmanın "Aydınlıq", "Əliqulu evlənir", L.de Veqanın "Rəqs müəllimi", Ə.Haqverdiyevin "Dağılan tifaq", M.Təhmasibin "Çiçəklənən arzular", N.Qoqolun "Müfəttiş", K.Haldoninin "Mehmanxana sahibəsi", Y.Yanovskinin "Prokuror qızı", N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", İ.Qasımovla H.Seyidbəylinin "Uzaq sahillərdə", V.Rozovun "Şadlıq sorağında", M.Hüseynin "Alov", M.İbrahimovun "Kəndçi qızı", L.Tolstoyun "Canlı meyit", H.Cavidin "Xəyyam" və "İblis", S.Vurğunun "İnsan", M.Qorkinin "Meşşanlar", C.Məmmədquluzadənin "Dəli yığıncağı" əsərlərinə müxtəlif janrlarda səhnə həyatı verib.

Opera və Balet Teatrında F.Əmirovun "Sevil" (iki dəfə), L.Delibin "Lakme", C.Cahangirovun "Azad", Ü.Hacıbəylinin "Leyli və Məcnun" (iki dəfə), "Koroğlu", C.Puççininin "Toska" operalarına quruluş verməklə, bu teatrda fəlsəfi-monumental teatrın imkanlarına genişlik açıb. Rus Dram Teatrında M.Qorkinin "Həyatın dibində" və M.Şatrovun "Mənim Nadejdalarım" dramlarının quruluşçu rejissoru olub.

1985-ci ildə dünyasını dəyişib. Bakıdakı Fəxri xiyabanda uyuyur...

Unudulmaz sənətkarla bağlı ürəklərdə, memuarlarda çoxlu xatirələr qalır. **Teatrşünas-tənqidçi, Əməkdar incəsənət xadimi İlham Rəhimlinin** bəzi qeydlərini təqdim edirik:

– Günlərin birində Azərbaycan Dövlət İncəsənət İnstitutunda Mehdi Məmmədovla görüşdük. Mən müxbirəyən çıxdım və Mehdi müəllimin müdir olduğu kafedranın qabağından keçəndə gördüm ki, dərs jurnalını doldurur. İçəri keçib salamlaşdım. İkilikdə təxminən 20-25 dəqiqə söhbətimiz oldu.

Belə qərara gəlmişdim ki, ona 1001 sual verim. O, sualları cavablandırandan sonra kitabça şəklində çap edim. Adını da belə qoyum: "1001 suala 1000 cavab". O vaxtkı qeydlərimə baxdım. Qısa qeydlər 1972-ci ilin oktyabr ayından, nisbətən iri həcmli qeydlər 1974-cü ilin iyun ayından başlayır. Mən institutu 1972-ci ilin iyun ayında bitirib "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində ədəbi işçilik fəaliyyətinə başlamışam. 1972-ci ilin mayından 1973-cü ilin mayına kimi hərbi xidmətdə olmuşam və qayıdıb yenə redaksiyada çalışmışam.

Onu da deyim ki, Mehdi Məmmədovla bir sıra görüşlərimiz məhz redaksiyanın tapşırığı ilə olub. Xüsusən 1972-1980-ci illərdə. Təbii ki, müxtəlif məkanlarda, çünki görüş yerini möhtərəm sənətkarımız müəyyənləşdirirdi. Nə yaxşı ki, mən qəzetimizin adi əməkdaşı kimi şöbə müdirim, xeyirxah insan Əfqan Əsgərovdan bu tapşırıqları almışam. Həm də nə yaxşı ki, Mehdi müəllim gəlişimin niyyətindən başqa da sualları cavablandırmağa imtina etməyib.

1984-cü ildə 27 mart – Beynəlxalq Teatr Günü münasibətilə Mehdi Məmmədovdan qəzet üçün müsahibə alırdım. Redaksiyanın tapşırığını yerinə yetirəndən sonra öz suallarımı verdim... Sonralar bir neçə dəfə də söhbətləşdik. Ancaq çox-çox təəssüflər olsun ki, sualı 1001-ə çatdıra bilmədim...

1985-ci il yanvar ayının 28-də Mehdi Məmmədov saat on radələrində iş yerimə zəng vurdu.

– Günorta sizin idarənin birinci mərtəbəsindəki bərbərxanaya gələcəm. Saçımı vurdurub sənə zəng edəcəm. Düşərsən aşağı, 26-lar barədə bir az gəzib sənin o sualların barədə söhbət edərik.

– Oldu, Mehdi müəllim. Otaqdayam, nə vaxt zəng vursanız düşərəm aşağı. Fasiləyə də çıxmayacam.

İşlədiyim "Kommunist" (indiki "Xalq qəzeti") qəzetinin redaksiyası 6 mərtəbəli binanın 3-cü və 5-ci mərtəbələrində yerləşirdi. Mənim müdiri olduğum mədəniyyət, ədəbiyyat və incəsənət, publisistika və felyeton şöbəsi 5-ci mərtəbədə idi. Mehdi müəllimlə telefon danışığımızdan xeyli müddət sonra 3-cü mərtəbədə oturan, redaksiyanın məsul katibi, Mehdi müəllimin dostu Alp Ağamirov mənə zəng vurdu. Salamsız-kalamsız sərt səslə "İlham, tez düş aşağı", – dedi.

Soruşdum:

– Alp müəllim, Mehdi müəllim zəng vurmalıdır, onu gözləyirəm. Olarmı sonra düşüm?

Öskürdü. "Bilirsən..." deyib, susdu. Hiss etdim ki, qəhərləndi. Susdum. Özü dilləndi:

– Mehdi müəllim yoxdu...

Hövlnak aşağı düşdüm və birlikdə bərbərxanaya getdik. Mehdi müəllimin meyiti ortada idi, üstünə mələfə örtmüşdülər. Bərbərxanadan milisə zəng vurmuşdular ki, gəlib sənədləşmə aparsınlar.

Meyitin yanında Mehdi Məmmədovun qardaşı oğlu Əsəd Məmmədov, aktyorlar Eldəniz Zeynalov və Mikayıl Mirzə vardı. Hardan belə tez xəbər tutduqlarını bilmirəm. Onlarla səssizcə görüşdük. Mehdi müəllimin ustasını tanıyırdım. Yaxınlaşıb ondan soruşdum ki, hadisə necə oldu?

O, bunları danışdı. "İçəri keçdi. Şərfi paltonun üstündən boynuna dolamışdı. Sağa-sola baxıb astaca salamlaşdı. Həmişəki kimi üzümə baxdı. Yavaşca "Vəziyyət necədir?", - dedi. Gözləyən, uzağı beş dəqiqəyə qurtararam. Bir neçə saniyə üzümə baxdı. Qoltuğundakı qovluğu qoydu mizin üstünə. Palto-papağını çıxarıb asdı. Qayıtdı mizə tərəf. Dərindən elə nəfəs aldı ki, o biri ustalar da əl saxladılar. Heç kəsə məhəl qoymadan əyləşdi. Biz hər gün təzə qəzetlər alıb mizin üstünə qoyuruq. Qəzetdən birini götürdü. İki, ya üç dəqiqə keçmişdi. Bərk taqqıltı gəldi. Qanrılıb baxdım. Mehdi müəllim necə ayağa qalxmışdısa, oturduğu stul yıxılmışdı. Beləcə dimdik durdu, durdu... və birdən əlini ürəyinə aparıb yıxıldı. Tez əyilib nəbzini yoxladıq... gec idi... keçmişdi..."

Bu faciəli hadisəyə görə də mənim istəyim baş tutmadı. Amma 2017-ci ilin əvvəllərində "Şərq-Qərb" nəşriyyatından nəhəng sənətkar Mehdi Məmmədov barədə kitab yazmaq sifarişi aldım. Fikirləşdim ki, indiki zamanda dünyasını dəyişmiş görkəmli sənətkar barədə kitab yazmaq sifarişi verirlərsə, razılaşmaq lazımdır. Nəhayət, üstündən 32 il keçəndən sonra söhbətlərimizi də müəyyən sistemə salıb bu kitabda vermək qərarına gəldim...

***Hazırladı:***
***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

**Elçin – 80**

# Yubilyar ədibin yaradıcılığına elmi baxış

**Dünən AMEA Ədəbiyyat İnstitutunda Azərbaycan Milli Kitabxanası ilə birgə Xalq yazıçısı, görkəmli ictimai-siyasi xadim, professor Elçin Əfəndiyevin 80 illik yubileyi münasibətilə "İki əsrin görkəmli sənətkarı" mövzusunda elmi sessiya keçirilib.**

AMEA Humanitar və ictimai elmlər bölməsi qururumlarının rəhbərləri, əməkdaşları, yazıçının tədqiqatçıları əvvəlcə Milli Kitabxananın Elçinin yaradıcılığı barədə təşkil etdiyi sərgi ilə tanış olublar.

Elmi məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Elçin Əfəndiyevin zəngin və çoxcəhətli yaradıcılığı ilə dünya şöhrətli sənətkar zirvəsinə yüksəldiyini vurğulayıb. O, Elçinin çağdaş Azərbaycan ədəbi-ictimai fikir tarixində hərtərəfli şəxsiyyət – istedadlı yazıçı, məhsuldar dramaturq, dəyərli ədəbiyyatşünas, həm də



fəal ictimai xadim kimi tanındığını bildirib.

AMEA rəhbəri Elçinin əsərlərinin həyatın ziddiyyətlərini, milli idealları, Azərbaycan gerçəkliyinin özünəməxsusluqlarını təbii, dolğun və yüksək sənətkarlıqla əks etdirdiyini söyləyib. O, görkəmli yazıçının yaradıcılığında Abşeron hekayələrinin xüsusi yeri olduğunu qeyd edərək, "Baladadaşın ilk məhəbbəti" əsərinin Azərbaycan hekayə janrının seçilən nümunələrindən biri olduğunu deyib. İsa Həbibbəyli Xalq yazıçısı Elçinin ədəbiyyata xidmət etməkdən heç zaman yorulmadığını, bu gün də yeni ədəbi nümunələri və samballı elmi-nəzəri mülahizələri ilə ədəbiyyatımızı və sahə elmini zənginləşdirdiyini bildirərək ədibə yeni yaradıcılıq uğurları arzu edib.

Sonra Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, AMEA Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev Elçin yaradıcılığının özəlliklərindən söz açıblar.

Elmi sessiyada AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Elçinin hekayə poetikası", filologiya elmləri doktoru Sara Osmanlının "Yazıçı tənqidinin özəllikləri", professor Nizami Tağısoyun "Elçinin "Baş" romanının kompozisiya-struktur polifonizmi", dosent Nərminə Ağayevanın "Zamanın Elçin teatrı və Elçin teatrının zamanı" və fəlsəfə doktoru Gülnar Osmanovanın "Elçin nəsri mif və folklor kontekstində" mövzusunda məruzələri dinlənilib.

Sonda çıxış edən Xalq yazıçısı Elçin yaradıcılığına həsr edilmiş elmi məclisin təşkilinə və keçirilməsinə görə məmnunluğunu bildirib, təşəkkürünü ifadə edib. O, gənclik illərinin Ədəbiyyat İnstitutu ilə bağlı olduğunu xatırlayaraq, bu elmi müəssisənin Azərbaycan ədəbiyyatşünaslığının inkişafında, onun nəzəri bazasının genişlənməsində böyük xidmətləri olduğunu qeyd edib.

**Qabil YUSİFOĞLU, "Xalq qəzeti"**

# Elm xəbərləri

**Elm və Təhsil Nazirliyinin akademik H.Əliyev adına Coğrafiya İnstitutu və İtaliyanın Milli Tədqiqat Şurasının (MTŞ) "Roma və Bakı metropol regionlarında landşaft örtüyü dəyişikliklərinin məsafədən zondlama məlumatları və CİS əsasında tədqiqi" layihəsi çərçivəsində 3 günlük təlim təşkil edilib.**



Coğrafiya İnstitutunda ödənişsiz olaraq SNAP proqram təminatından istifadə etməklə "Məsafədən zondlama: ətraf mühitin monitorinqi üçün peyk müşahidə mənbələri" mövzusunda təşkil edilən dərsləri italiyalı professor Gian Luigi Liberti aparıb. Təlimlərin sonunda iştirakçılara sertifikat təqdim olunub.

**AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Yaqub Mahmudov Avropa Təbiət Elmləri Akademiyası (ATEA) Beynəlxalq Mükafat Komitəsinin qərarı ilə "Fenomen" ("Leonardo da Vinçi") ordeninə və "Avropada ilin alimi" beynəlxalq mükafatına layiq görülüb. Tarixçi-alimə "Fenomen" ordeni dünya elmi və təhsilindəki xidmətlərinə, "Avropada ilin alimi" beynəlxalq mükafatı isə 2022-ci ildəki uğurlarına görə verilib.**

Yaqub Mahmudov tarixşünaslıqda ilk dəfə olaraq XV–XVII əsrlərdə Azərbaycanın Avropa ölkələri ilə geniş diplomatik əlaqələr saxladığını və həmin ölkələrlə danışıqlar apararmış bir çox Azərbaycan diplomatlarının adlarını üzə çıxarıb. Onun əsərləri indiyədək 15 dilə – türk, ingilis, rus, alman, ərəb, fars, fransız, gürcü, ibri, ispan, italyan, polyak, Ukrayna, urdu və rumın dillərinə tərcümə edilib.



Xatırladaq ki, Yaqub Mahmudov bundan əvvəl 7 beynəlxalq akademiyanın, o cümlədən İtaliyanın Beynəlxalq İqtisadi və Sosial Elmlər, Bonifasiana və Avropa Təbiət Elmləri Akademiyalarının həqiqi üzvü seçilib, həmçinin ATEA-nın "Qotfrid Vilhelm Leybnits" medalı və "Fəxri Legion" ordeni ilə təltif edilib.

**AMEA-nın Rəyasət Heyətinin həftəlik mətbu orqanı olan "Elm" qəzetinin növbəti sayı işıq üzü görüb. Qəzetin ilk səhifəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın XVI "Caspian Agro" və XXVIII "InterFood Azerbaijan" sərgiləri ilə tanış olmalarına dair məlumat yer alıb.**




Bundan əlavə, oxucular "Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti" mövzusunda konfrans, "Heydər Əliyev: xalqa həsr olunmuş ömür" kitabının təqdimatı, AMEA-da Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş elmi sessiya, İctimai Elmlər Bölməsinin Elmi şurasının iclası, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin yüksək elmi nəticələri, "Əlyazmalar İnstitutu Heydər Əliyevin əsəridir" sərlövhəli məqalə, yeni nəşrlər və s. informasiyalarla tanış ola bilərlər.

***Hazırladı:***
***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

# Festivalın əlvan rəngləri



**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Astara Rayon İcra Hakimiyyətinin birgə təşkil etdikləri təhsil festivalı ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuşdur.**

Astara şəhəri dənizkənarı park-bulvar ərazisində başlanan festivalda Elm və Təhsil naziri Emin Əmrullayev, Gənclər və İdman naziri Fərid Qayıbov, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Milli Məclisin deputatları, tanınmış ictimaiyyət nümayəndələri, ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin rəhbərləri, müəllimlər, şagirdlər, valideynlər iştirak ediblər. Lənkəran-Astara Regional Təhsil İdarəsi, Lənkəran Rayon Mədəniyyət İdarəsi, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi tədbirə sanballı töhfələr hazırlamışdılar.

Festivalın keçirilməsində məqsəd özəl sektor və ölkə üzrə təhsilin inkişafı üçün digər maraqlı tərəflər arasında regionda əməkdaşlıq platformasının yaradılmasına dəstək verməkdir. Təqdimatlarla ali, orta ixtisas və peşə təhsil müəssisələri, eləcə də beynəlxalq, respublika idman yarışlarının və müxtəlif layihələrin qalibləri çıxış edib, düzgün ixtisas seçimi, təhsil kreditləri ilə bağlı məlumatlar verilib, xarici dillərdə dialoqlar aparılıb, kitab sərgisi və flaşmob nümayiş etdirilib, şagirdlərin musiqili çıxışları olub. Festivalda iştirak edən müəssisələr xidmət və məhsullarını nümayiş etdiriblər. Vətən müharibəsi iştirakçıları olan təhsil işçiləri ilə görüşlər xoş təsir bağışlayıb.

İcma və məktəbəqədər təhsil müəssisələri şagirdlərinin çıxışları da festivala xüsusi rəng qatıb, regionun peşə təmayüllü siniflərinin, istedadlı gənc kimyaçıların və "Aqrobiomüxtəliflik" müsabiqəsi iştirakçılarının, eləcə də "SABAH" alimləri və STEAM layihələri qaliblərinin təqdimatı da diqqət çəkib.

Elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib: "Ölkənin təhsil müəssisələrində çox müxtəlif, maraqlı layihələr icra olunur. Bu, insanların pozitivə köklənməsi baxımından önəmlidir. Ümumilikdə bugünkü səhnə bizim hamımızı sevindirdi. Gələcəkdə belə tədbirlərdən çox keçirəcəyimizə ümid edirəm. İnanıram ki, bu cür tədbirlər ilk növbədə şagirdlərin özləri üçün çox faydalıdır. Şagirdlər belə tədbirlərdən sonra daha motivasiyalı olub, öyrənməyə, hazırlığı olmağa, daha yaxşı vətəndaş olmağa cəhd göstərəcəklər".

Festivalda iştirak edən aparıcı ali təhsil müəssisələri arasında Azərbaycan Dövlət Pedaqoji Universiteti özünün geniş stendi və təqdim olunan təhsil xidmətləri ilə xüsusilə fərqlənib. Son illər burada istər innovativ elmi-pedaqoji yanaşmaların tətbiqi, beynəlxalq əməkdaşlıq, istərsə də müasir tədris infrastrukturunun, laboratoriyaların yaradılması fonunda qəbul planının tam dolduğu haqqında məlumat verilərək, keçirilən festivalda da cəmiyyətdə pedaqoji ixtisaslara və ADPU-ya böyük marağın əks olunduğu diqqətə çatdırılıb. Stenddə universitetdə aparılan elmi-tədqiqatların nəticələrinin əks olunduğu kitablar, dövri-elmi jurnallar, ADPU-nun 100 illik yubileyinə həsr olunmuş silsilə əsərlər, reklam və məlumat materialları nümayiş olunub.

Xəzərin sahilindəki park-bulvara toplaşmış iştirakçılar təqdimatları maraqla qarşılayıblar. Festival boyunca iştirakçılar kitab sərgilərində iştirak edib, düzgün ixtisas seçimi, təhsil tələbə kreditləri və s. ilə bağlı məlumatlandırılıb.

Gənc nəslin intellektual səviyyəsinin yüksəlməsinə xidmət edən belə tədbirlərin paytaxtla yanaşı regionlarda keçirilməsini yüksək qiymətləndirilib, regionların inkişafına göstərdiyi diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıq edilib.

***Ə.NƏCƏFXANLI, "Xalq qəzeti"***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 107 (30223) 23 may 2023-cü il, çərşənbə axşamı
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Balaca şahmatçılar Avropadan 5 medal gətirdilər



**Albaniyada keçirilən məktəblilər arasında şahmat üzrə Avropa birinciliyində təmsilçilərimiz beş medal qazanıblar.**

On yeddi yaşadək oğlanların yarışında Aqil İsrailov və 9 yaşadək oğlanların mübarizəsində Yasin Əzimov çempionatın qızıl medalına sahib çıxıblar. On üç yaşadək olan kateqoriyada Səadət Bəşirli qızların, Mirsaleh Seyidli isə oğlanların yarışında gümüş mükafat qazanıb. On beş yaşadək qızlar kateqoriyasında çıxış edən Nurtən Nuriyeva bürünc medalla mükafatlandırılıb.

## Çin Dünya Qadın Seriyası Astara mərhələsinin qalibi oldu




**Basketbolun 3x3 növü üzrə Dünya Qadın Seriyasında Astara mərhələsinə yekun vurulub.**

Dörddəbir final oyununda klub təmsilçimiz "Neftçi" Çin millisinə 6:21 hesabı ilə məğlub olub. Ukrayna seçməsi Polşa komandasına 16:13 hesabı ilə qalib gəlib. Digər dörddəbir final oyunlarında Avstriya 14:8 hesabı ilə Macarıstana, Misir seçməsi isə 21:13 hesabı ilə Çinin "Yuanda" klubuna qalib gəlib.

Yarımfinal oyunlarında Çin millisi Ukraynanı 19:17, Misir yığması isə Avstriyanı 21:14 hesabla üstələyib. Finalda Misirə 21:15 hesabla qalib gələn Çin yığması Astaradakı turnirin qalibi olub.




## İspaniyada 3 medal qazanıldı

**İspaniyanın Malaqa şəhərində keçirilən gənclər arasında Avropa kuboku turnirini Azərbaycan cüdoçuları 3 medalla başa vurublar.**

Komandamızın aktivinə qızıl medalı 66 kiloqram çəki dərəcəsində çıxış edən Aydın Rzayev qazandırıb. Kənan Nəsibov (+100 kq) gümüş, Süleyman Əliyev (73 kq) isə bürünc medala sahib olublar.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***



## Namanqanda gül festivalı

**Özbəkistanın Namanqan şəhərindəki Zəhirəddin Məhəmməd Babur adına parkda "Namangan Flowers-2022" 61-ci beynəlxalq gül festivalı keçirilir.**

Bayramda Özbəkistanın mədəniyyət və turizm naziri Azadbek Nazarbekov, Niderland, Türkiyə, Rusiya, Qırğızıstan, Tacikistan, Türkmənistan, Cənubi Koreya və digər ölkələrdən gələn professional gülçülər, landşaft dizaynerləri, tanınmış floristlər və gül həvəskarları iştirak edirlər.

Festival güllərlə bəzədilən 200-dən artıq müxtəlif markalı minik maşınının, retro avtomobillərin, motosikletlərin və kənd təsərrüfatı texnikasının paradı ilə açılıb, maşınlar şəhərin mərkəzi küçələrindən keçib. Nəqliyyat vasitələrinin bəzədilməsinə 25 milyon əدəd müxtəlif gül işlədilib.

Maşınların paradını şəhər sakinləri və qonaqlar alqışlarla qarşılayıblar. Bildirilib ki, gül bayramında 2,5 milyon turistin iştirak edəcəyi gözlənilir. Tədbir iyunun 4-dək davam edəcək.

***Qulu KƏNGƏRLİ***

**Namanqan**

## RedmiBook 14-ün ekranı da fərqlidir



**Mediaya ötürülən xəbərlərə görə Redmi brendi 14 düyüm ekrana sahib RedmiBook noutbukunun yeni versiyasını təqdim edib.**

Bildirilir ki, RedmiBook 14 (2022)-dən fərqli olaraq RedmiBook 14 (2023) modeli sahib olduğu prosessorla yanaşı, həmçinin professional ekranı ilə də fərqlənir.

Beləliklə, sözügedən noutbuk 120 Hz-lik təsvir yenilənməsinə sahib 2, 8K keyfiyyətli 14 düym IPS ekran ilə təchiz olunub. Ekran sRGB rəng diapazonunun 100 faizini əhatə edir və özündə Dolby Vision dəstəyini birləşdirir.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***


# OXUCULARIN NƏZƏRİNƏ!
## "Xalq qəzeti"

*2023-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
2. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
3. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050) -456-08-35.

1 illik – 124.80 (yüz iyirmi dörd manat səksən qəpik) manat.

6 aylıq – 62.40 (altmış iki manat qırx qəpik) manat.

3 aylıq – 31.20 (otuz bir manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**

*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

**"Xalq qəzeti"nin reklam və elan xidməti: 493-82-21**


*Sosial şəbəkələrdən seçmələr*

## Çay nədir, say nədir ...



**Sosial şəbəklərdə fəallığı ilə seçilən Pərvanə Kazımzadə adlı bir ziyalı xanım dünən özünün "Facebook" süfrələrimizin bəzəyi olan çayla bağlı maraqlı bir paylaşım edib. Orada yazılır:**

"Bu il mayın 21-i Beynəlxalq Çay Günüdür. Çay mənə çox əzizdir, çünki çay dostluqdur, sevgidir, doğmalıqdır. Çay sevincdir, xatirədir...

Mənim üçün hər bir çay dəstgahının özəl hekayəti var. Ömrüm boyu doğmalarım və dostlarım üçün böyük həvəslə çay dəmləmişəm. Heç vaxt usandım deməmişəm. Qazaxda, Gəncədə, Qəbələdə, Astarada, yolüstü Kürdəmirdə dostlarla çay içmişik.

Dünyanın ən ətirli çayı Lənkəran çayıdır. Bu, təkcə mənim qənaətim deyil. Azərbaycan çayının bütün çaylardan dadlı olduğunu əcnəbi ölkələrdən olan dostlarım da etiraf edirlər.

Gəlin, çayımızı soyutmayaq. Necə deyərlər, çay nədir, say nədir...

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

## İlon Maskın "hər şey tətbiqi"

**İlon Mask Çində uğurlu olan "WeChat"a rəqib ola biləcək "Everything App" (Hər şey tətbiqi) tətbiqini reallaşdırmaq üzrədir. Belə ki, "Twitter" işə qəbul prosesinə başlayıb. Bu barədə "Twitter Daily News" səhifəsində məlumat verilib.**




İstifadəçilər bir proqram vasitəsilə hər şey– alışveriş edə, taksi çağıra, dostları ilə yazışa, şəkil göndərə və s. işləri daha asan, qısa zamanda edə biləcəklər. "Everything App"ın bir hissəsi ola biləcək kiçik sayt hazırlanıb. Yeni istedadlar axtarışında olan "Twitter"in qurucusu tətbiqlə bağlı vəzifələr üçün elan verib.

Qeyd edək ki, İlon Mask "Twitter"dən sonra ilk dəfədir ki, bir şirkətin satınalınmasına rəhbərlik edib. Proqramın ABŞ-dan başqa, digər ölkələrdə də nə vaxt istifadəyə veriləcəyi barədə məlumat yoxdur.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

*Texnologiya*

## İlk səudiyyəli qadın kosmosa göndərildi

**"Axiom Space"-in rəhbərlik etdiyi Beynəlxalq Kosmik Stansiyaya (BKS) ABŞ-ın cənubundakı Florida ştatından ilk qadın kosmonavt göndərilib.**

Döş xərçəngi tədqiqatçısı Rayyanah Barnavi kosmosa səyahət edən ilk səudiyyəli qadındır. Onunla bərabər, həmyerlisi, hərbi pilot Əli əl-Qarni də kosmosa yola salınıb.



Onlar kosmik gəmidə tədqiqat aparacaqlarını və təcrübələrini yaxın dostları ilə bölüşəcəklərini deyiblər.

"Axiom Mission 2 (Ax-2)" heyəti bazar günü yerli vaxtla saat 17:37-də Kanaveral burnunda yerləşən Kennedi Kosmik Mərkəzindən "SpaceX Falcon 9" raketi ilə havaya qalxıblar.

On gün tədqiqat aparmaları nəzərdə tutulan ekipaj üzvləri bazar ertəsi saat 09:25-də kosmik stansiyaya eniş ediblər.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

*Proqnoz*

## Dağlıq ərazilərə yağış yağacaq, duman olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən mayın 23-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Şimal küləyi əsəcək, gündüz cənub küləyi ilə əvəz olunacaq. Gecə 14-18°, gündüz 24-29° isti olacaq. Atmosfer norma daxilində 760 mm civə sütunu,nisbi rütubət 65-75 faiz olacaq.



Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi şimal və qərb rayonlarında yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 25-30°, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacaq.

***Q.QASIMOV, "Xalq qəzeti"***


## "Goranboy Şərab" ASC səhmdarlarının nəzərinə!

7 iyul 2023-cü il saat 16.00-da "Goranboy Şərab" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2022-ci ilin maliyyə - təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Digər təşkilati məsələlər.

Bütün səhmdarların yığıncaqda iştirakı vacibdir.

Telefon-070-387-65-04.

Ünvan- Goranboy şəhəri, Cəfər Cabbarlı küçəsi 6.


## ALLAH RƏHMƏT ELƏSİN

Etibar Hacıyev ailəsi ilə birlikdə yaxın qohumu İradə Rüstəmovaya əmisi

**CƏMİL QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1234
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00